B İ U
ZAQATALA ŞÖBƏSİ NƏŞRİ №: 07

# FİQH ÜSULU
## (İSLAM HÜQUQ METODOLOGİYASI)

FUAD QULİYEV • ANAR QURBANOV



بسم الله الرحمن الرحيم

Bakı-2007

***BİU ZAQATALA ŞÖBƏSİ NƏŞRİ № 07***

# İSLAM HÜQUQ METODOLOGİYASI

## (FİQH USULU)

Hazırlayanlar:

**Fuad QULİYEV**

**Anar QURBANOV**

Azərbaycan Respublikası
Bakı İslam Universiteti
Zaqatala Şöbəsi

*Kitabın adı:*
İslam Hüquq Metodologiyası
(Fiqh Üsulu)

*Müəllif:*
Fuad QULİYEV
Anar QURBANOV

*Məsləhətçi:*
B.İ.U Zaqatala Şöbəsinin Müdiri İbrahim İbrahimov

*Bədii Redaktor:*
Filologiya elmlər namizədi - Həşim İsmayılov

*Dizayn:*
Ülvi Məmmədov

Bu Kitab Bakı İslam Universiteti Zaqatala Şöbəsinin 07 fevral 2007-ci il tarixli Pedoqoji Şurasının IV iclasının 5 saylı qərarı ilə çap edilmişdir.

Ünvan: Zaqatala Şəh. Heydər Əliyev pros. No:88

İndex: 6200

Tel: (+994) 174 53 246

Faks: (+994) 174 52 183

e-mail: zakatalailahiyat@gmail.com

ISBN: 978-9952-8111-7-9

Ders Kitabları - 07

Bakı 2007

## MÜNDƏRİCAT


ÖN SÖZ ........ 13

GİRİŞ

FİQH ÜSULUNA DAİR ÜMUMİ MƏLUMAT

I. FİQH ÜSULUNUN TƏRİFİ VƏ PREDMETİ ........ 17

II. MƏQSƏDİ ........ 20

III. TƏŞƏKKÜL TARİXİ ........ 21

IV. ŞİƏ-İMAMİYYƏDƏ FİQH ÜSULU VƏ ƏSƏRLƏRİ ........ 26

I FƏSİL

ŞƏRİ HÖKMLƏRİN DƏLİLLƏRİ

DƏLİL TERMİNİ VƏ İSLAM HÜQUQUNDA DƏLİLLƏR ........ 31

ƏSLİ DƏLİLLƏR (İTTİFAQ EDİLƏN DƏLİLLƏR) ........ 31

I. KİTAB (QURANİ-KƏRİM) ........ 31

A. Tərifi ........ 32

B. Xüsusiyyəti ........ 32

C. Quranın dəlil olması haqqında ........ 33

D. Quranın hökmlərə dəlaləti ........ 33

E. Quranın hökmləri izah etmə tərzi ........ 34

F. Quranın hökmləri bəyanı ........ 34

1. Müfəssəl olaraq bəyan edilən hökmlər: ........ 34

2. Müxtəsər olaraq bəyan edilən hökmlər: ........ 34

G. Şiə məzhəblərinə görə hökm mənbəyi kimi Qurani-kərim .......... 35

II. SÜNNƏ .......... 36

A.Növləri .......... 36

1. Mütəvatir .......... 36

2. Məşhur .......... 36

3. Ahad .......... 37

a. Səhabənin ahad hədisə baxışı: .......... 37

b. Hənəfilərin şərtləri .......... 38

c. Malikilərin şərtləri .......... 39

d. Şafilərin şərtləri .......... 39

e. Hənbəlilərin şərtləri .......... 39

B. Qanunvericilik baxımından sünnənin mövqeyi .......... 39

C. Peyğəmbərimizin davranışları .......... 40

D. Sünnənin dəlil olması haqqında .......... 40

E. Şiə məzhəblərinə görə sünnə və növləri .......... 41

III. İCMA .......... 43

A. Tərifi .......... 43

B. Şərtləri .......... 43

C. Növləri .......... 44

D. İcmanın dəlil olması haqqında .......... 44

E. İcmanın məsnədi (istinad nöqtəsi) .......... 45

F. Şiəyə görə icma .......... 46

IV. QİYAS .......... 47

A. Tərifi .......... 47

B. Qiyasın dəlil olması .......... 47

C. Qiyasın rüknləri və şərtləri .......... 48

1. Əsl ........ 48
2. Fər ........ 49
3. Əslin hökmü ........ 50
4. İllət ........ 50
D. Qiyasın növləri ........ 52
E. Şiə məzhəblərinə görə qiyas ........ 53
FƏRİ DƏLİLLƏR (İXTİLAFLI DƏLİLLƏR) ........ 53
I. MƏSALEHİ-MÜRSƏLƏ ........ 53
A. Tərifi ........ 53
B. Şərtləri ........ 54
C. Məsalehi-mürsələnin dəlil olması haqqında ........ 54
D. Məsalahi-mürsələnin qiyasla müqayisəsi ........ 55
II. İSTEHSAN ........ 56
A. Tərifi ........ 56
B. Növləri ........ 58
C. İstehsanın dəlil olması haqqında ........ 60
D. İstehsanın məsalehi-mürsələ ilə müqayisəsi ........ 60
III. ADƏT-ƏNƏNƏ ........ 61
A. Tərifi ........ 61
B. Növləri ........ 61
C. Adətin dəlil olması haqqında ........ 62
D. Adətin mötəbərliyi üçün lazımi şərtlər ........ 64
E. Adətin dəyişməsi ilə ehkamın dəyişməsi ........ 65
IV. ŞƏRU MƏN QƏBLƏNA ........ 67
A. Tərifi ........ 67
B. Növləri ........ 67

V. SƏHABƏ QÖVLÜ ........ 69
A. Tərifi ........ 69
B. Hökmü ........ 69
VI. SƏDDİ-ZƏRAİ ........ 70
A. Tərifi ........ 70
B. Növləri ........ 70
C. Səddi-zərainin dəlil olması haqqında: ........ 71
VII. İSTESHAB ........ 71
A. Tərifi ........ 72
B. Növləri ........ 72
C. İsteshab əsasına görə qoyulan fiqhi prinsiplər ........ 73

II FƏSİL

HÖKMLƏR

I. HÖKM ........ 77
A. Tərifi ........ 77
B. Növləri ........ 77
1. Təklifi hökmlər ........ 77
a) Vacib ........ 78
b) Məndub ........ 83
c) Sünnə ........ 85
d) Müstəhəb ........ 85
e) Haram ........ 85
f) Məkruh ........ 87
g) Mübah ........ 88
i) Əzimət və rüxsət ........ 89
2. Vəzi hökmlər ........ 91
a) İllət ........ 92

b) Səbəb ..... 94
c) Rükn ..... 96
d) Şərt ..... 96
e) Əlamət ..... 98
f) Mane ..... 98
C. Səhhət, Fəsad, Bütlan ..... 99
D. Təklifi və vəzi hökmlər arasındakı fərqlər ..... 99
II. MƏHKUMUN BİH (FİH) ..... 100
A. Qüdrət və məşəqqət ..... 100
B. Allah və qul haqları ..... 102
1. Allah haqları ..... 102
2. Qul haqları ..... 103
3. Allah haqqı üstünlük təşkil edənlər ..... 103
4. Qul haqqı üstünlük təşkil edənlər ..... 103
III. MƏHKUMUN ƏLEYH ..... 104
A. Mükəlləfiyyətin əsas şərti ..... 104
B. Əhliyyət ..... 104
1. Vücub əhliyyəti ..... 104
2. Əda əhliyyəti ..... 105
C. Əhliyyət maneələri ..... 105
1. Səmavi maneələr ..... 106
2. Müktəsəb maneələr ..... 110

III FƏSİL

HÖKM ƏLDƏ ETMƏ METODLARI

LƏFZLƏR BƏHSİ ..... 117
I. QOYULDUĞU MƏNA BAXIMINDAN LƏFZ ..... 117

A. Xass ........ 117
1. Mütləq ........ 117
2. Müqəyyəd ........ 118
3. Əmr ........ 119
4. Nəhy ........ 120
B. Amm ........ 121
1. Amm ləfzin növləri ........ 121
2. Dəlaləti və hökmü ........ 121
3. Amm xass təzadlığı: ........ 122
4. Ammın təxsisi ........ 122
C. Müştərək ........ 124
D. Təvil ........ 125
II. İSTİFADƏ OLUNDUĞU MƏNA BAXIMINDAN LƏFZ ........ 126
A. Həqiqət ........ 126
B. Məcaz ........ 127
C. Sərih ........ 127
D. Kinayə ........ 128
III. MƏNAYA DƏLALƏTİNİN AÇIQLIĞI VƏ QAPALILIĞI BAXIMINDAN LƏFZ ........ 128
A. Açıqlıq cəhətindən ləfzin növləri ........ 128
1. Zahir ........ 128
2. Nəss ........ 129
3. Müfəssər ........ 129
4. Möhkəm ........ 129
B. Qapalılıq cəhətindən ləfzin növləri ........ 131
1. Xəfi ........ 131
2. Müşkil ........ 132

3. Mücməl ........ 133
4. Mütəşabeh ........ 133
IV. MƏNAYA DƏLALƏTİNİN ŞƏKLİ BAXIMINDAN LƏFZ ........ 134
A. Hənəfilərə görə ........ 134
1. İbarənin dəlaləti (nəssin ibarəsi) ........ 134
2. İşarənin dəlaləti (nəssin işarəsi) ........ 134
3. Nəssin dəlaləti (dəlalətin dəlaləti) ........ 135
4. İqtizanın dəlaləti (nəssin iqtizası) ........ 135
B. Əksəriyyət üləmaya görə ........ 136
1. Dəlalətül-məntiq ........ 136
2. Dəlalətül-məfhum ........ 136
C. Dəlalətlərin təzadı ........ 138
HÖKMLƏRİN QAYƏSİ ........ 139
DƏLİLLƏRİN TƏZADI VƏ HƏLL YOLLARI ........ 139
I. HÖKMLƏRİN QAYƏSİ (MƏQASİDÜŞ-ŞƏRİƏ) ........ 139
A. Tərifi və mahiyyəti ........ 139
B. Növləri ........ 140
1. Zəruriyyatın qorunması ........ 140
2. Haciyyatın təmini ........ 140
3. Təhsiniyyatın/Kəmaliyyatın gerçəkləşdirilməsi ........ 141
II. DƏLİLLƏRİN TƏZADI ........ 141
A. Tərifi ........ 141
B. Təzadın rükn və şərtləri ........ 141
C. Təzadı ortadan qaldırma yolları ........ 141
1. Nəsx ........ 141
2. Tərceh ........ 145

3. Cəm və tövfiq ... 146
4. Tərk (təsaqüt) ... 147

IV FƏSİL

İCTİHAD, TƏQLİD VƏ TƏLFİQ

I. İCTİHAD ... 151
A. Tərifi ... 151
B. İctihadın təşəkkül və inkişaf tarixi ... 152
C. İctihadın şərtləri ... 154
D. İctihadın dərəcələri ... 156
E. İctihadın təcəzzi (bölünmə, parçalanma) qəbul edib-etməməsi 157
F. İctihadın nəqzi (dəyişməsi) ... 157
G. İctihadın sahəsi (ictihadın caiz olub-olmadığı mövzular ... 158
H. İctihad qapısının bağlanması və yenidən bərpası məsələsi ... 159
İ. İctihadın hökmü ... 161
II. TƏQLİD ... 162
A. Təqlidin tərifi və tarixçəsi ... 162
B. Təqlidin hökmü ... 163
C. Şiə məzhəblərinə görə ictihad və təqlid ... 165
III. TƏLFİQ ... 169
A. Təlfiqin tərifi və mahiyyəti ... 169
B. Təlfiqin hökmü ... 170

FIQH ÜSULU (SXEM) ... 172

## ÖN SÖZ

Tarix boyunca bəşəriyyətin hüquq və hüquq normaları ilə məşğul olması ilə yanaşı hüququ ilk dəfə bir "elm" kimi ələ alma şərəfinin müsəlman alimlərə aid olduğu bir həqiqətdir. Həqiqətən hüquq fəlsəfəsi və hüquq metodologiyasının bir çox məsələlərini öz əhatəsinə daxil edərək dünya hüquq ədəbiyyatı içində orijinal bir mövqe tutan fiqh üsulu, İslam elmləri arasında da mühüm bir mövqeyə sahibdir.

Odur ki, İslam hüquqşünasları bu sahədə müxtəlif metodlarla yüzlərlə əsər qələmə almışdırlar. Ancaq əfsuslar olsun ki, günümüzdə ölkəmizdə İslam hüquq metodologiyasına dair sistematik bir əsər yazılmamışdır. Belə olan təqdirdə hesab edirik ki, müxtəlif ilahiyyat fakültələrində bu fənnin tədris edilməsinə baxmayaraq bu sahədə hər hansı vəsait olmadığı üçün həm müəllim, həm də tələbələrin ehtiyacını nəzərə alaraq dərslik kimi belə bir kitabın hazırlanması zəruri hal almışdır. Bu əsərin ölkəmizdə istər tədris fəaliyyəti ilə məşğul olanlara, istərsə də İslam elmləri ilə yaxından maraqlananlara faydalı olacağını ümid edirik.

Kitab, giriş və dört fəsildən ibarətdir. Girişdə fiqh üsuluna dair ümumi məlumat verilmişdir. Birinci fəsildə fiqh üsulunun əsas mənbələrindən, yəni əsli və fəri dəlillərdən bəhs olunmuşdur. İkinci fəsildə hökmlər, üçüncü fəsildə ləfzlər və dəlillərin təzadı, nəhayət dördüncü fəsildə isə ictihad, təqlid və təlfiq mövzuları incələnmişdir.

Sözügedən kitab hazırlanarkən əsasən Prof. Dr. İbrahim Kafi DÖNMEZİN tərcümə etdiyi *İslam Hukuk İlminin Esasları* ( Üsul əl-fiqh, Zəkiyyuddin Şaban) və Prof. Dr. Fahrettin ATARIN *Fıkıh Usulü* kitablarından istifadə edilmişdir. Ayrıca bu kitabda şiə-imamiyyənin fiqh üsulu ilə əlaqəli bəzi görüşlərinə də yer verilmişdir.

Bu kitabın ərsəyə gəlməsində göstərdiyi hər cür köməkliyə görə başda Gəncliyə Yardım Fondu olmaqla, Bakı İslam Universitetinin Zaqatala

şöbəsinin rəhbərliyinə və öz yardımlarını əsirgəməyən tələbələrimizə dərin minnətdarlığımızı bildirik.

***Anar QURBANOV - Fuad QULİYEV***
**ZAQATALA 2006**

# GİRİŞ
# FİQH ÜSULUNA DAİR ÜMUMİ MƏLUMAT

## I. FİQH ÜSULUNUN TƏRİFİ VƏ PREDMETİ

Fiqh üsulu, ərəbcə ifadəsi ilə üsuli-fiqh (اصول الفقه), fiqhin əsilləri, kökləri və prinsipləri kimi mənalara gəlir. Üsul (اصول), əsl (اصل) kəlməsinin cəmidir. Lüğətdə kök, qayda və metod kimi mənalara gəlir. Fiqh (فقه) isə lüğətdə "başa düşmə və dərindən qavrama" mənalarına gəlir. Terminologiyada isə, müsəlmanlar üçün şəri (dini-hüquqi) hökmləri ifadə və izah edən xüsusi bir elmin adıdır.

Hüquq elmi baxımından fiqh üsulu tam olaraq nə ifadə edər?

Bu terminin, hüquq metodologiyası mənasına gəldiyini iddia edənlər olduğu kimi, hüquq fəlsəfəsini ifadə etdiyini düşünənlər və həm hüquq metodologiyası həm də hüquq fəlsəfəsini əhatə etdiyini irəli sürənlər də vardır. Əslində isə bu termin nə tamamilə hüquq fəlsəfəsini nə də hüquq metodologiyasını ifadə edər. Fiqh üsulunun quruluşu və funksiyaları nəzərə alındıqda bu terminin müsəlmanlara aid xüsusi və orijinal bir dəyərə malik olduğunu, qismən hüquq metodologiyasını, qismən də hüquq fəlsəfəsini ehtiva etdiyini demək mümkündür. Bu səbəblə də İslam alimlərinin bu elmi izah etmək üçün "üsul" kəlməsindən istifadə etmələri məqsədəuyğundur. Çünki bu kəlmə, həm metod həm də şərh və izah mənalarına gəlir. Buna görə fiqh üsulu, fiqh hökmlərinin haradan və necə əldə edildiyini göstərməsi baxımından metodologiyadır. Eyni zamanda fiqh üsulu fəlsəfədir. Çünki hüquq fəlsəfəsi, hökmün mahiyyətini, mənbəyini, qanun qoyucunun kim olduğu, əşyanın əsl xüsusiyyətinin nədən ibarət olduğu kimi məsələləri ortaya çıxararaq bunlara qane edici həll yolları tapar. Odur ki, fiqh üsulunu başqa bir kəlmə ilə tam olaraq ifadə etmək mümkün deyildir.

Fiqh üsulunun bir çox tərifi vardır. Ancaq bunlar arasında ən çox istifadə edilən tərif aşağıdakıdır:

أصول الفقه هي: القواعد التي يتوصل بها المجتهد الى استنباط الأحكام الشرعية العملية من الأدلة التفصيلية

**Mənası:** "Müctəhidin (İslam hüquqşünası) şəri-əməli hökmləri (ehkamı) təfsili dəlillərdən əldə etmə prosesində əsas aldığı qaydalardır."

**Tərifin izahı:** القواعد kəlməsi, القاعدة (qayda) kəlməsinin cəmidir. Qayda, bir sıra cüzi məsələlərin hökmünü öz əhatəsinə alan külli qəziyyələr deməkdir. Məsələn, "əmr, vaciblik bildirir (الأمر يفيد الوجوب)" bir qaydadır. Çünki bu, أقيموا الصلوة وآتوا الزكوة (namaz qılın oruc tutun!)[1] ayəsi kimi əmr formasında olan bir çox cüzi məsələlərə tətbiq oluna bilən xüsusiyyətə malik külli bir qəziyyədir. Həmçinin "nəhy, qadağa bildirir (النهي يفيد التحريم)" başqa bir qaydadır. Çünki bu qayda da ولا تقتلوا النفس التي حرم الله الا بالحق (Allahın (qətlini) haram buyurduğu cana qıymayın!)[2] ayəsi kimi qadağa formasında olan və bir çox cüzi məsələlərə tətbiq oluna bilən xüsusiyyətə malik külli bir qəziyyədir. Başqa bir ifadə ilə bu qaydanın hökmü onun əhatəsi daxilində olan bütün cüzi nəslərə (əmr/qadağa ifadə edən ayə və ya hədislərə) tətbiq olunur.

التي يتوصل بها المجتهد الى استنباط الأحكام (müctəhidin hökmləri əldə etmə prosesində əsas aldığı) ifadəsindən bu qaydaların, müctəhidin hökmləri anlaması və dəlillərdən hökmləri əldə edə bilməsi üçün bir vasitə olduğu aydın olur. Mövzunun daha da aydın olması üçün -hökmləri əldə etmə baxımından- üsulşünasla İslam hüquqşünasının arasındakı fərqi misallarla izah etmək lazımdır.

Üsulşünas, kitab, sünnə və digər dəlilləri tədqiq edərək bunların ümumi, xüsusi, əmr, nəhy, mütləq və müqəyyəd kimi müxtəlif formalarını araşdırır və hansı formada olduqlarını təsbit edərək bunlardan hər birinin hökmünü açıqlayan qaydalar əmələ gətirir. Məsələn, kitab və sünnədə mövcud olan "əmrlərə" nəzər salar və bunların hansı hökmə dəlalət etdiyini araşdırar. Araşdırma nəticəsində bu qənaətə gələr ki, "əmr" "məmurun bihin" (əmr edilən şeyin) vacib olduğunu göstərir. Beləliklə də "əmr vaciblik bildirir (الأمر يفيد الوجوب)" qaydasını qoyar. Həmçinin Kitab və Sünnədə mövcud olan "nəhyləri" (qadağaları) incələyər və bunun nəticəsində "mənhiyyun ənhin"

1. Bəqərə, 2/43.
2. Ənam, 6/151.

(qadağan olunan şeyin) haram olduğunu göstərdiyi qənaətinə gələr. Beləliklə də “nəhy, qadağa bildirir (النهي يفيد التحريم)” qaydasını ortaya qoyar.

Fəqih (İslam hüquqşünası), fəri bir məsələnin hökmünü təsbit etmək istədikdə, sözügedən üsul qaydalarını əsas alaraq fəri məsələ ilə əlaqəli dəlilə (cüzi və ya təfsili dəlilə) tətbiq edər. Beləliklə də o dəlilin hansı şəri hökmə dəlalət etdiyini ortaya qoyar. Məsələn, fəqih namazın hökmünü təsbit etmək istədikdə, namaz ilə əlaqədar təfsili dəlilləri araşdırar və أقيموا الصلوة (namazı qılın)[3] ayəsini tapar. Bu cüzi dəlildə namazın “əmr” edildiyini görər və dərhal əmrin hökmünü açıqlayan üsul qaydasından yəni “əmr vaciblik bildirir” qaydasından istifadə edər və nəticədə أقيموا əmri, əmr olunan şeyin vacib olduğunu bildirdiyi qənaətinə gələr. Beləliklə də fəqih namazın vacib olduğu hökmünü ortaya qoyar. Bu kimi örnəkləri çoxaltmaq mümkündür.

Xülasə, üsulşünasın vəzifəsi, icmali dəlilləri (kitab, sünnə və icma) incələyib müctəhidin təfsili (hər bir hadisə ilə əlaqədar) dəlillərdən cüzi hökmlər çıxarmasına kömək edən külli qaydalar təsbit etmək və bu qaydaları şəri dəlillərlə sübuta yetirib səhih əsaslara istinad etməkdir.

الأحكام kəlməsi الحكم (hökm) kəlməsinin cəmidir. Hökm, bir şey haqqında onun mənfi və ya müsbət kimi hallarının müəyyən edilməsi deməkdir. Məsələn, “günəş çıxmışdır” və ya “günəş çıxmamışdır.”

Ümumiyyətlə hökmlər üç növdür. Əqli, hissi və şəri hökmlər. Əqli hökmlərin misalı “bir, ikinin yarısıdır”. Hissi hökmlər məsələn, “atəş yandırıcıdır” Şəri hökmlərə misal, “namaz vacibdir”, “sələm (faiz) haramdır” Görüldüyü kimi bu hökmlərin hər birinin öz mənbəyi vardır. Məhz, üsulşünasların tərifdə hökmlər kəlməsini (الشرعية) “şəri” kəlməsi ilə məhdudlaşdırmalarındak məqsəd digər hökmləri bu çərçivənin kənarında tutmaqdır.

Onu da qeyd etmək lazımdır ki, şəri hökmlər də öz növbəsində üç növə ayrılır. Etiqadi, əməli və əxlaqi hökmlər. Sözügedən hökmlərin hamısını əhatə etmədiyi üçün üsulşünaslar tərifə (العملية) “əməli” kəlməsini əlavə etmişdirlər. Yəni, etiqadi və əxlaqi hökmləri nəzərdə tutduqları hökmün xaricinə çıxarmaq istəmişdirlər. Çünki etiqadi və əxlaqi hökmlər üsul

3. Bəqərə, 2/43.

elminin predmeti deyildir. Etiqadi hökmlər “tövhid” və ya “kəlam” elmində, əməli hökmlər isə “təsəvvüf” və ya “əxlaq” elmində ələ alınır.

Tərifdə qeyd edilən الأدلة التفصيلية (təfsili dəlillər), cüzi dəlillər mənasına gəlir. Cüzi dəlillər isə, hər bir hadisə ilə əlaqədar, bu hadisələrdən hər birinin hökmünü göstərən dəlillər deməkdir. Məsələn, حرمت عليكم أمهاتكم (Sizə analarınız haram edildi)[4] ayəsi cüzi və ya təfsili bir dəlildir. Çünki xüsusi bir məsələsi ilə (analarla evlənmə məsləsi ilə) əlaqədardır və bu məsələ haqqında müəyyən bir hökm (bu evliliyin haram olduğunu) göstərir. Bundan başqa bir də الأدلة الاجمالية (icmali dəlillər) vardır ki, bunlar kitab, sünnə, icma və qiyasdır və hər biri icmali dəlildir.

Təfsili dəlillər, fəqihin incələmə sahəsinə daxildir. Çünki fəqihin məqsədi, bir felin caiz və ya haram olması, bir müqavilənin etibarlı və ya etibarsız olması kimi cüzi hökmləri əldə etməkdir. Cüzi hökmlər də cüzi-təfsili dəlillərdən əldə olunur. Məhz bu səbəblə də icmali dəlilləri tərifdən kənarda tutmaq üçün (التفصيلية) təfsili dəlillər kəlməsi ilə qeyd altına alınmışdır. İcmali dəlillər isə fəqihin deyil, üsulşünasın sahəsi ilə əlaqəlidir. Çünki üsulşünasın məqsədi, fəqihin cüzi hökmləri təfsili dəlillərdən çıxararkən faydalanacağı və şəri mənbələrdən hökm əldə etməyə əlverişli ümumi qaydalar ortaya qoymaqdır. Bu qaydalar da ancaq icmali/külli dəlillərdən əldə edilir.

Nəticə olaraq, mükəlləf fəqehə dini bir hökmün mahiyyətini və bunun mənbəyini soruşduqda fəqeh də məsələn, bir şeyin halal, haram, fərz, vacib, məkruh olduğunu və bu hökmləri Kitab və Sünnədən çıxardığını bildirər. Üsulşünasın fəaliyyət sahəsi isə fərz, vacib, haram kimi dini hökmlərin ayə və hədislərdən çıxarılması ilə əlaqəli metodlardan ibarətdir. Fəqeh daha çox “nə” sualına cavab axtardığı halda, üsulşünas isə “hardan” və “necə” kimi suallarla qarşılaşır.

## II. MƏQSƏDİ

Daha əvvəl də qeyd olunduğu kimi üsul elmindən məqsəd, şəri-əməli ehkamı təfsili dəlillərindən çıxarmağı təmin etməkdir. Belə olan halda, bu

4. Nisa, 4/23.

elmi öyrənən şəxsdə ictihad səlahiyyəti meydana gəlmiş isə, yəni həmin şəxs Quranı və Sünnəni, bunlardan birində mövcud olan məsələyə qiyas etmə yollarını, İslam qanunvericiliyinin məqsədini bilmək kimi ictihad şərtlərini özündə cəm etmiş isə, artıq bu elmlə şəri nəslərdən hökmlər çıxara bilər və nəss olmayan hallarda ya nəslərdəki müəyyən edilən məsələlərə qiyas ilə və ya məsləhət dəlilinə söykənərək şəri hökmü təsbit edər.

Fiqh üsuluna dair əsərlər yazmağın və bunları öyrənmənin ən vacib məqsədlərindən biri dinin hədəf və amallarını yəni *məqasiduş-şəriə*ni bilməkdir. Klassik fiqh üsulu əsərlərində bu mövzuya az yer verilməsinə baxmayaraq əsas etibarilə fiqh üsulunun ən vacib məqsədi məhz bundan ibarət olmalıdır. Fiqh üsulu əsərlərinin əksik və ya səthi təmas etdiyi bu məqam müstəqil əsərlərlə tamamlanmağa çalışılmalıdır. Odur ki, Əndəlüslü alim Əbu İshaq əş-Şatibi (vəfatı-790/1388) *əl-Müvəfaqat fi üsuliş-şəriə* adlı əsərini bu məqsədlə yazmışdır. O, bu sahədə həm əhəmiyyətli bir boşluğu doldurmuş, həm də məqasid düşüncəsinin öncüllərindən olmuşdur.

Əgər bu elmi öyrənən şəxs ictihad səlahiyyətinə malik deyilsə, o da bu elm sayəsində aşağıdakı faydaları əldə edər:

Müctəhidlərin çıxardıqları hökmləri tam qavrayaraq qəbul edər. Belə ki, bu elm vasitəsilə İslam hüquqşünaslarının hökm verərkən hansı dəlillərə və ya müəyyən qayda və prinsiplərə əsaslandıqlarını öyrənər.

İslam hüquqşünaslarının eyni məsələ haqqındakı müxtəlif rəyləri arasında müqayisə edərək dəlil baxımından ən güclü olanı seçmə fürsətini əldə edər.

## III. TƏŞƏKKÜL TARİXİ

Fiqh üsulu elmi, hicri tarixlə II əsrin sonunda yəni Hz. Peyğəmbər, səhabə və tabeun dövründən sonra təşəkkül tapmış elmlərdəndir. Çünki Hz. Peyğəmbər dövründə hökmlər şəxsən ondan öyrənilirdi. Belə ki, hökmlər ya Rəsulullaha vəhy olunan Quran ilə və ya onun Quranı söz, fel və yaxud təqriri yolu ilə izah edən Sünnəsi ilə sabit olurdu. Belə olan təqdirdə bir sıra metod və qaydalara ehtiyac duyulmurdu.

Hz. Peyğəmbər Rəbbinə qovuşduqdan sonrakı dönəmlərdə insanlar arasında fitva və hökm vermə vəzifəsini səhabələr yerinə yetirirdi. Səhabələr Quran və Sünnənin dili olan ərəb dilinə, ayələrin nazil olma və hədislərin varid olma səbəblərinə çox yaxşı bələd idilər. Çünki onlar, qavrama, zəka və əxlaqi cəhətdən üstün insanlar olmaları ilə yanaşı uzun müddət Rəsulullah ilə birlikdə yaşamış, onunla yoldaşlıq etmiş şəxslərdir. Şəri mənbələrdən hökm çıxararkən istifadə etdikləri qaydaları nəzəri olaraq ələ alma ehtiyacları yox idi.

Dini və ya dünyəvi hər hansı məsələnin hökmünü təsbit etmək ehtiyacı hiss etdikdə, birbaşa Allahın Kitabına müraciət edir, orada ehtiyac duyulan məsələyə dair hər hansı hökm əldə edə bilməsələr Rəsulullahın Sünnəsinə müraciət edir, orada da hökm olmasa ictihad edirlər, (Quran və Sünnədən) həmin məsələyə oxşar məsələləri araşdırır, tapdıqları hökmü qarşılaşdıqları oxşar məsələyə də tətbiq edirdilər. Quran və Sünnədə oxşar məsələlər olmasa, İslam hüququnun hökmlərdəki əsas prinsipi olan daim insanların mənafeyini və ehtiyaclarını nəzərə alaraq, məsələni həll etməyə və həmin prinsipi gerçəkləşdirməyə cidd-cəhd göstərirdilər. Həmçinin tabeundan olan Səid b. Zübeyr, Qazı Şüreyh, İbrahim Nəhai vb. müctəhidlər də eyni yolu təqib etmişdirlər.

İlk əsr Səhabə və Tabeun dövründən sonra müsəlmanlar və müsəlman aləmi böyüməyə başladı. Bunun nəticəsində ana dili ərəbcə olmayan insanlar müsəlmanlığı qəbul etdi və artıq ərəb dili sadəcə müsəlmanların dili deyil, eyni zamanda ərəb olmayan müsəlmanların da dili kimi istifadə edilməyə başlandı. Beləliklə ərəblərin ərəb olmayanlara qarışmaları səbəbilə də ərəb dili nisbətən zəifləməyə başladı. Habelə daha öncə mövcud olmayan məsələlər ortaya çıxır və bunun nəticəsində də müctəhidlər çox sayda ictihadlar, rəylər irəli sürürdülər. Beləliklə də müctəhidlərin çoxalması, ictihad və hökm istinbatındakı metodların müxtəlifliyi və hər birinin özünə görə düzgün yolu təqib etmə iddiası, bir sözlə bu kimi amillər fəqih və müctəhidləri ictihad fəaliyyətinin nizama salınması və bu sahədəki hərc-mərcliyin qabağını almaq üçün bir sıra tədbirlər almağa və nəticədə də şəri dəlillərdən hökm əldə edərkən əsas alınacaq prinsiplər və qaydalar müəyyənləşdirməyə başladılar. Məhz ilk dəfə fiqh üsulu adı verilən bu elm haqqında tərtibli bir şəkildə kitab yazan Məhəmməd İbn İdris əş-Şafi (vəfatı-204/819) olmuş və kitaba *ər-Risalə* adını vermişdir.

Fiqh üsululunun təşəkkül tarihini tam olaraq təsbit etmək və bununla əlaqəli yanlış təsəvvürlərin qarşısını almaq üçün əvvəlcə bir məsələni qeyd etmək lazımdır: Mövcud mənbələrə istinadən dəqiq bir tarix vermək mümkün olmasa da müsəlman hüquqşünaslar əsas mənbələrin onlara tanıdığı geniş imkanlardan istifadə edərək –aralarında bəzi ixtilaflar olmaqla bərabər- qoyduqları metod (üsul) ilə qarşılaşdıqları məsələlər həll etməyə çalışmış və spesifik hüquq düşüncəsi meydana gətirmişdirlər. Sonrakı dövrlərdə hüquq düşüncəsi daha çox ilk dövrlərdə formalaşdırılmış üsul çərçivəsində davam etmişdir. Fiqh üsulunun qurucusunun İmam Şafi olduğuna dair geniş təsəvvür olsa da bu tamamilə doğru deyildir. Çünki, ondan əvvəlki fəqehlərin əllərində istinbat üçün müəyyən arqumentlərin olmadığını iddia etmək mümkün deyil. Imam Şafinin bu elmə dair kitabı yazdığını və o zamana qədər istifadə edilən metodun bir hissəsini özünə görə sistemləşdirdiyi və yazdığını qeyd etmək daha doğru olardı. Belə ki, Fəxrəddi Razi (vəfatı-606/1209) Şafidən əvvəlki fəqehlərin də fiqh üsulu problemləri ilə məşğul olduqlarını, ancaq bu problemlərin həll edilməsi üçün ümumi prinsiplərə sahib olmadıqlarını, məhz onlar adına Şafinin bunu həyata keçirdiyini ifadə etmişdir. Beləliklə o, Aristotelin məntiq elmindəki yeri ilə ilahi hüquq elmində Şafinin yerini əhəmiyyəti etibarilə paralel saymışdır. Odur ki, üsuli-fiqh qaydalarının ortaya çıxışına dair belə bir nəticəyə gəlmək olar: İnsan, məntiqi olaraq bir binanın bünövrəsinin binadan əvvəl olduğunu düşünər. Buna görə fiqh binasının təməli sayılan üsuli-fiqh qaydalarının da fiqhdən əvvəl mövcud olması lazımdır. Bu səbəblə, üsul qaydaları kitablaşdırılmasa da şifahi olaraq fiqh qaydalarından əvvəl meydana çıxdığı qəbul edilmişdir. Hz. Peyğəmbər dövründə olduğu kimi ondan sonrakı dövrlərdə də müxtəlif məsələlərdə ictihad edən səhabənin hər zaman müəyyən prinsiplərdən istifadə edərək məsələlərin həlli üçün çalışdıqları məlumdur. Buna görə də Hz. Əli içki cəzasını təsbit edərkən, İbn Məsud əri ölən qadının iddətini təyin edərkən, Hz. Ömər İraq ərazisini öz sahiblərində qalmasına dair hökm verərkən daima bir prinsipdən hərəkət etmişdirlər. İstər səhabə, istərsə də tabeun müctəhidlərində nəql edilən bu və bənzəri faktlardan onların mütləq surətdə bir üsul prinsipinə istinad etmədən tamamilə fəri dəlilə görə hökm vermədikləri başa düşülür. Ancaq onlar dəlillə hökm arasındakı əlaqəni bəzən bildirsələr də çox vaxt ifadə etmirdilər. Sonrakı füqəha üsul qaydalarını təsbit edərkən daima səhabə və tabeun dövrünə isnad etmə ehtiyacı hiss edərək onların da

oxşar metodlardan istifadə etdiklərini irəli sürmüşdürlər. Bu vəziyyət, həyata keçirilən fəaliyyətə haqq qazandırma məqsədi kimi izah edilməsi mümkündürsə də, doğruluq payı olmadığına dəlalət etməz. Yəni səhabə fəqehlərinin bəzən *məsləhət* (ictimai mənfəət), bəzən qiyas və bəzən də istehsan adı verilən metodlardan istifadə etdikləri deyilə bilər.

Üsul qaydalarının yazılmadan əvvəlki ən önəmli mənbələrindən biri də Hicaz və Kufə ekollarıdır. Bu ekolların ustad, mühit və məlumat kimi fərqliliklərə dayanan metodoloji fərqlilikləri daha sonra formalaşan fiqh üsulu qaydalarına da əhəmiyyətli dərəcədə mənbə təşkil etmişdir. Nəslərin fərqli şəkildə izah və şərh edilməsi bir çox metodun ortaya çıxmasına zəmin hazırlamışdır. Sonrakı dövrlərdə metodoloji fərqliliklər iki önəmli metdodla təmsil edilmiş və bunlara *füqəha* və *mütəkəllimin* metodları adı verilmişdir. Birincisi eyni zamanda “hənəfiyyə” adlanan metodudur ki, bu da hənəfilərə məxsus bir metoddur. İkincisi isə “şafiyyə” metodu deyə bilinən xüsusilə şafi kəlamçılarının metodudur. Daha sonrakı dönəmlərdə bu iki metodu özündə birləşdirən bir metod daha ortaya çıkmışdır ki, buna da “məmzuc metod” adı verilmişdir.

Şafiyyə metodunu təqib edən üsulşünaslar, öz məzhəblərinə bağlı qalmadan əqli istidlal (dəlilləndirmə) metodu ilə qaydalar ortaya qoymuş, hökmləri bu qaydalara görə çıxarmışdırlar. Füqəha metodunu mənimsəyənlər, üsul qaydalarını fiqhin tətbiqatından çıxarmış və hadisələrdən hərəkət edərək ümumi qaydalar əmələ gətirmişdirlər. “Məmzuc metod” isə, sonrakı dövrdə yaşayan alimlər hər iki metodu da birləşdirməyə çalışmaları mənasına gəlir.

Odur ki, bütün üsulşünaslar üsul kitablarını qələmə alarkən tədqiqatlarını aşağıdakı dört mövzuda aparmışdırlar:

1. Şəri dəlillər: Kitab, sünnə... və s.

2. Şəri hökmlər: Vacib, haram... və s.

3. Dəlillərdən hökm çıxarma yolları, yəni dəlillərin hökmlərə dəlalət şəkilləri.

4. Hökm çıxaran şəxs, yəni müctəhid.

Mütəkəllimun metoduna görə qələmə alınmış təməl fiqh üsulu kitabları aşağıdakılardır:

1. *əl-Ümdə:* Qazı Əbdülcabbar əl-Mötəzili (vəfatı-415/1024).

2. *əl-Mötəməd* (əl-Ümdə əsərinin şərhidir): Əbul-Hüseyn əl-Bəsri əl-Mötəzili (vəfatı-463/1073)

3. *əl-Bürhan:* İmamul-Harameyn Əbdülməlik İbn Məhəmməd İbn Abdullah əl-Cüveyni (vəfatı-478/1085).

4. *əl-Müstəsfa:* Əbu Hamid Məhəmməd əl-Qəzzali (vəfatı-505/1111).

Bundan sonra bu metodla yazılan əsərlər artıq yuxarıda qeyd olunan dört kitab əsasında meydana gətirlirmişdir. Məsələn, Fəxrəddin Razinin (vəfatı-682/1283) *əl-Məhsul* və Amidinin (vəfatı-631/1233) *əl-İhkam* adlı əsərlərini buna nümunə kimi qeyd edə bilərik.

Hənəfiyyə metoduna görə qələmə alınmış təməl üsul kitabları aşağıdakılardır:

1. *əl-Üsul:* Əbu Bəkir Əhməd İbn Əli əl-Cəssas (vəfatı-370/980).

2. *Təqvimul-ədillə:* Əbu Zeyd Übeydullah İbn Ömər əd-Dəbusi (vəfatı-430/1038).

3. *əl-Üsul:* Şəmsuləimmə əs-Səraxsi (vəfatı-483/1090).

4. *əl-Üsul:* Fəxrul-İslam Əli İbn Məhəmməd əl-Bəzdəvi (vəfatı-482-1089). Bəzdəvinin əsəri, bu kitabların ən mükəmməlidir. Sözügedən kitabı Əbdüləziz İbn Əhməd əl-Buxari (vəfatı-730/1329) *Kəşful-əsrar* adlı kitabında şərh etmişdir.

Məmzuc metoda görə yazılan əsərlərə də aşağıdakı kitabları nümunə vermək mümkündür:

1. *Bədiun-nizam:* Müzəffəruddin Əhməd İbn Əli (vəfatı-694/1294). Bu alim İbnus-Saati ləqəbi ilə məşhur olmuşdur.

2. *ət-Tənqih:* Sədrüş-Şəriə Übedullah İbn Məsud (vəfatı-747/1346). Sonra həmin kitabı *ət-Tövzih* adı ilə özü şərh etmişdir.

3. *Cəmul-cəvami:* Tacuddin Əbdülvəhhab İbnus-Sübki (vəfatı-771/1369).

4. *ət-Təhrir:* İbnul-Hümam kimi tanınan Məhəmməd İbn Əbdülvahid (vəfatı-861/1456).

5. *Müsəlləmüs-sübut:* Mühibbulah İbn Əbdüşşəkur (vəfatı-1119/1707).

## IV. ŞİƏ-İMAMİYYƏDƏ FİQH ÜSULU VƏ ƏSƏRLƏRİ

Şiə alimləri fiqh üsulu mövzusunda ilk əsərlərin sünni üsulşünaslar tərəfindən yazıldığını qəbul etmişdirlər. Böyük qeybubət dövrünə qədər hökm istinbatı mövzusunda məsum imamlara müraciət etdikləri üçün müstəqil fiqh əsərinə ehtiyac duyulmadığını da ifadə etmişdirlər. Sünnni üsulşünaslar yazdıqları fiqh üsulu əsərlərində bir çox kəlam mövzusuna da yer vermişdirlər. Şiə müəllilər də həm bunlara cavab vermək həm də öz görüşlərini ifadə etmək üçün fiqh üsuluna dair əsərlər yazmağa təşəbbüs göstərmişdirlər.

Şiə məzhəbləri arasında əhli-sünnəyə ən yaxın hesab edilən Zeydiyyə, ondan sonra da İmamiyyə olduğu məlumdur. Bu məzhəbin fiqhi görüşlərini, İmam Cəfər Sadiqə nisbətlə Cəfəriyyə deyə adlandırılan məzhəb təmsil edər. Fiqh üsulunun ortaya çıxması baxımından İmamiyyə məzhəbinə nəzər saldığımızda bunları görmək mümkündür:

Şeyx Müfiddən (vəfatı-413/1022) əvvəl fiqh üsulu sahəsində bəzi risalələr yazan alimlər var idi. Hişam b. əl-Hakəm (vəfatı-h.199) bu mövzuda risalə yazanlardan sayılır. Ancaq bu alimlər fiqh üsulunun bütün məsələlərini əhatə edən hər hansı bir kitab yazmamışdırlar. Bu sahədə üsul mövzularının tamamını ehtiva edən kitab ilk olaraq Şeyx Müfid tərəfindən yazılmışdır. Onun əsərinin adı *“əl-Müxtəsər fi üsulil-fiqh”*dir. Bu kitab elmə yeni başlayan tələbələr üçün faydalı olsa belə ictihad səviyyəsində olan və fitva verən alimlər üçün qənətbəxş deyildir.

Şeyx Müfiddən sonra tələbəsi Şərif Mürtəza (vəfatı-436/1236) onun youndan getmiş və bu sahədəki boşluğu dolduran ilk şiə alimi olmuşdur. O, *“əz-Zəria ilə üsuliş-şəria”* adı ilə yazdığı əsərdə fiqh üsulunun bütün mövzularını cəm etmişdir. Onun bu sahəyə dair *“Məsailul-münfəridat”* kimi başqa kitabları olsa da, ən qiymətli əsəri “Zəriə”dir. Şərif Mürtəza öz kitabının tamamilə orijinal, öz düşüncə və ictihadının məhsulu olduğunu ifadə etmişdir.

Şərif Mürtəzadan sonra onun tələbəsi Şeyx Əbu Cəfər ət-Tusinin (vəfatı- 460/1068) bu sahədə fəaliyyət göstərdiyini görmək mümkündür.

Bu mövzuda o, *“əl-Uddə fi üsulil-fiqh”* adlı sistematik əsəri qələmə almışdır. Tusi, Şüyx Müfidin kitabının bu sahədəki boşluğu doldura bilmədiyini və bu səbəblə öz əsərini yazmışdır. Tusinin “əl-Uddə” adlı əsəri, fiqh üsulunun bütün mövzularını əhatə edir. Müəllif kitabında sadəcə öz məzhəbinin görüşlərini deyil, eyni zamanda əhli-sünnə üsulşünaslarla bərabər bir çox məzhəbin görüşünə yer vermişdir. Müxtəlif görüşləri qeyd etdikdən sonra mənsubu olduğu məzhəbin görüşlərinin daha qənaətbəxş olduğunu isbat etməyə çalışmışdır. Eyni zamanda bu əsərində o, həm sistematik, həm də ehtiva baxımından sünni üsulşünaslardan çox istifadə etmiş və bəzi hallarda onların görüşlərinə üstünlük vermişdir.

Tusidən sonra onun tələbəsi Əllamə əl-Hilii (vəfatı-675/1277) bu sahə ilə məşğul olmuş və əsərlər qələmə almışdır. Hilli, Tusinin əsərlərini müəyyən bir sistemə görə tərtib edən alim kimi tanınan şiə üsulşünasıdır. “Məaric” adı ilə yazdığı fiqh üsuluna dair əsəri istifadəsi və dili asan, başa düşülməsi rahat və sistemli olduğu üçün rəğbət qazanmışdır.

Hillidən sonrakı dönəmlərdə üsulşünaslar tərəfindən yazılan fiqh üsulu kitabları, əvvəl yazılanlar çox böyük əlavə və əsaslı dəyişikliklər gətirməmişdir. Bu səbəblədir ki, şiə məzhəbində fiqh üsulunun təsisi və inkişafı Əllamə Hilliyə qədər olan dövrdür. Ondan sonra bir çox fiqh üsulu əsəri yazılmasına baxmayaraq bu əsərlər daha çox əvvəlkilərin təkrarından ibarət olmuşdur.

# I FƏSİL

# ŞƏRİ HÖKMLƏRİN DƏLİLLƏRİ

# (İSLAM HÜQUQUNUN MƏNBƏLƏRİ)

## DƏLİL TERMİNİ VƏ İSLAM HÜQUQUNDA DƏLİLLƏR

Dəlil (دليل) kəlməsi lüğətdə, “bir şeyi göstərən, ona dəlalət edən, ona yol göstərən bir vasitə” mənalarına gəlir. Fiqh üsulu termini kimi istər qəti olsun, istər zənni olsun şəri-əməli hökmün çıxarıldığı bir şeydir. Üsulşünaslar dəlilləri, əsli və fəri olmaqla iki qismə ayırırlar. Sünni üsulşünaslara görə əsli dəlillər kitab, sünnə, icma və qiyasdır. İstehsan, istehsab, örf, məsalihi-mürsələ kimi dəlillər isə fəri hesab olunur.

Şiə alimlərinə görə dəlillər arasında əsli və fəri şəklində bir təsnif yoxdur. Onların üsuli qoluna görə dini hökmlərin istinad etdiyi dəlillər, kitab, sünnə, icma və ağıldır. Əxbarilərə görə isə şəri dəlillər, sünnə vasitəsilə başa düşülən Quran və sünnədən ibarətdir.

Dəlillərə aid ümumi məlumat:

1. Şəri dəlillər, nəqli və əqli dəlillər deyə iki qismə ayrılır. Nəqli dəlilləri bilmənin yolu nəqldir. Bunların meydana gəlməsində müctəhidin hər hansı bir rolu yoxdur. Məsələn, kitab və sünnənin varlığında müctəhidin heç bir müdaxiləsi yoxdur. Əqli dəlillərin ortaya çıxmasında isə müctəhid birbaşa rolu vardır. Qiyas, məsalihi-mürsələ və bəzi istehsan növləri kimi.

2. Şəri dəlillər əqli-səlimə zidd düşməz. Bunlar arasında ziddiyət varsa ya dəlil səhih deyil, yaxud da şarinin məqsədinə uyğun başa düşülməmişdir.

## ƏSLİ DƏLİLLƏR (İTTİFAQ EDİLƏN DƏLİLLƏR)

### I. KİTAB (QURANİ-KƏRİM)

Bu başlıq altında Qurani-kərimin tərifi, xüsusiyyətləri, dəlil olması, hökmlərə dəlaləti haqqında məlumat veriləcəkdir.

**A. Tərifi**

“Kitab, Uca Allahın Hz. Mühəmmədə (s.ə.s) ərəb dilində göndərdiyi, bizə qədər təvatür yolu ilə gələn, müshəflərdə yazılan, Fatihə surəsi ilə başlayıb Nəs surəsi ilə qurtaran kitabdır.”

**B. Xüsusiyyəti**

**1. Ərəb dilində nazil olmuşdur:** Məhz bu səbəblə Quran tərcümələri əsla Qurandan sayılmaz və tərcümələri əsas alınaraq hər hansı hökm verilə bilməz. Namazda ərəbcə oxuya bilən üçün tərcüməsini oxuması caiz deyildir. Ərəbcə oxuya bilməyən Əbu Hənifəyə görə müvəqqəti olaraq Quranın öz dilindəki tərcüməsini oxuya bilər. Ancaq digər İslam hüquqşünasları Quranın tərcüməsi ilə namazın səhih olmadığını vurğulamışdırlar. Məhz bu səbəblə Maliki məzhəbinə görə, hər kəs ən azından fatihə surəsini öyrənməli, əgər öyrənə bilmirsə namazda bilən bir şəxsə tabe olmalı, buna da imkan olmazsa təkbirlərlə namazı qılmalıdır.

**2. Qurani-kərim mütəvatirdir:** Mütəvatir olmayan qiraətlər Qurandan sayılmadığı üçün namazda oxuna bilməz. Oxunarsa namaz səhih olmaz. Sözügedən qiraətləri inkar edən küfrə girməz. Mütəvatir qiraətlər hənəfilərə görə hökm əldə etmək üçün istfadə oluna bilər. Çünki səhabə bu qiraəti Hz. Peyğəmbərdən rəvayət etmişdir.

Maliki, Hənbəli və bəzi Şafi məzhəbinə mənsub alimlərə görə isə, dəlil olaraq istifadə oluna bilməz. Çünki sözügedən qiraətlər nəticədə Qurandan deyildir. Rəvayət edən bunu bir sünnə kimi rəvayət etmədiyi üçün hədis də sayılmaz. Məsələn, İbn Məsudun “and içmə kəffarəsi” ilə əlaqədar فصيام ثلاثة أيام (...üç gün oruc tutmalıdır)[5] ayəsini şərh məqsədi ilə əlavə etdiyi متتابعات (dalbadal) kəlməsi, sözügedən orucun dalbadal tutulmasını şərt qoşur. Hənəfilər bu qeydi nəzərə alaraq and içmə kəffarəsində dalbadal orucun vacib olduğu hökmünü irəli sürərkən digər alimlər bu şərti qəbul etmirlər.

**3. Həm mənası, həm də ləfzi ilə birgə Allah tərəfindən nazil edilmişdir:** Bu xüsusiyyəti ilə Qurani-kərim, Hz. Peyğəmbərin qüdsi və nəbəvi hədislərindən ayrılır. Odur ki, məhz bu xüsusiyyətinə əsasən

5. Maidə, 5/89.

Quranın sadəcə mənası ilə oxunması və eyni mənada da olsa ləfzinin bir başqa ləfzlə dəyişdirərək oxunması caiz olmaz.

### C. Quranın dəlil olması haqqında

Qurani-kərimin dəlillərin ən başında gəldiyini və ondakı mövcud hökmlərə əməlin vacibliyini müsəlmanlar yekdilliklə qəbul etmişdirlər. Çünki müsəlmanların əqidəsinə görə Quran, əsla batilin yaxınlaşa bilmədiyi[6] Allah kəlamıdır. Uca Allah onu insanları həqiqətə və düzgün yola yönəldən bir düstur kimi nazil etmişdir.

### D. Quranın hökmlərə dəlaləti

Şəkk-şübhə yoxdur ki, Qurani-kərim əslinə uyğun olaraq bizə qədər gəlib çatmışdır. Yuxarıda da qeyd olunduğu kimi təvatür yolu ilə gəlmişdir. Odur ki, Quran sabit olması baxımından qətidir (qətiyyus-sübut). Ancaq Qurani-kərimin hökmlərə dəlaləti bəzən qəti, bəzən də zənni ola bilər. Əgər Qurandakı bir ləfz birdən çox mənaya gəlmə ehtimalı yoxdursa, Quranın hökmə dəlaləti qətidir. Vərəsəlik hüququ və həddlərlə əlaqəli ayələrdəki "xass" ləfzlər də olduğu kimi. Bu ayələrdə keçən نصف (yarısı),[7] ثلث (üçdə bir),[8] ماءة (yüz),[9] ثمانين (səksən)[10] ləfzlərinin mənaya dəlaləti qəti və şərh qəbul etməyən "xass" ləfzlər kateqoriyasına daxildir. Ancaq Qurandakı bir ləfz birdən çox mənaya gələrsə, hökmə dəlaləti zənnidir. Məsələn, و المطلقات يتربصن بأنفسهن ثلاثة قروء (Boşanan qadınlar üç "qür" gözləməlidirlər)[11] ayəsindəki قروء ləfzi, həm "heyz" (ay başı müddəti), həm də "tühr" (iki ay başı arasındakı təmizlik müddəti) mənasına gəlir. Çünki bu ləfz ərəb dilində hər iki mənada da istifadə olunan "müştərək" ləfzlərdəndir. Belə olan halda, bu mənalardan birinə dəlaləti zənnidir. Odur ki, bəzi müctəhidlər burada "heyz", bəziləri isə "tühr" qəsd olunduğunu fikrini irəli sürmüşdürlər.

6. Bax. Fussilət, 41/42.
7. Bax. Nisa, 4/11.
8. Bax. Nisa, 4/11.
9. Bax. Nur, 24/2.
10. Bax. Nur, 24/2.
11. Bax. Bəqərə, 2/228.

### E. Quranın hökmləri izah etmə tərzi

Quranın hökmləri izah etmə baxımından özünəməxsus bir üslubu vardır. Belə ki, Quran, bəzən bir şeyi yerinə yetirmək üçün bilavasitə “əmr”[12] formasından və ya bir şeyi qadağan etmək üçün “nəhy”[13] formasından istifadə etmişdir. Bununla birlikdə bəzən də, bir davranışın “yazılmışdır”[14], “fərz edilmişdir”[15], “halal”[16], “haram”[17], “xeyirli”[18], “yaxşıya aparan”[19], “şərli”[20] olduğunu bildirərək fiqhi hökmlər göstərir.

### F. Quranın hökmləri bəyanı

Qurani-kərim hökmləri, bəzən açıq-aydın və tam, bəzən müxtəsər və yığcam, bəzən ümumi prinsip qoyaraq, bəzən də işarə yolu ilə bəyan etmişdir. Bunları nəzərə alaraq Qurani-kərim hökmlərini iki tərzdə bəyan etdiyini demək mümkündür:

#### 1. Müfəssəl olaraq bəyan edilən hökmlər:

Quran bəzi hökmləri tam və təfsilatlı izah etmişdir. Bu kimi hökmlərin sayı azdır. Məsələn, vərəsəlik hüququ ilə əlaqəli nəzərdə tutulan payları bildirən ayələr [21], cinayət hüququnda nəzərdə tutulan cəza növlərini müəyyən edən ayələr, nikah və boşanma mövzusundakı ayələr bu kateqoriyaya daxildir.

#### 2. Müxtəsər olaraq bəyan edilən hökmlər:

Müxtəsər olaraq bəyan edilən hökmlər də öz növbəsində üç qismə bölünür:

---

12. Bax. Münafiqun, 63/10; Bəqərə, 2/194.
13. Bax. Ənam, 6/151; Bəqərə, 2/195.
14. Bax. Nisa, 4/103.
15. Bax. Əhzab, 33/50.
16. Bax. Maidə, 5/5.
17. Bax. Nisa, 4/23.
18. Bax. Bəqərə, 2/220.
19. Bax. Ali-İmarn, 3/92.
20. Bax. Ali-İmran, 3/180.
21. Bax. Nisa, 4/11, 12, 176

a. **Mücməl olaraq bəyan edilən hökmlər:** Quran bəzi hökmləri qısa və yığcam bildirmiş və təfərrüatı Sünnənin öhdəsinə vermişdir. Məsələn, namaz, oruc, zəkat əmr olunmuş, ancaq bu mövzularda geniş məlumat verilməmişdir, bunları Hz. Peyğəmbət təfərrüatı ilə izah etmişdir.

**b. Ümumi prinsip olaraq bəyan edilən hökmlər:** Qurani-kərim, ümumiyyətlə hökmləri, ümumi qayda və əsas prinsiplər qoyaraq qısa və yığcam bəyan etmişdir. Məsələn, şura (məşvərət)[22], ədalət[23], şəxsi məsuliyyət[24], əhdə vəfa[25] göstərməyi ifadə edən ayələr bu qəbildəndir.

**c. İşarə və dəlalətlə bəyan edilən hökmlər:** Quranda bəzi hökmlər işarə yolu ilə də bildirilmidir. Məsələn, Quran, zina edən cariyələrin cəzası ilə əlaqədar belə buyurmuşdur: *“Əgər onlar (ərə getdikdən sonra) zina edərlərsə, cəzaları azad qadınlara verilən əzabın yarısı qədərdir.”*[26] Məhz bu ayədə kölələrin cəzalarının azad kişilərə verilən cazanın yarısı qədər olduğuna bir işarə vardır.

### G. Şiə məzhəblərinə görə hökm mənbəyi kimi Qurani-kərim

Şiə məzhəbinin məşhur alimlərindən Kuleyninin “əl-Kafi” adlı əsərində Qurani-kərimin təhrif edildiyinə (əlavələr, əksiltmələr və dəyişdirmələr) dair, həm də əlimizdəki müshəfdən fərqli müshəflərin olduğuna dair bəzi rəvayətlər vardır. Ancaq günümzdə şiə alimləri bu iddiaları qəbul etməməklə bərabər mövcud müshəfin Hz. Peyğəmbərdən bizə sağlam kanallarla və dəyişikliyə məruz qalmadan gəlib çatdığına inanırlar.

Həm üsulilər həm də əxbarilər Quranın birinci dəlil olduğun qəbul edirlər. Üsulilərə görə ümumiyyətlə, başqa mənalara da gəlmə ehtimalı olan “amm” və “mütləq” kimi ayələrin zahiri də ayrıca dəlildir və bunlara hökm bina edilə bilər. Əxbarilərin bir qismi isə ayələrin zahirinin dəlil olmayacağını irəli sürmüşdürlər. Çünki onlara görə zahiri açıqlayan, təxsis edən (xüsusiləşdirən) və təqyid edən bilgilər mövcud ola bilər. Bu ehtimallar

22. Bax. Şura, 42/38.
23. Bax. Nəhl, 16/90.
24. Bax. Ənam, 6/64.
25. Bax. Maidə, 5/1.
26. Nisa, 4/25.

olduğu müddətcə zahir dəlil ola bilməz. Halbuki, imamlar Quranı rəy ilə təfsir etməyi qadağan etmişdirlər.

Qısaca ifadə edərsək, şiə alimləri Quranı dəlil kimi qəbul etmiş, ancaq dəlil olma şəklində ixtilaf etmişdirlər.

## II. SÜNNƏ

Bu başlıq altında İslam hüququnun ikinci mənbəyi olan sünnə haqqında məlumat veriləcəkdir. Belə ki, sünnənin növləri, onların tərifləri, qanunvericilik baxımından sünnə, Hz. Peyğəmbərin davranışları kimi mövzular ələ alınacaqdır.

Məlumdur ki, Hz. Peyğəmbərin sünnəsi ümumiyyətlə üç qismə bölünür, qövli (tələffüz etdiyi hədisi-şəriflər) kəlamları, feli (əməli) və təqriri (təsdiqlədiyi və ya görüb sükut etdiyi) sünnələr. Ancaq burada əsasən rəvayət baxımından hədisin növləri ələ alınacaqdır. Rəvayət baxımından hədisləri aşağıdakı kimi izah etmək mümkündür:

### A. **Növləri**

Sünnənin mütəvatir, məşhur və ahad deyə üç növü vardır:

#### 1. Mütəvatir

Bir hədisin Hz. Peyğəmbərə nisbəti ravi təbəqələrinin heç bir dövründə təvatürün altına düşmədiyi hədislərdir. Hər ravi təbəqəsi bir ravi qrupundan bu hədisləri almış, bir sonrakı nəslə çatdırmış və sözügedən hədislər kitablara köçürülmüşdür.

Mütəvatir sünnənin peyğəmbərimizə nisbət olunmasında heç bir şübhə yoxdur. Ancaq bu kimi hədislərin sayı azdır. Ehkamla əlaqəli olan mütəvatir hədislərin sayı isə olduqca azdır.

#### 2. Məşhur

Birinci təbəqədəki ravilərin sayı təvatürə çatmayan hədisdir. Məşhur sünnənin hökmü qətiliyə yaxın məlumatdır (علم الطمأنينة). Məsələn, Nisa surəsi

11-ci ayədə miras payından əvvəl vəsiyyətin yerinə yetirilməsinin vacibliyi ifadə edilir. Ancaq vəsiyyətin miqdarı haqqında hər hansı məhdudiyyət gətirilməmişdir. Məhdudiyyət məşhur bir hədisdə الثلث و الثلث كثير (...üçdə bir, üçdə bir də çoxdur) şəklində nəzərdə tutulmuşdur. Ayədəki ifadəyə görə hər bir şəxs bütün malını istədiyi şəxsə vəsiyyət edə bilər. Ancaq hədis bunu 1/3 ilə məhdudlaşdırmışdır. Belə olan halda məşhur hədisin ayədəki mütləq hökmü müqəyyəd etdiyi (məhdudiyyət gətirdiyi) aydın olur. Məşhur sünnə ilə amm təxsis oluna bilər. Qurani-kərim *"Allah övladlarınıza miras payı haqqında belə buyurur"* [27]-buyuraraq payları müəyyən etmişdir. Hz. Peyğəmbərin *"Qatil varis ola bilməz"* hədisi isə yuxarıdakı ayəni təxsis edir. Odur ki, atasını öldürən övlad miras payından məhrum edilir.

**3. Ahad**

Həm Hz. Peyğəmbərdən rəvayət edən ravilərin, həm də sonrakı təbəqələrdəki ravilərin sayı təvatürün altında olan sünnədir. Məhz sünnənin əksəriyyəti ahad yolu ilə rəvayət olunmuşdur. Ahad sünnə qətilik yox zənnilik ifadə edir. Çünki sözügedən hədislərin Hz. Peyğəmbərə qətiyyətlə aid olub-olmadığı şübhəlidir. Məhz bu səbəblə də əsla etiqadi hökmlərdə ahad hədisdən bir əsas kimi istifadə olunmamışdır.

Onu da qeyd etmək lazımdır ki, yuxarıdakı təsnifat hənəfilərə məxsusdur, digər alimlər rəvayət baxımından Sünnəni mütəvatir və ahad olmaqla iki qismə ayırmışdırlar. Məşhur sünnəni isə ahadın çərçivəsində olduğunu qəbul etmişdirlər. Ahad isə qərib, əziz və müstəfid olaraq üç qismə bölmüşdürlər. Bununla birlikdə ta səhabədən bu yana İslam alimləri ahad hədisə əməl etmək üçün bəzi qeyd və şərtlər irəli sürmüşdürlər. Aşağıda bunlar bir-bir izah ediləcəkdir.

**a. Səhabənin ahad hədisə baxışı:**

1) Bəziləri bu kimi hədisləri ancaq iki nəfərin şahidliyi ilə qəbul edirdi. Hz. Əbu Bəkir nənəyə mirasdan hissə olub-olmadığını digər səhabələrdən soruşduqda Müğirə İbn Şöbə 1/6 olduğunu bildirmiş və Məhəmməd İbn Məsləmə də ona şahidlik etmişdir.

2) Hz. Əli kimi bəzi səhabilər rəvayət edənə and içməsini tələb edərdi.

27. Nisa, 4/11

3) Bəziləri də rəvayət edənə etibar etmədikdə hədisi tamamilə rədd edərdi. Abdullah İbn Məsud mehri müəyyənləşdirilmədən evlənmiş və zifafdan əvvəl əri ölən qadın üçün ictihadla mehri-mislin lazım gəldiyini bildirir. Bunun eşidən Məqil İbn Sənan əl-Əşcai peyğəmbərin də bu mövzuda eyni hökmü verdiyini bildirir. Ancaq Hz. Əli "topuğuna bövl edən bədəvinin sözünə etimad etmirəm" deyərək Qurandakı "mütə verin" (bəqərə/236) ayəsini əsas kimi qəbul edir.

4) Səhabədən bəzisi rəvayət edilən hədisin mənsux olduğunu bilir və həmin hədisə əməl etmirdi. Məsələn, Abdullah İbn Məsud "tətbiq" (rükuda əllərini dizlərinin arasına qoyma) edir və buna dair hədis rəvayət edirdi. Səd İbn Əbu Vəqqas buna əməl etmir və peyğəmbərimizin sonradan bunu qadağan etdiyini bildirirdi.

5) Bəzisi də hədisin mənasını başqa cür başa düşürdü. Əbu Hüreyrə *"cənazə daşıyan dəstəmaz alsın"* [28] hədisini rəvayət edir və cənazə daşımağın dəstəmazı pozduğunu iddia edirdi. Abdullah İbn Abbas isə bu hədisdən cənazəni daşıyarkən dəstəmazlı olmanın əhəmiyyətli olduğu fikrində idi.

Məzhəblər xəbəri-vahidi dəlil kimi qəbul edilə bilməsi üçün fərqli şərtlər irəli sürmüşdürlər.

**b. Hənəfilərin şərtləri**

1) Ravi, Hz. Peyğəmbərdən etdiyi rəvayətin əksinə davranmamalı və əksinə hər hansı bir fitva verməməlidir. Əks təqdirdə fitva əsas alınır. Məsələn, اذا ولغ الكلب في اناء أحدكم فليرقه ثم ليغسله سبع مرات احداهن بالتراب *(Sizdən birinizin qabını it yaladıqda onu boşaltsın, sonra biri torpaqla olmaq üzrə yeddi dəfə yusun!)* [29] hədisini rəvayət edən Əbu Hüreyrə sözügedən hal baş verdikdə qabı üç dəfə yuyar və buna müvafiq olaraq fitva verərdi. Məhz bu səbəblə hənəfilər bu hədisə əməl etməmiş və üç dəfə yumağın kifayət etdiyi rəyini mənimsəmişdirlər.

2) Ümumul-bəlva, yəni çox təkrarlanan və əksər adamın bildiyi hədis olmamalıdır. Məsələn, hənəfilər namazda "bismillahı" açıqdan oxuma[30] və

28. Əbu Davud, Cənaiz, 39; Tirmizi, Cənaiz, 17.
29. Buxari, Vüzu, 33; Müslim, Təharət, 89-93; Tirmizi, Təharət, 68; Nəsai, Təharət, 52, Miyah, 7.
30. Bax. Tirmizi, Səlat, 67.

rükudan qalxdıqda əlləri qaldırma [31] ilə əlaqədar olan hədisləri ahad yolla rəvayət olunduğu üçün qəbul etməmişdirlər.

3) Əgər ravi fəqih (hüquqşünas) və müctəhid deyilsə, hədis qiyas və şəri nəslərə zidd olmamalıdır. Məsələn, "müsərrat" hədisinə[32] hənəfilər əməl etməmişdir.

**c. Malikilərin şərtləri**

Maliki məzhəbi xəbəri-vahidə əməl etmək üçün onun Mədinə xalqının tətbiqatına (əməlinə) zidd olmaması şərtini irəli sürülmüşdür. Məsələn, المتبايعان كل واحد منهما بالخيار على صاحبه ما لم يتفرقا *(Alan və satan ayrılmadıqları müddətcə (müqavilədən vazkeçib-keçməmək mövzusunda) bir-birinə qarşı müxəyyərdirlər)* [33] hədisinə Mədinə xalqının əməlinə zidd olduğu üçün İmam Malik riayət etməmişdir.

**d. Şafilərin şərtləri**

Şafi məzhəbində yeganə şərt hədisin səhih və müttəsil olmasıdır. Mürsəl hədislər qəbul olunmur. Ancaq Səid İbn əl-Müsəyyəbin mürsəli məqbul sayılır.

**e. Hənbəlilərin şərtləri**

Hənbəlilər də həmçinin hədisin məqbul sayılması üçün səhih və müttəsil olmasını şərt qoşmuşdur. Bununla birlikdə mürsəl hədislər qəbul olunur və qiyasdan üstün hesab edilir.

**B. Qanunvericilik baxımından sünnənin mövqeyi**

**1. Sünnə Qurana müvafiq hökmlər qoyur:** Məsələn,يأيها الذين آمنوا لاتأكلوا أموالكم بينكم بالباطل *(Ey iman gətirənlər! Qarşılıqlı razılıqla edilən alış-veriş müstəsna olmaqla, bir-birinizin mallarını haqsız bəhanələrlə (haqsız yerə) yeməyin…!)* [34] ayəsinə müvafiq hədis لا يحل مال امرؤ مسلم الا بطيب نفسه منه *(Bir*

31. Bax. Buxari, Azan, 83-86.
32. Bax. Müslim, Büyu, 11; Əbu Davud, Büyu, 46.
33. Buxari, Büyu, 42-47; İbn Macə, Ticarət, 17.
34. Nisa, 4/29.

*müsəlmanın malı (başqasına) onun qəlbən razılığı olmadan halal deyildir)*[35] hədisidir.

**2. Sünnə Quranda mövcud olan mücməli bəyan, mütləqi müqəyyəd edir:** Məsələn, “namaz qılın, zəkat verin”[36] ayəsindəki namaz və ya zəkat mücməl ifadədir. Bunları Hz. Peyğəmbər bəyan etmişdir.

**3. Sünnə Qurandakı bəzi hökmləri nəsx edir:** Məsələn, لا وصية لوارث *(varisə vəsiyyət yoxdur)* [37] hədisi كتب عليكم اذا حضر أحدكم الموت أن ترك خيرا الوصية للوالدين و الاقربين بالمعروف حقا على المتقين *(Sizin hər birinizi ölüm haqlayan zaman qoyub gedəcəyiniz maldan valideynlərinizə, yaxın qohumlarınıza verilməsi üçün ədalət üzrə vəsiyyət etməyiniz zəruridir. Müttəqilərə (bu) vacibdir.)* [38] ayəsini nəsx etmişdir. Ancaq bu, Quranın sünnə ilə nəsx edilə biləcəyi fikrini qəbul edən bəzi alimlərə görədir.

**4. Sünnə, Quranda mövcud olmayan hökmlər qoyur:** Məsələn, nənəyə mirasdan 1/6 hissənin verilməsi.

### C. Peyğəmbərimizin davranışları

**1. Bir bəşər kimi etdiyi davranışlar:** Məsələn, yeməsi, içməsi və s.

**2.Peyğəmbərimizin özünəməxsus davranışları:** Məsələn, təhəccüd namazı, sövmi-vüsal orucu və ilaxir. Bunlar müsəlmanların etməklə məsul olmadıqları fellərdir.

**3.Bir qanunverici kimi etdiyi davranışlar:** Bu kimi davranışlar ümumiyyətlə bağlayıcı hesab edilmişdir. Məsələn, Hz. Peyğəmbərin Qurandakı mücməli bəyan etməsi buraya daxildir.

### D. Sünnənin dəlil olması haqqında

Hz. Peyğəmbərə nisbəti sabit olan səhih sünnənin, İslam hüququnun mənbələrindən olduğunu və buna əməl etməyin vacibliyini bütün

35. Əhməd İbn Hənbəl, V, 72.
36 Bəqərə, 2/43.
37 Buxari, Vəsaya, 6; Əbu Davud, Vəsaya, 6.
38 Bəqərə, 2/180.

müctəhidlər və alimlər yekdilliklə qəbul etmişdirlər. Belə ki, Qurani-kərimdə Hz. Peyğəmbərə tabe olmağı əmr edən çox sayda ayələr mövcuddur. Bu ayələrdən bəzisi aşağıda kimidir:

*"Allaha və Peyğəmbərə itaət edin. Əgər (itaətdən) boyun qaçırsanız, bilin ki, Peyğəmbərimizin vəzifəsi yalnız açıq bir təbliğdir (Quranı açıq-aydın təbliğ etməkdir)."* [39]

*"Peyğəmbərə itaət edən kimsə, şübhəsiz ki, Allaha itaət etmiş olur. Kim üz döndərsə (qoy döndərsin)! Biz ki səni onların üzərində gözətçi olaraq göndərməmişik."* [40]

*"(Ya Rəsulum!) De: "Əgər siz Allahı sevirsinizsə, mənim ardımca gəlin ki, Allah da sizi sevsin və günahlarınızı bağışlasın. Allah bağışlayandır, mərhəmətlidir!"* [41]

*"Peyğəmbər sizə nə verirsə, onu götürün; nəyi qadağan edirsə, ondan əl çəkin. Allahdan qorxun. Həqiqətən, Allahın cəzası çox şiddətlidir."*[42]

*"Allah və Peyğəmbəri bir işi hökm etdiyi zaman heç bir mömin kişiyə və qadına öz işlərində başqa yol seçmək (öz ixtiyarları ilə ayrı cür hərəkət etmək) yaraşmaz. Allaha və Onun Peyğəmbərinə asi olan kəs, şübhəsiz ki, (haqq yoldan) açıq-aydın azmışdır!"*[43]

*"Amma, xeyr! (Ya Rəsulum!) Rəbbinə and olsun ki, onlar öz aralarında baş verən ixtilaflarda səni hakim (münsif) təyin etməyincə və verdiyi hökmlərə görə özlərində bir sıxıntı duymadan sənə tam bir itaətlə boyun əyməyincə, (həqiqi surətdə) iman gətirmiş olmazlar."* [44]

### E. Şiə məzhəblərinə görə sünnə və növləri

Şiə məzhəblərindən Cəfəriyyə və İsmailiyyəyə görə sünnə, məsumların sözləri, felləri və təqrirləridir. Hər iki məzhəbin məsum imam olduqlarına

39 Maidə, 5/92
40 Nisa, 4/80.
41 Ali İmran, 3/31.
42 Həşr, 59/7.
43 Əhzab, 33/36.
44 Nisa, 4/65.

inandığı şəxslər ya ilham yolu ilə, yaxud da özündən əvvəlki imamın sonra gələn imama öyrətməsi ilə dinin hökmlərini əldə edərlər. Odur ki, onların sözləri, şəri dəlilin rəvayəti və nəqli deyil, bibaşa dəlil və qaynaq ifadə edər.

Şiə alimlərinə görə sünnənin dörd növü vardır. Bunlar səhih, həsən, müvəssəq və zəyifdir.

*Səhih*, imamiyyə məzhəbinə mənsub adil bir ravi kanalı ilə məsum imama istinad edən rəvayətlərdir.

*Həsən*, ədalətinə dair dəlil olmayan ancaq özündən əvvəl mədh ilə həbs edilən imami bir ravi tərəfindən məsum imamdan nəql edilən xəbərlərdir.

*Müvəssaq*, etibarlı olduğuna dair imami alimlərin dəlil gətirdiyi xəbərlərdir. Bunlara eyni zamanda *qəvi* də deyilir.

*Zəyif,* rəvayət zəncirində fasiq, hal və vəziyyəti bilinmədiyinə görə tənqid edilmiş ravilərin olduğu xəbərlərdir.

Cəfəri məzhəbinə görə məsumların sözləri ilə fel və təqrirləri, dəlil olma cəhətindən fərqlilik təşkil edir. Sözlər, qərinələrə və istidlal qaydalarına görə bağlayıcı olan və olmayan hökmləri ifadə edər. Fel və təqrirləri isə, tələb edilən şərtlərə malik olduğu təqdirdə cəvaz və ibahəyə dəlalət edər.

Mütəvatir xəbərlər qətilik ifadə edər. Bu səbəblə də dində hüccə hesab edilir. Etiqad və əməl baxımından dəlil və mənbə kimi istifadə edilir. Mütəvatir olmayan xəbərlər ilə raviləri arasında imamiyyə məzhəbindən olmayanların rəvayət etdikləri hədislərin dəlil olub-olmadığı ixtilaflıdır.

Şiə alimləri arasında əxbariliyi təmsil edənlər “kütübi-ərbaə” adı ilə məşhur olan hədis kitablarındakı bütün hədislərin səhih və mötəbər olduğunu qəbul edərlər. Bu məşhur dörd kitab bunlardır:

1. Kuleyni, “əl-Kafi”
2. İbn Babəveyh əl-Qummi, “Mən lə yəhdurulfəqeh”
3. Əbu Cəfər ət-Tusi, “əl-İstibsar”
4. Əbu Cəfər ət-Tusi, “Təhzibul-əhkam”

Fəqət əxbarilər xaricində əksər üsuli ekoluna mənsub şiə alimləri, dörd kitabda da zəyif və uydurma hədis olduğunu və beləliklə bu kitablarda olan bütün hədislərin səhih olmayacağı görüşünü mənimsəyirlər. Bunlar sünni ravilərdən gələnlər də daxil olmaqla ahad hədisləri də bəzi şərtlərlə qəbul edərlər. Bu kimi rəvayətlərə dair irəli sürdükləri şərtlər isə belədir:

1. İmamətə inanan ravilər tərəfindən rəvayət edilməsi

2. Xəbərin mənbəyinin ya Hz. Peyğəmbər və ya məsum imamlardan biri olması

3. Ravinin hifz və zəbt baxımdan sağlam olması

Şiə-imami ravilərin rəvayəti, fərqli məzhəbdən olan ravinin rəvayətinə uyğun gəlirsə həmin rəvayət məqbul hesab olunur və ona görə əməl edilir. Şiə-imami ravilərdən eyni mövzuda münasib və ya zidd bir rəvayət gəlməyibsə digər məzhəblərdən etibarlı (siqə) ravinin rəvayətinə görə əməl edilir.

## III. İCMA

Bu başlıq altında icmanın tərifi, şərtləri, növləri, dəlil olması və istinad edildiyi yer (istinad nöqtəsi) haqqında məlumat veriləcəkdir.

### A. Tərifi

İcma, Hz. Peyğəmbərin vəfatından sonra hər hansı bir əsrdə İslam hüquqşünaslarının (müctəhidlər) əməli bir məsələnin şəri hökmü haqqında həmfikir olmalarıdır.

### B. Şərtləri

İcmanın əmələ gəlməsi üçün aşağıdakı şərtlər gərəkdir:

1. Həmrəy olan şəxslər müctəhid olmalıdır.

2. Həmin əsrdə yaşayan bütün müctəhid həmfikir olmalıdır.

3. Müctəhidlər müsəlman olmalıdır. Odur ki, şərqşünaslara (müstəşriqlər) məxsus fikirlərin heç bir əhəmiyyəti yoxdur.

4. Hz. Peyğəmbərin vəfatından sonra olmalıdır.

5. Bütün müctəhidin həmfikir olduğu mövzu vaciblik, haramlıq kimi şəri-əməli mövzuda olmalıdır.

### C. Növləri

**1. Sərih:** Hər hansı bir əsrdə bütün müctəhidlərin bir məsələnin hökmünə dair öz fikirlərini tək-tək izah etməsi ilə əmələ gələn fikir birliyinə sərih icma deyilir.

**2. Sükuti:** Hər hansı bir məsələ haqqında bir və ya bir neçə müctəhidin öz fikirlərini səsləndirdikdən sonra, bu fikirdən xəbərdar olan və kifayət qədər düşünmə vaxtı keçməsinə baxmayaraq həmin dövrdəki digər müctəhidlərin, sözügedən mövzuda onlara qoşulduqlarına və ya etiraz etdiklərinə dair heç bir şey demədən sakit durmalarına sükuti icma deyilir. Bu tərifdən sükuti icmanın səhih olması üçün aşağıdakı şərtlərin vacibliyi ortaya çıxır:

a) Digər müctəhidlərin həmin görüşü qəbul-etmədiklərinə dair hər hansı bir dəlil olmamalıdır.

b) Müctəhidlər sözügedən fikirdən xəbərdar olduqda araşdıraraq fikir əldə etmək üçün kifayət qədər vaxt keçməlidir.

c) İcma edilən məsələ ictihad sahəsinə daxil olan və zənni dəlilə əsaslanan bir məsələ olmalıdır.

### D. İcmanın dəlil olması haqqında

**Ayə:** ومن يشاقق الرسول بعد ما تبين له الهدى و يتبع غير سبيل المؤمنين نوله ما تولى و نصله جهنم وساءت مصيرا *(Hər kəs özünə doğru yol aşkar olandan sonra Peyğəmbərdən üz döndərib möminlərdən qeyrisinin yoluna uyarsa, onun istədiyi (özünün yönəldiyi) yola yönəldər və Cəhənnəmə varid edərik. Ora necə də pis yerdir.)* [45]

45. Nisa, 4/115.

**Hədis:** Bir çox hədis İslam ümmətinin birlik və bərabərliyinin dəyərini ifadə edir. Məsələn, لا تجتمع أمتي على الخطأ *(Mənim ümmətim xəta üzərində birləşməz)* [46] hədisi misal verilə bilər.

**E. İcmanın məsnədi (istinad nöqtəsi)**

İcmanın məsnədi, müctəhidlərin icma etdikləri hökmü əldə edərkən əsaslandıqları dəlil mənasına gəlir. Bundan məqsəd, müctəhidlərin fikirlərini dində mötəbər hesab edilən bir təmələ istinad etməkdir. Heç bir əsasa dayanmadan müctəhidlərin bir araya gələrək "biz bir araya gəlib belə qərara gəldik ki, bu məsələnin hökmü belə olsun" demələri dinin məqbul gördüyü bir icma deyildir. Müctəhidlərin icması ancaq nəslər üzərində həmfikir olmaları ilə mümkündür. Bu da nəsdənmüstəqil bir şey deyil. Çünki qətiyyət ifadə edən hökmlər üçün "bu hökm kitab, sünnə və icma ilə sabitdir" deyilir. Hökm qəti isə icmaya nə ehtiyac var deyə sual çıxa bilər. Icmanın funksiyası qəti hökmləri təyid etməkdən ibarətdir. Zənni hökmlərdə isə icma o hökmə qətiyyət qazandırır. Bu da alimlərin bir məsələdə həmfikir olduqları mənasına gəlir. Müctəhidlər hər hansı bir ayənin ancaq bu şəkildə başa düşülüb təfsir ediləcəyində və başqa cür izah edilməyəcəyi məsələsində icma edərlər. Məhz, üzərində icma edilən ayə və ya hədis icmanın sənədi olur. Məsələn bütün İslam alimləri, Quranda keçən "əqimus-salət" (namaz qılınız) şəklindəki ayələrin dua deyil, məlum namaz mənasında olduğuna dair icma etmişdir. Eyni zamanda alimlərin icmasına görə muharrəmat mövzusunda "ümm" kəlməsinə nənə də daxildir. İcmanın istinad olunduğu yerləri aşağıdakı kimi sıralamaq mümkündür:

**1. Quran nəssi icmanın məsnədi ola bilər:** Məsələn, nənə ilə evlənməyin haram olduğuna dair icma vardır. Bunun dəlili Qurandakı أم [47] kəlməsinin eyni zamanda أصول mənasına da gəlməsidir. Bu mənada nənə də buna daxildir. Burada أم kəlməsinin nənəyə də şamil olduğuna dair icma meydana gəlmişdir.

**2. Sünnə icmanın məsnədi ola bilər:** Msələn, من ابتاع طعاما فلا يبعه حتى يقبضه *(Kim bir qida maddəsi satın alarsa, onu əldə etmədən satmasın!)* [48] hədisi

46. İbn Macə, Fitən, 8.
47. Nisa, 4/23.
48. Tirmizi, Büyu, 56.

xəbəri-vahid olmasına rəğmən sonradan bu mövzuda icma əmələ gəldiyi üçün bu hədis qətiyyət ifadə edir.

**3. Qiyas icmanın məsnədi ola bilər:** Qiyasın icmanın məsnədi olub-olmaması mövzusunda üləma ixtilaf etmişdir. Bəzi alimlər qiyas zənni dəlil olduğu üçün zənni hökmün qəti hökmə dəlil ola bilmədiyi fikrini mənimsəyərək qiyasın icma üçün məsnədini məqbul saymamışdırlar. Bu etiraza belə bir cavab verilə bilər, xəbəri-vahid də zənni dəlildir ancaq icmanın məsnədi ola bilər.

**4. Məsləhət icmanın məsnədi ola bilər:** Məsələn, daha sonra üzərində icma edilən qiymətlərə hədd qoyma (nərh) və ya sənətkarın təzmin etmə məsuliyyəti və s. məsləhət fikrinə söykənən icmadır. Onu da qeyd etmək lazımdır ki, məsələhətə əsaslanan icma, məsləhətin dəyişməsi ilə dəyişə bilər. Ancaq digər icmalar dəyişmir.

### F. Şiəyə görə icma

Ədilləyi-şəriyyədən biri olan icma şiəyə görə də əsli dəlillərdəndir. Ancaq onların icmaya verdiyi məna əhli-sünnənin icma anlayışından tamamilə fərqlidir. Odur ki, şiənin icmanı dəlil kimi qəbul etmədiyini irəli sürən üsulşünaslar vardır. Onlara görə, *eyni əsrdəki İslam ümməti müctəhidlərinin şəri bir məsələdə həmfikir olmaları deyildir. Əksinə onlara görə icma, məsum imamın sözünü ortaya çıxarmaq üçün bir vasitədir.* Yəni onlara görə dəlil məsumun sözüdür. Icma, bu sözü ortaya çıxarmağ, məsum imamın bir məsələdəki hökmünü kəşf etməyə vəsilə olursa o zaman dəlil hesab olunur. Yəni icma, dəlili bilməyə vasitə olması baxımından dəlil olacağı üçün müstəqil bir dəlil deyil ancaq dəlilin dəlili ola bilər. Onlara görə əhli-sünnənin icma anlayışlarını müəyyən edən amil siyasidir. Çünki, Hz. Peyğəmbərin təyin etdiyi bir imam namizədi varkən onu tərk edib Əbu Bəkrə beyət edənlər və onların yolundan gedənlər bu hərəkətlərinə şəri dəyər qazandıra bilmək üçün icma dəlilini ortaya ataraq beyətin məşruluğunu buna isnad etmişdirlər. Halbuki, Kitab və Sünnəyə dair bir dəlil olmadan sadəcə insanların bir mövzuda həmrəy olmalarının dini nöqteyi-nəzərdən etibarlı dəlil olduğuna dair kitab, sünnə və ağılda hər hansı dəlil yoxdur. Dəlil kimi irəli sürülən ayə və hədislər iddianı isbat üçün qane edici deyildir. Ağıl dəlilinə əsaslandırmaq da doğru deyil. Bu səbəblə

icma tək başına dəlil olmayıb dəlili ortaya çıxaran vasitədir. Icmanın ortaya çıxaracağı dəlil isə sünnə yəni məsumun sözləridir. Məsumun sözlərini ortaya çıxarmayan icma bütün müctəhidlərə aid olsa belə icma hesab edilməz. Məsumun sözlərini ortaya çıxarmağa vasitə olan icma isə kiçik bir qruba ait olsa belə icma sayılır.

## IV. QİYAS

Bu başlıq altında qiyasın tərifi, dəlil olması, ünsürləri (rüknlər), şərtləri, habelə illət, illətin şərtləri, illəti müəyyən etmə metodları və illətlə əlaqədar bir neçə terminin izahı haqqında məlumat veriləcəkdir.

### A. Tərifi

Qiyas, Kitab, Sünnə və İcmada hökmü olmayan məsələyə, aralarındakı illət eyniliyi səbəbilə sözügedən mənbələrdən birində mövcud olan məsələnin hökmünü həmin məsələyə verməkdir.

### B. Qiyasın dəlil olması

**1. Qurani-kərimdə:** Məsələn, فاعتبروا يا أولي الأبصار *(Ey bəsirət sahibləri, ibrət alın!)* [49] kimi insanları ibrət almağa təşviq edən ayələrin ümumi ifadəsi qiyasın şəri dəyər olduğuna dəlalət edə bilər.

**2. Hədislərdə:** Peyğəmbərimizə yönəldilən suallara bəzən müqayisə ilə cavab verməsi nümunə kimi verilə bilər. Məsələn, *atamın əvəzinə həcc edə bilərəmmi?*-deyə soruşan səhabəyə *"atanın borcu olsaydı və sən onu ödəsəydin borc ödənmiş sayılardımı?"*-deyərək sualına müqayisə ilə cavab verərək Allaha olan borcun ödənməsinin daha vacib olduğunu bildirmişdir.

**3. İcmada:** Hz. Ömər, Əbu Musa əl-Əşərini Bəsrəyə qazı təyin etdikdə ona bir məktub yazmışdı. Bu məktubda Hz. Ömər bu sözlərlə Əbu Musadan qiyas metodundan istifadə etməsini tələb edirdi: *"Kitab və Sünnədə*

49. Həşr, 59/2.

*hökmünü tapa bilmədiyin və qəti qərara gələ bilmədiyin iddialarda dəqiq fikirləş! Analoqu olan hadisələri araşdır və oxşar tərəflər tapmağa cəhd et! Sonra da oxşarlıq tapdıqda qiyası tətbiq et! Tapdığın qiyasi nəticələr içərisində Allah qatında ən çox istənilən və sənin vicdani qənaətinə görə ədalətə ən yaxn olan hökmü ver!"*

**4. Əqli dəlil:** Uca Allahın hikməti gərəyi İslam dini, səmavi dinlərin axırıncısı olmuşdur. Odur ki, artıq qiyamətə qədər başqa bir din gəlməyəcəkdir. Məhz bu səbəblə də İslam dinin mənbələri, sadəcə mövcud olan məsələlərin yox, eyni zamanda dünyanın sonuna qədər ortaya çıxacaq bütün hadisələrin hökmünü tapmağa əlverişli bir tərkibə malik olmalıdır. Quran və Sünnədəki hüquqi nəslər isə, məhduddur, artıq vəhy sona çatdığına görə bunlara başqa nəslər də əlavə olunmayacaqdır. Bunun müqabilində insanların qarşılaşdıqları və qarşılaşacaqları hadisələr, məsələlər məhdud deyildir, hər an yeni məsələlər ortaya çıxır. Məhdud olan mənbələr qeyri-məhdud olan hadisələri qarşılamayacağına görə, yeni hadisələrin hökmlərini əldə etməyi təmin edən başqa bir qaynağın (hökm çıxarma yolunun) mövcud olması zəruridir. Məhz bu hökmləri əldə etmə yolu, haqqında nəss olan hökmlərin hansı səbəblərlə qoyulduğunu müəyyən etmə və bu hökmləri oxşar hadisələrə tətbiq etmə metodudur ki, beləliklə nəslərin çərçivəsi genişləndirilmiş olur. Bu isə qiyasdır. Deməк ki, qiyas, hüquqi nəsləri, haqqında hökm olmayan yeni hadisələri əhatəsinə alacaq vəziyyətə gətirən bir metoddur. Beləliklə İslam hüququ dünyanın sonuna qədər insanların ehtiyacını qarşılayan, hər yerdə və hər dövrdə tətbiqi əlverişli bir hüquq kimi daimdir. Qiyasın qəbul edilməməsi isə, İslam hüququnun donmuş və artıq insalığın ehtiyacını qarşılamayan bir hüquq olduğu ittihamlarına məruz qalmasına yol verər. Odur ki, qiyas dəlili İslam hüquqşünasının müraciət etdiyi ən möhüm mənbələrdən biridir.

### C. Qiyasın rüknləri və şərtləri

Qiyasın dörd rüknü vardır: Əsl, fər, illət və əslin hökmü

#### 1. Əsl

Hökmünə dair nəss olan şeydir. Buna "əl-məqis əleyh" (المقيس عليه) deyilir. Əslin şərtləri bunlardır:

a) Qiyasın istinad etdiyi əsl, nəss və icma olmalıdır. Qiyas ilə sabit hökm üzərinə başqa məsələ qiyas edilməz.

b) Əsl, sadəcə bir məsələyə məxsus olmamalıdır. Əks halda əsl məqis əleyh olmaz. Səhabədən Hüzeymənin tək şahid olaraq qəbul edilməsi kimi. Hz. Peyğəmbərin *"Hüzeymə kimə şəhadət edərsə kifayət edər"* buyurması Hüzeyməyə məxsus bir imtiyazdır. Bu məsələyə qiyas edərək başqa bir şəxsin tək şahidliyi qəbul edilməz.

c) Əsl, qiyasa zidd olaraq sabit olmamalıdır. Namazların rükətləri, hədlərin miqdarları kimi. Bunların hər birinin hikməti olduğuna görə illətlərini təyin etmək mümkün deyildir. Odur ki, ibadət və cəza hökmlərində qiyas cərəyan etməz. Məsələn, sabah namazının iki rükət olduğuna əsaslanaraq günorta namazının da iki rükət olduğuna hökm verilməz.

**2. Fər**

Hökmü haqqında nəss olmayan şeydir. Buna "əl-məqis" (المقيس) deyilir. Fərin şərtləri aşağıdakı kimidir:

a) Fərdəki hökmün illəti əsldəki hökmün illəti ilə eyni olmalıdır. Yəni fərin illət etibarilə əslə bənzəməsi lazımdır ki, hökmü də bənzər olsun. Buna riayət olunmazsa "القياس مع الفارق" (iki müxtəlif məsələnin bir-birinə qiyas edilməsi) meydana gələr. Məsələn, xətanı unutmaya qiyas etmək doğru deyildir. Çünki, xətadakı üzr, unutmadakı üzrdən daha aşağıdır. Xətada, xəta edənin diqqətsizliyi vardır. Unutmada isə iradə mövcud deyildir.

b) Fər haqqında nəslərdə və ya icmada qiyas yolu ilə əldə olunan nəticəyə zidd hər hansı bir hökm olmamalıdır. Buna riayət olunmadığı təqdirdə ortaya "القياس فاسد الاعتبار" (etibarsız qiyas) çıxar. Əndəlüs Əməvi xəlifələrindən birinin qarşılaşdığı bir məsələni qeyd etmək olar. Belə ki, xəlifənin oruclu ikən cinsi münasibət qurmanın kəffarəsi ilə əlaqəli suala, fəqeh bunun cəzasının altmış gün oruc tutmaq olduğu şəklində cavab verər. Hansı ki, Hz. Peyğəmbərin bir hədisində orucunu pozan şəxs üçün kəffarə olaraq ilk əvvəl kölə azad etməsini, buna gücü çatmadıqda iki ay oruc tutmasını əmr etmişdir. Əndəlüslü fəqeh məsləhət prinsipinə istinad edərək qiyas etmiş və beləliklə nəssə zidd fitva vermişdi.

### 3. Əslin hökmü

Əslin hökmü haqqında nəss olan əslə aiddir ki, bu hökm qiyas nəticəsində fərə verilir. Şərab içmək əsldir. Çünki, onun hökmü haqqında nəss vardır. “انما الخمر رجس” [50] ayəsi şərabın içilməsini qadağan edir. Hər hansı bir meyvədən hazırlanan və iskar vəsfinə malik içki fərdir, əsldəki xüsusiyyətlə eyni olduğuna görə həmin fərə əslin hökmü verilir. Beləliklə onun da haram olduğuna hökm verilir.

Əslin hökmünün şərtləri bunlardır:

a) Əslin hökmü Kitab və Sünnə ilə sabit olmalıdır. İcmada sabit olarsa bəzi alimlər bunu məqbul sayarkən digər alimlər etibarlı saymamışdır.

b) Əsldəki hökmün illəti ağıl tərəfindən dərk edilməlidir.

c) Əslin hökmü sadəcə əslə məxsus olmamalıdır.

### 4. İllət

İllət, əslin hökmünün əsaslandığı vəsfdir. Məsələn, şərabın sərxoş etmə (iskar) vəsfi vardır. Bu vəsf səbəbi ilə şərabın içilməsi haramdır. Qiyas nəticəsində iskar xüsusiyyəti olan hə içkinin haram olduğu hökmü çıxarılır.

İllətin şərtləri aşağıdakılardır:

a) Zahir olmalı: Yəni illət, var olub-olmadığına qəti qərar veriləcək tərzdə zahir olmalıdır. Məsələn, əqd qarşılıqlı razılaşmayla meydana gələn hüquqi müamilədir. Ancaq razılıq daxili və ya batini bir şeydir. İcab və qəbul razılığa dəlalət edər və onun yerinə keçər.

b) Münzəbit olmalı: Yəni şəxsdən şəxsə və ya vəziyyətdən vəziyyətə dəyişməyib sabit olmalıdır. Məsələn, sərxoşedicilik (iskar) şərabın haram qılınmasının illətidir. Çünki, “xəmr” sərxoşedici olub, onun bu vəsfi dəyişkən deyildir.

c) Münasib olmalı: İllət hökm üçün münasib bir vəsf olmalıdır. Sözügedən vəsfə əsasən qoyulan hökm, insanlara mənfəət təmin etməli və ya onlardan fəsadı dəf etməlidir. Məsələn, azyaşlı uşaqların malları üzərində atanın vəlayət (qəyyumluq) haqqının olması şəri hökm hesab

50. Maidə.5/90

edilir. Bu hökmün illəti uşağın malını idarə etməsi üçün kifayət qədər qabiliyyətinin olmamasıdır və malını qorumadakı zəifliyidir. Məhz, vəlayətin cərəyan etməsinin illəti, uşağın mənfəətinin qorumasıdır.

**a) İlləti müəyyən etmə yolları:**

*1) Nəsdə:* Əgər illət nəslərdə yəni kitab və sünnədə mövcud isə buna illəti-mənsusə (العلة المنصوصة) deyilir. İllət nəslərdə yoxsa və bu ictihadla bilinərsə buna da illəti-müstənbata (العلة المستنبطة) deyilir.

Ayə və hədislər bəzən hökmün illətini açıqca bildirir. Məsələn, Allah qənimətlərin yetim, yoxsul və möhtac insanlara veriləcəyini qeyd etdikdən sonra *“Bu mallar zənginlər arasında dövr edən mal-dövlət olmasın deyə...”* [51] buyurur. Bu nəss, malların yalnız zənginlər arasında dövr etməsi, kasıb və yoxsullar arasında dövr etməməsinə mane olmasının açıqca illət olduğun bildirmişdir.

*2) İcmada:* Hökmün illəti bəzən icma ilə təyin olunur. Azyaşlı uşağın malında vəlayət cərəyan edir. Bu vəlayətin illəti uşaqlıqdır. Vəlayətin illətinin “uşaqlıq” olduğu icma ilə sabit olmuşdur.

*3) Münasibət:* Münasibətdən məqsəd, illətin hökmə uyğun olmasıdır. İllətin hökmü meydana gətirə bilmə xüsusiyyətinə malik olması lazımdır. Məsələn, “Pişik, sizin ərtafınızda gəzib-dolaşan heyvanlardandır” hədisi, pişiyin ağzı dəyən suyun təmiz olduğuna dəlalət edir. Təmizliyin illəti, pişiyin insanlar ətrafında dolaşan heyvanlardan olmasıdır. Çünki, daima insanlarla birlikdə yaşayan belə bir heyvanın təmas etdiyi suyun nəcis olduğu qəbul edilsəydi, bu vəziyyət insanlar üçün çətinlik və əziyyət çıxarardı. Məhz zərurət nəzərə alınaraq bu su təmiz qəbul edilir. Buna qadının ədəb yerlərinin həkimə göstərməsinin caiz oluşu qiyas edilə bilər. Bu iki misal arasındakı münasibət zərurətdir. Beləliklə, biri digərinə qiyas edilir.

**b) İllətlə əlaqəli bir neçə terminin izahı:**

تخريج المناط : Nəss və ya İcmada mövcud olan bir hökm üçün “münasib” vəsfi ortaya qoymaq üçün gerçəkləşdirilən ictihad mənasına gəlir.

51. Həşr, 59/7

تنقيح المناط : Hər hansı bir hökmün illəti araşdırılarkən illət olmayan vəsfləri təmizləmək surəti ilə əsas illəti tapmaq üçün icra edilən ictihaddır.

تحقيق المناط : Bir hadisə ilə əlaqəli hökmün illəti istər nəss və ya icma, istər başqa yolla (ictihadla) sabit olsun, bu illətin eynisinin başqa bir məsələdə də mövcud olduğundan əmin olmaq üçün aparılan araşdırma mənasına gəlir.

### D. Qiyasın növləri

Bir tərəfdən qiyaslar, illətinin dərhal anlaşılıb-anlaşılmaması baxımından cəli və xəfi qisimlərinə bölünür. Belə ki, qiyasın illəti dərhal anlaşılırsa, ona “cəli qiyas”, ancaq illəti dərhal anlaşılmır və tədqiqə ehtiyac olarsa, ona da “xəfi qiyas” deyilir. Xəfi qiyasa eyni zamanda istehsan da deyilir. O biri tərəfdən qiyaslar, fərdəki illətlərin əsldəki illətlərə nəzərən qüvvətli olub-olmaması baxımından üç qismə bölünür:

**1. Övla qiyas:** Fərdəki illət əsldəki illətdən daha qüvvətli olan qiyasdır. Məsələn, “*Ana-atana uf belə demə...!*”[52] ayəsi, valideynə uf belə deməyi haram buyurur. Bu hökmün illəti, əziyyətdir. Əziyyət, valideynin döyülməsində daha da çoxdur. Ona görə də valideynin döyülməsi, uf deməyə görə, daha qüvvətli bir qiyasla haram olur.

**2. Müsavi qiyas:** Fərdəki illət əsldəki illətə bərabər olan qiyasdır. Məsələn, *“Həqiqətən, yetimlərin mallarını haqsızlıqla yeyənlərin yedikləri qarınlarında oda çevriləcək və onlar (qiyamətdə) alovlu cəhənnəmə girəcəklər”*[53] ayəsi, yetim uşaqların mallarını haqsızlıqla yeməyi haram edir. Hökmün illəti isə, uşağın malını tələf etməkdir. Yetimin malını haqsız yerə yandırmaq isə, haqsızlıqla yeməyə, illətdə bərabərdir. Odur ki, uşağın malını haqsız yerə yandırmaq da haramdır.

**3. Ədna qiyas:** Fərdəki illət olan vəsf, əsldəki illət olan vəsfdən daha az açıq olan qiyasdır. Məsələn, bəzi içkilərdəki sərxoşedicilik vəsfi şərabdakından daha az açıqdır. Məhz belə bir maddənin şəraba qiyas edilərək haramlığı ədna qiyasdır.

52. İsra, 17/23.
53. Nisa, 4/10.

### E. Şiə məzhəblərinə görə qiyas

Əhli-sünnə üsulşünasları qiyası ədilləyi-şəriyyədən saydıqları məlumdur. Buna müqabil imamiyyə üsulşünasları, qiyasın dəlil olmadığını ifadə edərək bunun yerinə dördüncü dəlil kimi ağlı qeyd etmişdirlər. Ancaq şiə-imamiyyə məzhəbinə mənsub müəlliflər ağıldan məqsədin nə olduğunu tam olaraq izah etməmişdirlər. Bəziləri bunu kitab, sünnə və imamların sözlərindən ibarət dəlilləri başa düşmənin vasitəsi kimi tərif etmişdir. Şəri hökmlərin qarşısında ağlın funksiyasını təyin edən bir tərifə görə ağıl, şəri hökm haqqında dəqiq bilgini əldə etməyə vasitəçi olan əqli qəziyyədir. Şiə məzhəbinin dəlil olaraq qəbul etdiyi ağıl, məntiqçlilərin qiyas anlayışından fərqli bir vasitə olmadığı ifadə edilmişdir.

Əhli-sünnə üsulşünasların qəbul etdiyi və geniş istifadə etdiyi “illət ictihadla müəyyənləşdirildikdən sonra bu illətə malik hadisələrin eyni hökmə tabe tutulması” mənasındakı qiyası şia üsulşünaslar dəlil kimi qəbul etməzlər. Çünki, onlara görə illətlər ağılla bilinməz. Şiə məzhəbinin mənimsədiyi ağıl dəlilində ağlın rolu, yaxşı və gözəl olduğu idrak edilən hər hansı bir şeyin Allah qatında da gözəl olduğu düşüncəsidir. Çünki, onlara görə hüsün və qübuh ağılla bilinən şeylərdir. Ağıl, bu münasibətdən hərəkətlə şəri hökm ortaya çıxarmaqla Allah qatında mövcud olan hökmü işıq üzünə çıxarmaqdır.

## FƏRİ DƏLİLLƏR (İXTİLAFLI DƏLİLLƏR)

## I. MƏSALEHİ-MÜRSƏLƏ

Bu başlıq altında məsalehi-mürsələnin tərifi, şərtləri, dəlil olması haqqında, əhəmiyyəti və qiyasla müqayisəsi mövzularına təmas ediləcəkdir.

### A. Tərifi

Məsalehi-mürsələ, ona əsasən hökmün verilməsi ilə insanlara bir fayda təmin edən və ya onlardan bir zərəri dəf edən, ancaq etibarlı və ya etibarsız olduğuna dair hər hansı dəlil olmayan mənalardır. Bu tərifdən

aydın olur ki, məsalehi-mürsələ, ancaq Şarinin hökmünü açıqlamadığı və qiyas olunan nəss ilə yaxud icma ilə sabit bir hökmün olmadığı hallarda mühüm əhəmiyyət kəsb edir. Eyni zamanda məsalehi-mürsələdə bir şəri hökmün səbəbi olmağa əlverişli və üzərinə hökm qoyula bilən münasib bir vəsf olmalıdır.

### B. Şərtləri

Məsalehi-mürsələni bir dəlil kimi qəbul edənlər, ona görə hökm verərkən aşağıdakı şərtlərə əməl olunmasını şərt qoşmuşdurlar:

1. Məsləhət, şəri dəlilə görə etibarsız hesab olunmamalıdır. Əks təqdirdə məsləhət etibarsız olar. Məsələn, hücum edən düşmənə qarşı müharibə etməyib ona təslim olmaq faydalı görülsə belə, həmin bu məsləhətə etibar olunmaz. Çünki təslim olaraq təmin edilən -ölümdən qurtulma, mal-mülkün tələf olmaması kimi- faydalar şəri dəlil tərəfindən məqbul sayılmamış və tamamilə etibarsız sayılmışdır.

2. Məsləhətin mövcud olduğundan tamamilə əmin olunmalıdır. Odur ki, məsləhət əsasına görə bir hadisə haqqında hökm verərkən bu hökmün bir faydanı gerçəkləşdirəcəyi və ya bir zərəri ortadan qaldıracağından əmin olmaq labüddür.

3. Məsləhət, ümumi olmalıdır. Əgər məsləhət xüsusi olarsa ona əsasən hökm verilə bilməz. Odur ki, müəyyən insana və ya təbəqəyə yönəlik məsləhət olmamalıdır. Məsləhət insanların əksəriyyətini əhatə etməlidir.

4. Məsləhət, mahiyyəti baxımından məqbul olmalıdır. Yəni sağlam əqlə malik olan insanlar tərəfindən qəbul olunmalıdır.

### C. Məsalehi-mürsələnin dəlil olması haqqında

Alimlərin əksəriyyəti məsalehi-mürsələnin hökm əldə edərkən nəzərə alınmalı olan əsas prinsip, şəri bir dəlil olduğu qənaətinə gəlmişdirlər. Məşhur dörd böyük İslam hüquqşünasları da bu fikirdədir. Belə ki, onların əldə etdikləri hökmləri araşdırdıqda, bir sıra hökmlərin sözügedən prinsipə söykəndiyini mülahizə etmək mümkündür. Hərçənd ki, üsulşünaslar, üsul kitablarında bu prinsipin sadəcə İmam Malikə görə dəlil olduğunu

bildirmişdirlər, ancaq müxtəlif fiqh kitablarını incələyən hər bir kəs, digər üç imamın da məsalehi-mürsələ qarşısındakı mövqelərinin fərqli olmadığını görər.

Bəzi alimlər isə, məsalehi-mürsələnin dəlil olmadığı və onu əsas alaraq hökm əldə oluna bilməyəcəyi qənaətinə gəlmişdirlər. Zahirilər, Amidi və İbn Hacib kimi bəzi şafi və maliki alimlər bu fikri mənimsəmişdirlər. Hər iki fikrin də özünəməxsus dəlilləri vardır.

1) Qəbul edənlərin dəlilləri:

Məşhur Muaz İbn Cəbəl (r.ə) hədisində[54] rəylə ictihadın çərçivəsinə məsalehi-mürsələ də daxildir. Hz. Peyğəmbərin vəfatından sonra ictihad fəaliyyətini yerinə yetirən səhabələrin verdikləri hökmləri araşdırdıqda, onların çox sayda hökmləri bu prinsip əsasına görə verdikləri anlaşılır. Məsələn, müshəflərdə olan Qurani-kərimin cəm edilməsi, Hz. Ömərin fəth olunan İraq torpaqlarını qazilər arasında paylamayıb, köhnə sahiblərinə tərk edərək, müsəlmanlara mütəmadi gəlir təmin etmək üçün onlardan "xərac" alması, Mədinədə nüfusun çoxalması səbəbilə Hz. Osmanın cümə namazı üçün bir azanın da əlavə etməsi və s.

2) Qəbul etməyənlərin dəlilləri:

Uca Allah bəzi məsləhətləri mötəbər, bəzilərini də etibarsız saymışdır. Məsalehi-mürsələnin isə hansı çərçivəyə daxil olduğu mövzusunda şübhə vardır. Odur ki, məsalehi-mürsələ tərk olunmalıdır. Hökm verməddə məsalehi-mürsələnin məqbul sayılması ilə, öz kefinə görə hökm vermək istəyən və ictihad səlahiyyətinə sahib olmayan kəslər üçün bir yol açılmış olar. Beləliklə onlar bu yoldan nüfuz edərək, İslam hüququnun hökmlərində öz arzularına görə hökmlər qoymağa cəsarət edərlər.

### D. Məsalahi-mürsələnin qiyasla müqayisəsi

Bu iki dəlil dəqiq incələndikdə aralarındakı eynilikləri və fərqlilikləri aşağıdakı kimi müəyyən etmək mümkündür:

1. Eynilik təşkil etdiklər yer:

54. Əbu Davud, Əqziyə, 11; Tirmizi, Ehkam, 3; İbn Macə, Mənasik, 38.

a) Hər ikisinə də, ancaq haqqında kitab, sünnə və ya icmada xüsusi bir hökm olmayan məsələlərdə müraciət olunur.

b) Həm qiyas, həm də məsalehi-mürsələ ilə sabit olan hökm, hökmün qoyulmasında illət və səbəb olmağa əlverişli olduğuna qənaət gətirilən “münasib vəsf” əsasına söykənir.

2. Fərqlilik təşkil etdikləri yer:

a) Qiyasa görə hökm verilən məsələdə, bu məsələnin oxşarı Kitab, Sünnə və ya İcmada nəzərdə tutulmuş və nəss yaxud İcmadakı hökmün qoyulmasına səbəb olan münasib vəsf vasitəsilə yeni məsələ hökmü bilinən məsələyə qiyas edilmişdir. Ancaq məsalehi-mürsələyə görə hökm verilən məsələlərdə isə, qiyas edilə bilən hər hansı oxşar məsələ yoxdur. Hökm, bilavasitə məsləhət (fayda-zərər) fikrinə əsaslanır.

b) Qiyasda, hökmün söykəndiyi məsləhətin mötəbərliyi haqqında xüsusi dəlil vardır. Ancaq məsalehi-mürsələyə görə hökm verərkən hökmün əsaslandığı məsləhət haqqında müsbət və ya mənfi mənada hər hansı bir dəlil yoxdur. Yəni bu mövzuda Şari sükut etmişdir.

## II. İSTEHSAN

Bu başlıq altında istehsan dəlilinin tərifi, növləri, dəlil olması haqqında və məsalehi-mürsələ ilə müqayisəsi mövzuları barədə məlumat veriləcəkdir.

### A. **Tərifi**

İstehsan, müctəhidin, bir məsələdə öz qənaətinə görə həmin məsələnin oxşarlarında verdiyi hökmdən imtina etməsini lazım bilən nəss, icma, zərurət, gizli qiyas, adət-ənənə və ya məsləhət kimi bir dəlilə əsaslanaraq, o hökmü tərk edib başqa bir hökm verməsidir.

Belə ki, bəzən bir məsələ, ümumi olan nəslərdən birinin və ya fiqhdə yaxud bəzi məzhəblərdə mənimsənən bir ümumi qaydanın əhatəsinə daxildir. Ancaq bu məsələdə həmin ümumi nəssin və ya ümumi qaydanın

əksinə hökm verməyi lazım bilən nəss, icma, zərurət, adət və ya məsləhət kimi xüsusi bir dəlil də mövcuddur. Müctəhid, bu xüsusi dəlilin üstün tutulmasına qənaət gətirərsə, o məsələnin oxşarlarına tətbiq olunan ümumi nəss və ya ümumi qayda hökmünü tərk edərək xüsusi dəlilə əsasən hökm verər. Məhz bu "üdulə" yəni oxşarlarına tətbiq olunan hökmdən imtina etməyə "istehsan" adı verilir. Bu yolla sabit olan hökmə də "qiyasa zidd olaraq sabit olmuş müstəhsən hökm" deyilir. Buradakı qiyasa ziddiyyətdən məqsəd, ümumi nəssə və ya ümumi qaydaya ziddiyyətdir.

Bununla birlikdə bəzən də bir məsələ nəssin əhatəsinə daxil olmur və bu səbəblə qiyasa müraciət olunur. Ancaq iki fərqli qiyas imkanı ilə qarşılaşılır. Belə ki, bu məsələ ilə, hər biri haqqında şəri hökm olan iki fərqli məsələ arasında oxşarlıq görülür. Bu qiyaslardan biri açıqdır (zahir/cəli) və cəli qiyasda hökmü verilən məsələ ilə hökmü bilinən məsələ arasında illət asanlıqla tapılır və ilk anda anlaşılan oxşarlıqdır. İkinci qiyas isə, qapalıdır (xəfi). Birincidə olduğu kimi oxşarlıq dərhal ağla gəlmir və illət gizli olur. Ancaq nəticədə müctəhid ikinci qiyasın üstün tutulması qənaətinə gəlir və xəfi qiyasa əsasən hökm verir. Buna "açıq qiyasa zidd olan istehsan" deyilir. Məsələn, müştəri malı təhvil almadan əvvəl, satıcı ilə aralarında malın qiymətində narazılıq çıxsa açıq qiyasa görə satıcının dəlil gətirməsi lazımdır. Çünki, satıcı müştərinin iddia etdiyi miqdardan əlavə pul tələb edir. Bu vəziyyətdə satıcı iddiaçı, müştəri isə müttəhim mövqeyindədir. Satıcının dəlil gətirməsi və müştərinin and içməsi ilə məsələ sona çatar. Istehsana görə isə dəlil olmadığı zaman həm müştəri, həm də satıcı and içər. Çünki, hər ikisi də bir şeyi iddia etməklə yanaşı həm də inkar edir. Satıcı əlavə pul tələb edərək müştərinin mala sahib olmağa haq qazandığını inkar edir. Müştəri isə tələb edilən pulu inkar və malın ona təhvil verilməsini iddia edir. Bu vəziyyətdə hər ikisinin and içməsi lazım gəlir.

Xülasə, istehsan, ya müctəhidin, xüsusi bir səbəblə ümumi hökmdən ayrıldığı bir məsələdir. Ya da, haqqında biri açıq digəri qapalı iki fərqli qiyas imkanı olan və müctəhidin qapalı qiyası daha qüvvətli gördüyü üçün açıq qiyası tərk etdiyi bir məsələdir.

**B. Növləri**

İstehsanın istinad edildiyi yerinə görə müxtəlif növləri vardır. Buna “vəchul-istehsan” deyilir. İstehsanın əsaslandığı mənbələri aşağıdakı kateqoriyalara ayırmaq mümkündür:

**1. Dəlili nəss olan istehsan:** Bir məsələ haqqında müəyyən bir nəss varsa və bu nəss, ümumi nəss və ya ümumi qaydaya görə o məsələnin oxşarları haqqında tətbiq olunan ümumi hökmün əksinə bir hökm ehtiva edirsə, belə olan təqdirdə bu növ istehsandan bəhs olunur. Sözügedən bu xüsusi nəssin hökmü, Şarinin oxşarlarına aid hökmdən istisna etdiyi bütün məsələlər haqqında etibarlıdır. Məsələn, sələm əqdi (nəğd pul-nisyə mal) buna nümunə verilə bilər. Çünki bu mövzuda iki nəss vardır. Bunlardan birincisi ümumi nəsdir və bu əqdin etibarsızlığına dəlalət edir. Belə ki, Hz. Peyğəmbər *“Sahib olmadığın bir şeyi satma”*[55] buyurmuşdur. İkinci nəss isə xüsusi nəssdir və bu müqavilənin caiz olduğunu bildirir. Belə ki, Hz. Peyğəmbər Mədinəyə gəldikdə, oradakı insanların meyvələri bir və ya iki illiyinə sələf əqdi bağladıqlarını gördü. Bunun üzərinə Hz. Peyğəmbər belə buyurdu: *“Sələm yolu ilə satan, bunu müəyyən ölçüyə, müəyyən tərəziyə görə və müəyyən bir vaxt təyin edərək yerinə yetirsin.”*[56] Məhz bu hədisə əsasən İslam hüquqşünasları, sələf əqdinin mötəbər olmadığını lazım bilən ümumi nəsdənayıraraq xüsusi nəssə görə hökm vermişdirlər və sələf əqdini caiz hesab etmişdirlər.

**2. Dəlili icma olan istehsan:** Müctəhidlərin, bir məsələdə, həmin məsələnin oxşarlarına tətbiq olunan ümumi qaydanın əksinə hökm verməleri və ya insanların ümumi bir qaydanın əksinə davranmaları qarşısında sükut etmələri və buna qarşı çıxmadıqları təqdirdə, “icma səbəbilə istehsan” meydana gəlir. Məsələn, istisna əqdi (sifariş) buna örnək verilə bilər. Belə ki, alqı-satqı mövzusundakı əsas qaydaya görə bu əqd etibarsızdır. Çünki əqdin predmeti “əl-məqud əleyh” əqd bağlanarkən mövcud deyildir (mədumdur). Ancaq insanlar bu müamiləni mütəmadi olaraq həyata keçimişdirlər və müctəhidlərdən heç kim buna qarşı çıxmamışdır. Belə olan halda bu əqdin etibarlılığı haqqında müctəhidlərin icma etdiyi qəbul edilir.

55. Əbu Davud, Büyu, 70.

56. Əbu Davud, Büyu, 57; Nəsai, Büyu, 63.

**3. Dəlili zərurət və ehtiyac olan istehsan:** Zərurət və ehtiyac səbəbilə istehsana yırtıcı quşların artığı olan sularla dini təmizliyin caiz olması misal verilə bilər. Əslində bunların da selikləri digər vəhşi heyvanlar kimi nəcis olmalıdır. Ancaq bunlar göydən endikləri və insanların ondan qorunmasında çətinlik vardır. Bunun üçün hənəfilər bu zərurəti nəzərə alaraq bu quşların artığını istehsanən təmiz qəbul etmişdirlər.

**4. Dəlili qapalı qiyas olan istehsan:** Buradakı istehsan, bir-biri ilə ziddiyyətlik təşkil edən, biri açıq digəri qapalı iki qiyas imkanı olan məsələlərdə meydana gəlir. Məsələn, vəhşi quşların artığı haqqında iki qiyas imkanı vardır. Birincisi, onların dört ayaqlı vəhşi heyvanlara qiyas edərək seliklərinin nəcis olduğu fikridir ki, bu açıq qiyasdır. İkincisi isə, vəhşi quşların artığının insan artığına qiyas edilməsidir ki, məhz bu qiyas qapalı qiyasdır. Belə ki, vəhşi quşlar suyu dimdikləri ilə içirlər. Dimdikləri təmiz sümükdür. Eyni zamanda selikləri suya qarışmaz. Belə olan halda bu qiyasa görə, necəki insanın içməsi ilə suyun nəcis olmadığına hökm verilirsə, bu kimi quşların da içməsi ilə suyun nəcis olmadığına hökm vermək lazımdır.

**5. Dəlili adət-ənənə olan istehsan:** İnsanlar, qiyasla müəyyən edilən bir hökmə və ya ümumi qaydaya zidd düşən bir tətbiqatı adət kimi vərdiş etsələr, bu növ istehsandan bəhs olunur. Məsələn, hənəfi məzhəbinədəki ümumi qaydaya görə, vəqf əbədi olmalıdır. Odur ki, bu qayda nəticəsində daşınan (mənqul) əmlak vəqf edilə bilməz. Çünki daşınan əmlak müəyyən müddət sonra öz əhəmiyyətini itirir. Ancaq İmam Məhəmməd kitab və buna oxşarların vəqf edilməsi, vərdiş olunmuş əşyaların vəqf edilə biləcəyinə dair fitva vermişdir.

**6. Dəlili məsləhət olan istehsan:** Bir məsələdə məsləhət fikri, o məsələyə ümumi nəssə və ümumi qaydaya görə tətbiq edilən hökmdən istisna etməyi və əks istiqamətdə bir hökm verməyi lazım bilərsə, bu növ istehsandan bəhs olunur. Məsələn, hənəfi və maliki məzhəbində haşimioğullarına zəkat vermək caiz deyildir. Çünki Hz. Peyğəmbər belə buyurmuşdur: "*Zəkat, Mühəmmədə və Mühəmmədin ailəsinə halal deyildir.*"[57] Ancaq Əbu Hənifə və İmam Malik istehsanən öz dövrlərindəki

57. Müslim, Zəkat, 168.

haşimioğullarına zəkat verilə biəcəyinə dair fitva vermişdirlər. Bu istehsan, məsləhət fikrinə söykənir. Belə ki, onların dövründə, haşimioğullarına qənimətlərdən ayrılmalı olan pay artıq onlara ayrılmamışdır. Məhz bu səbəblə onların mənfəətini qorumaq üçün İslam hüquqşünasları bu qənaətə gəlmişdirlər.

### C. İstehsanın dəlil olması haqqında

Üsul əsərlərində və digər əsərlərdə əsasən istehsanın hənəfi məzhəbinə aid dəlillərdən olduğu və hənəfilərdən başqa İslam hüquqşünaslarının istehsanı hökm istibatında bir dəlil kimi qəbul etmədikləri qeyd olunur. Ancaq bu fikir həqiqəti əks etdirmir. Çünki istehsan, əsasən bütün imamlar nəzdində mötəbər bir dəlildir. Müxtəlif məzhəblərin fiqh kitablarını araşdıran bir kəs, bu kitabların istehsana söykənən hökmlərlə dolu olduğunu görər. Bu mövzuda ən çox nəzəri cəlb edən maliki məzhəbinin kitablarıdır.

İstehsana qarşı çıxan və bu mövzuda çox sərt mövqedən çıxış edən İmam Şafinin özünün də, bəzi məsələlərdə istehsana görə hökm verdiyi mülahizə edilir. Belə olan halda İmam Şafinin istehsana qarşı çıxmasını və “istehsan edən, öz başına din ortaya qoymuş olar” sözünü, istehsanı dəlil kimi qəbul edənlərin başa düşdüyü mənada yox, şəri bir dəlilə əsaslanmadan şəxsi arzuya  və subyektiv mülahizələrə görə hökm vermək mənasında başa düşülməlidir. Şübhəsiz ki, bu mənada istehsan hər kəsə görə etibarsızdır.

### D. İstehsanın məsalehi-mürsələ ilə müqayisəsi

İstehsanın olması üçün, bir məsələ haqqında o məsələnin oxşarlarına verilən bir hökm mövcud olmalı, ancaq bir dəlilə əsaslanaraq o hökmdən istisna edilməli və məsələyə o hökmün əksinə bir hökm verilməlidir.

Məsalehi-mürsələyə görə hökm vermədə isə, hökm verilən məsələnin, hökmü bilinən oxşarları yoxdur. Odur ki, verilən hökm bilavasitə məsləhət fikrinə söykənir.

## III. ADƏT-ƏNƏNƏ

Bu başlıq altında adət-ənənənin tərifi, növləri, dəlil olması haqqında, şərtləri və adətin dəyişməsi ilə ehkamın dəyişməsi mövzuları ələ alınacaqdır.

### A. Tərifi

Lüğətdə comərdlik və ya dəniz dalğası mənasına gələn adət kəlməsi, fiqh terminologiyasında, "insanların əksəriyyətinin mənimsəyib vərdiş etdikləri iş və ya eşidildikdə xatirə başqa məna gəlməyəcək dərəcədə xüsusi bir mənada istifadə etdikləri ləfzdir." İslam hüquqşünaslarına görə adət ilə ənənə sinonimdir. Onların, "Bu, adət və ənənə ilə sabitdir" ifadəsi, adətin ənənədən fərqli olduğuna dəlalət etmir. Odur ki, ikisi birlikdə qeyd olunmuşsa, təkid üçün istifadə olunmuş deməkdir.

### B. Növləri

Adət, bir tərəfdən qövli (sözlə) və əməli, digər tərəfdən ümumi və xüsusi kimi təsnif olunur. Adətin bütün bu növləri isə fasid (batil) və ya səhih ola bilər.

#### 1. Fasid

Kitab və ya Sünnəyə zidd olan adət-ənənəyə, fasid yəni batil (etibarsız) adət deyilir. Məsələn, spirtli içki içmək və ya faiz (sələm) alıb vermək, bəzən insanlar arasında adət halını ala bilər. Ancaq nəslərə zidd olan bu kimi adətlər, məqbul hesab olunmamış və batil çərçivəsinə daxil edilmişdir. Fasid və ya batil adətin İslam nəzərində heç bir dəyəri olmadığına görə bu mövzunun qisimlərini də ələ almağa ehtiyac yoxdur. Əsasən bizi maraqlandıran səhih adətdir. Odur ki, aşağıda səhih adəti izah etdikdən sonra növləri haqqında təfərrüatı ilə məlumat veriləcəkdir.

#### 2. Səhih

Səhih adət, şəriətin hər hansı bir nəssinə müxalif olmayan, mötəbər bir məsləhətə əngəl təşkil etməyən, fəsada səbəb olmayan bir adətdir.

Məsələn, müəyyən bölgələrdə insanların, oğlan tərəfinin nişanlı qıza paltar və buna oxşar şeylərin hədiyyə qəbilindən sayılıb mehrə daxil olmamasını və başqa misallar gətirmək mümkündür.

Səhih adət və ənənənin aşağıdakı növləri vardır:

**a. Qövli**

Qövli adət, bir bölgənin, hər hansı bir kəlməni və ya bir cümləni mütəmadi olaraq lüğətdəki mənasından başqa bir mənada istifadə edərək vərdiş etmələridir. Məsələn, "filan evə ayağımı basmayacağam" sözü, adətə görə "o evə girməyəcəyəm" mənasındadır. Bununla birlikdə bir kəs, filanın evinə ayağımı basmayacağam deyə and içərsə və o evə heyvanla belə girərsə andını pozmuş olur.

**b. Əməli**

Əməli adət, hər hansı bir cəmiyyətin bir işi, bir hərəkəti müəyyən tərzdə mütəmadi olaraq icra etmələridir. Məsələn, "el-bey bit-təati" kimi alqı-satqı növü buna daxildir.

**c. Ümumi**

Hər hansı bir zamanda əhalinin əksəriyyətinin adət etdiyi şeydir. Məsələn, "istisna əqdini (sifarış)" adət etmək, "haram" kəlməsininin nikah əqdinə son qoyduğu üçün "talaq" mənasında istifadə olunması, müddəti və istifadə olunan suyun miqdarının müəyyən edilməməsinə baxmayaraq pulla hamama girməyin yayğınlaşması kimi.

**d. Xüsusi**

Bir bölgə əhalisinin yaxud müəyyən bir grup insanın adət etdiyi şeydir. Məsələn, "dəbbə" kəlməsinin İraq əhalisi arasında sadəcə "at" üçün istifadə olunması, tacirin tutduğu borc siyahısının əşyayi-dəlil kimi hesab olunması və s.

**C. Adətin dəlil olması haqqında**

Alimlər, şəri dəlillərə və mühitin, yaxud adətlərin dəyişməsinə görə dəyişməyən şəri hökmlərə zidd olduğu təqdirdə adətin mötəbər sayılmadığı, hətta ortadan qaldırılmalı olduğu mövzusunda həmfikirdir.

Məsələn, içki içmə, qumar oynama, faizli müqavilələr, qəbir üstündə şam yandırmaq kimi davranışlar cəmiyyətdə adət halını alsa belə, bunlar, zəmanəyə görə dəyişməyən, dini və sosial cəhətdən bir sıra pisliklərə əngəl olmaq üzrə qoyulmuş qadağalara zidd olduğundan, mötəbər adət kimi qəbul olunmur.

Səhih adətə gəlincə, hökm vermədə və ictihadda məqbuldur. Çünki şəri hökmlərə müxalif olmur və şəri əsaslara zidd düşmür. Odur ki, alimlər, “şəri hökmü isbat üçün adət hakim kimi təyin edilir” (məcəllə, maddə 36) və “adətlə sabit olan nəslə sabit olan kimidir” (Məcəlleyi-əhkami-ədliyyə, maddə 45) qaydasını gətirmişdirlər. Bəzi ayələrdə adət kəlməsindən istifadə olunduğu üçün üləma sözügedən ayələri dəlil gətirmişdirlər. Məsələn, *“... Anaların yeməyi və geyimi örf və adətə görə (öz qüvvəsi dairəsində) (uşağın) atasının üzərinə düşür.”*[58] *“...kasıb isə örfə görə (qəbul olunmuş qayda üzrə) yesin.”*[59] Bununla birlikdə səhih adətə əməl edilə biləcəyinə dair dəlil, onun insanların ehtiyaclarına müvafiq olması, məşəqqət və çətinliklərini ortadan qaldırmasıdır. İslam, öz prinsipləri və ümumi qaydaları ilə zidd düşməyən bəzi ərəb adətlərini –düzəliş verərək, mühafizə etmişdir. Məsələn, xəta ilə öldürmə hadisələrində, diyəni (təzminat) aqilənin (ən yaxın qohum) öhdəsinə vermək, evlilikdə bərabərliyə riayət etmək, vərəsəlikdə əsəbə olan qohumların üstün tutulması, qəsamə, girov, kirayə əqdi və s.

Eyni zamanda insanların vərdişləri, məsələn bir sıra ticari adətləri, rəftarları, sosial həyatla əlaqədar bir çox tərtibatları adət halına gətirmələri ilə əmələ gələn adətlər mötəbər adət hesab olunmuşdur. Çünki İslam hüququnda hökmlərin qoyulmasındakı əsas qayə, insanların işlərini tənzimləmək, aralarındakı ədaləti gerçəkləşdirmək və onların çətinliklərini ortadan qaldırmaqdır. Belə olan halda İslam hüququna görə hökm verilərkən, insanların vərdiş etdiyi şeyləri nəzərə almamaq, insanları sıxıntıya məruz qoymaq olar. Odur ki, bu, İslam hüququnun təməl prinsiplərinə zidd düşür.

Onu da qeyd etmək lazımdır ki, adət öz başına bir dəlil deyildir. Əsasən adət, icma, mürsəl məsləhət və zərai kimi şəriətin mötəbər dəlillərindən birinə söykənir. Məsələn, istisna əqdi (sifariş) və hamamlara getmək, icmaya söykənən adət növündəndir. Heç bir alim tərəfindən etiraz

58. Bəqərə, 2/233.

59. Nisa, 4/6.

olunmadığı üçün, bu davranışlar adət olaraq caiz sayılmış və bu mövzuda icma əmələ gəlmişdir.

İslam hüquqşünaslarının müxtəlif əsrlərdə adətdən dəlil kimi istifadə etmələri və onu ictihadlarında etibarlı mənbə saymaları, adət-ənənənin mötəbər bir dəlil olduğunu göstərir. Çünki fəqihlərin adətə əməl etmələri, sükuti icma dərəcəsində qəbul edilir. Bununla yanaşı adəti bəzi müctəhidlər açıq-aydın dəlil kimi bəyan etmişdirlər və bəziləri də sükut etmişdirlər. Beləliklə də icma ilə mötəbərliyi sabit olmuşdur.

**D. Adətin mötəbərliyi üçün lazımi şərtlər**

Adətə əsaslanaraq hökm çıxara bilmək üçün, başqa bir ifadə ilə, adətin şəri dəlillərdən sayıla bilməsi üçün bəzi şərtlərin mövcud olması labüddür:

1. Adət, nəslərdən hər hansı bir nəssə, yəni Quran və Sünnəyə və ya İslam hüququnun prinsipləri ilə ziddiyyət təşkil etməməlidir. Əgər adət nəssə zidd düşərsə məsələn, sərxoşedici içkilərin içilməsi və alqı-satqısı və ya faizli müamilələr adət səviyyəsində yayğınlaşsa belə buna əsla etibar olunmaz. Çünki bu mövzulardakı qadağalar ictimai şəraitin dəyişməsi ilə dəyişən hökmlər deyildir və qəti hökmlərdir. Bu növ adətə etibar edilməsi nəssin hökmünü ortadan qaldırmaq mənasına gələr.

2. Adət-ənənə ümumilik və çoxluq təşkil etməlidir. Yəni adətin müamilələrin hamısında və ya əksəriyyətində tətbiqi gərəkdir. Buna "ettirad" və ya "qələbə" deyilir. Məsələn, bir bölgə sakinləri nikah əqdində bəzən mehrin hamısını nəğd olaraq vermə (müaccəl), bəzən də daha sonra vermə (müəccəl) kimi iki cür təamül varsa, bu kimi hallarda adət mötəbər olmaz. Çünki bu tətbiqatın biri digərinin (cəmiyyətdəki ümumi qənaət ilə əlaqədar) dəlalətini pozur.

3. Müamilənin söykəndiyi adət, yəni hakim rolu oynayan adət, hüquqi müqavilənin bağlandığı əsnada və ya müamilənin hasil olduğu anda mövcud olmalıdır. Məsələn, bir şəxs, daşınmaz əmlakın gəlirini alimlərə yaxud elm tələbələrinə vəqf etdiyini nəzərə alaq. Vəqf etmə dövründəki adətə görə alimlərin deyilincə "başqa hər hansı şərt axtarılmadan dini sahədə bilik və təcrübəsi olanlar" nəzərdə tutulursa və elm tələbələrindən

də məqsəd o dövrdə “dini elm təhsili alanlar” isə, belə olan təqdirdə vəqfin gəliri, daha sonrakı dövrün adətinə görə alimlik vəsfini qazanmaq üçün diplomu olmaq şərt qoşulsa da, sonradan meydana gələn bu növ adəti nəzərə almadan din alimlərinə yaxud sonrakı adətə görə din təhsili və dini olmayan elmlərin təhsili ilə məşğul olan elm tələbələri sayılmasa belə, sözügedən vəqfin gəliri sadəcə dini təhsil alan tələbələrə verilər.

4. Adətin tərkibindəki mənaya zidd bir iş və ya söz olmamalıdır. Yəni açıq bir ifadə ilə adətə zidd bir şey olmamalıdır. Belə ki, bir mövzuda adət olmaqla birlikdə əqdin tərəfləri əksini qərarlaşdırmışlarsa, adətə etibar edilməz tərəflərin ortaq iradəsi əsas alınır. Məsələn, bazarda mövcud olan adətə görə satışlar nisyə olsa, ancaq alan və satan nəğd olaraq ödəmək üzrə müqavilə bağlasalar, adətin burada bir dəyəri qalmaz. Həmçinin sənədləşdirmə müştəriyə aid olacağına dair bir adət olsa, fəqət sənədləşdirmə satana aid olacağını müqavilə əsnasında qərarlaşdırsalar, artıq burada adətə etibar edilməz. Çünki adətin əksinə bir müqavilə bağlanmışdır.

**E. Adətin dəyişməsi ilə ehkamın dəyişməsi**

İslam hüququna görə hökm verilərkən adət nəzərə alınaraq bir sıra hökmlərin adət əsasında verilməsinin təbii nəticəsi kimi, adətin dəyişməsi ilə həmin hökmlərin də dəyişməsi reallıqdır. Çünki “əsldəki” dəyişmənin “fərdə” də dəyişikliyi meydana gətirməsi qaçınılmazdır. Məhz bu səbəblə eyni məzhəbdəki imamların adətdəki dəyişikliklər səbəbilə fərqli hökmlər ortaya qoyduqlarını və sonrakı alimlərin bəzi hökmlərdə əvvəlki imamların rəylərinə zidd hökmlər verdiklərini mülahizə edirik. Bu kimi ixtilaflar haqqında İslam hüquqşünasları, “Bu, zaman və dövr ixtilafıdır, dəlil ixtilafı deyil” –demişdirlər.

Ehkamın dəyişməsi mövzusunda adətin ən mühüm funksiyası, nəslərin adətlə illətləndirilməsi nöqteyi-nəzərindən mühüm əhəmiyyət kəsb edir. İslam hüquqşünasları arasında getdikcə əhəmiyyət kəsb edən və üzərində çox düşünülən bu mövzu, Əbu Yusifin (vəfatı-182/798) ictihadına istinad edilir. Belə ki, Əbu Yusifə görə ribəvi (faizli) malların “keylilik” yaxud “vəznilik” vəsflərini müəyyənləşdirən nəss, o dönəmin adətinə əsasən təyin etmişdir. Odur ki, insanlar bu tətbiqatı dəyişdirə bilər və o zaman

üçün keyli olan malları ağırlıq ölçüləri ilə çəkməyə başlasalar, belə olan halda bu mallar vəzniyyatdan hesab olunur. Beləliklə hökm də də ona əsasən müəyyən dəyişikliklər meydana gələr. Yəni sonradan meydana gələn bu adət Hz. Peyğəmbər (s.ə.) dönəmində mövcud olsaydı, nəslərdə varid olanlar, buna müvafiq olaraq gələcəkdi.

Görüldüyü kimi bu anlayış, nəslərə əsaslanan hökmlər qarşısında belə elastiklik gətirir. Bu da təbii olaraq, hansı növ nəslərin o dövrün adətinə əsasən qoyulduğu kimi çətin bir problemi də ortaya çıxarır. Adətin dəyişməsi ilə adətə bağlı ehkamın dəyişə biləcəyində isə hər hansı şübhə yoxdur. Qarafidən (vəfatı-664/1265) etibarən sözügedən mövzuya diqqət çəkilmiş və son dövr İslam hüquqşünaslarının, imamlardan rəvayət olunan hökmlərə, adətə əsasən olub-olmadığına baxmadan bağlanıb qalmaları mövzusunda, əgər adətə əsaslı isə və adət də dəyişmişsə yeni adətə görə hökm vermələri istənmişdir. İmamların adətə əsasən verdikləri fitvalara bir neçə örnək vermək mümkündür:

Hənəfi məzhəbinin ilk dövr (mütəqəddimun) imamları, Quran öyrətmək müqabilində pul almağın caiz olmadığı mövzusunda həmfikirdir. Çünki Quran öyrətmək, bir ibadətdir. Belə ki, digər ibadətlərdə olduği kimi bunda da pul götürülə bilməz. Bu hökm, o imamların dövrünə müvafiq idi. Çünki həmin dövrdə, Quran tədrisi ilə məğul olanlara beytulmaldan (dövlət büdcəsindən) müəyyən məbləğ ayrılırdı. Ancaq zaman keçdikcə şərait dəyişdi, artıq beytulmaldan ayrılan maaş kəsildi. Belə olan halda sözügedən şəxslər, əgər vaxtlarını Quran öyrətməyə sərf etsələr ac qalacaqlar, başqa işlə də məşğul olmağa yönəlsələr Quran tədrisinə zərər gələcəkdi. Bu şərait içində Quran tədrisi müqabilində pul alınmasının caiz olmama hökmü, bu iki mənfi nəticədən birinə aparıb-çıxarırdı. Məhz bu səbəblə sonrakı alimlər, yaşadıqları zəmanə ilə əvvəlki imamların dövründəki şərait arasındakı dəyişikliyi nəzərə alaraq, həm Quran tədrisi, həm də imamlıq və müəzzinlik kimi digər ibadətlər müqabilində pul alına biləcəyinə fitva verdilər.

Hənəfi imamların verdiyi digər bir fitvaya görə, evin xarici görünüşü və bəzi otaqlarının görülməsi ilə, “görmə müxəyyərliyi” öz əhəmiyyətini itirir. Çünki həmin dövrlərdə otaqlar eyni tərzdə tikilirdi. Ancaq daha sonra evin otaqlarının tikilişindəki adət dəyişdikdə, sonrakı hənəfi imamları, evin bütün

otaqları görülmədikcə, “görmə müxəyyərliyi” hüququnun öz əhəmiyyətini qoruduğu fitvasını vermişdirlər.

Odur ki, adət, həm qanunvericilik, həm də fitva baxımından İslam hüququnun mühüm mənbələrindən birini təşkil edir. Həm İslam hüququnun klassik ədəbiyyatı, həm də İslam hüquqşünasları tərəfindən adətə bu dərəcə əhəmiyyət verilməsi, İslam hüququnun dinamizmini, onun hər yerin və zamanın ehtiyaclarını qarşılamağa əlverişli zəngin bir hüquq sistemi olduğunu göstərir.

## IV. ŞƏRU MƏN QƏBLƏNA

Bu başlıq altında sözügedən dəlilin tərifi və növləri haqqında məlumat veriləcəkdir.

### A. Tərifi

Şəru mən qəblənə, Uca Allahın Hz. Peyğəmbərdən əvvəlki qövmlər üçün qoyduğu və peyğəmbərləri vasitəsilə onlara bildirdiyi hökmlərdir.

### B. Növləri

Ümumiyyətlə əvvəlki ümmətə aid hökmlər iki qisimdir:

**1. Qurani-kərimdə və ya Hz. Peyğəmbərin sünnəsində mövcud olmayan hökmlər:** Sözügedən hökmlərin müsəlmanlara heç bir aidiyyəti olmamasını alimlər yekdilliklə qəbul etmişdirlər.

**2. Qurani-kərimdə və ya Hz. Peyğəmbərin sünnəsində mövcud olan hökmlər:** Bu hökmlər də öz növbəsində üç qismə bölünür:

**a. Nəsx edilənlər:** Müsəlmanlar nöqteyi-nəzərindən mənsux olduğuna dair dəlil olan hökmlərdir. Bu kimi hökmlərin də müsəlmanlara aid olmadığında alimlər həmrəydir. Məsələn, *“(Ya Rəsulum!) De: “Mənə gələn vəhylər içərisində murdar olduqları üçün ölü heyvan, axar qan, donuz əti və ya Allahdan başqasının adı ilə (bismillah deyilmədən) günah olaraq*

*kəsilmiş heyvanlar istisna olmaqla, hər hansı bir kəsin yediyi yeməklər içərisində haram buyurulan bir şey görmürəm. Bununla yanaşı, hər kəs məcburiyyət qarşısında qalsa, həddi aşmadan, zəruri ehtiyacını ödəyəcək qədər (bunlardan yesə, Allah ona cəza verməz)". Çünki sənin Rəbbin, həqiqətən, bağışlayandır, rəhm edəndir!"* [60] ayəsi yəhudilər üçün haram qılınan heyvanların müsəlmanlara halal qılındığına dəlalət edir. Eyni zamanda *"Mənə qənimətlər halal qılındı. Məndən əvvəlki ümmətlərdən heçbirinə halal qılınmamışdı"* [61] hədisi də əvvəlki ümmətlərə halal olmayan qənimətlərin müsəlmanlara halal olduğunu göstərir.

**b. Nəsx edilməyənlər:** Müsəlmanlar üçün də mötəbər sayılan və əməl olunması vacib olan hökmlərdir. Məsələn, *"Ey iman gətirənlər! Oruc tutmaq sizdən əvvəlki ümmətlərə vacib edildiyi kimi, sizə də vacib edildi ki, (bunun vasitəsilə) siz pis əməllərdən çəkinəsiniz!"* [62] ayəsi və *"Qurban kəsin, əsasən qurban atanız İbrahim (ə.s) sünnəsidir"* [63] hədisi misal verilə bilər.

**c. Nəsx edilib-edilmədiyi bilinməyən hökmlər:** Bəzi hökmlər də vardır ki, Quran və ya sünnədə qeyd olunmasına baxmayaraq müsəlmanlar üçün mənsux və ya mötəbər olduğuna dair hər hansı bir dəlili yoxdur. Bu kimi hökmlərə əməl olunub-olunmaması alimlər arasında mübahisə mövzusu olmuşdur. Ancaq əsasən əməl edilir fikri mənimsənmişdir. Məsələn, *"Biz (Tövratda İsrail oğullarına) yazıb hökm etdik ki, canın qisası can, gözün qisası göz, burununku burun, qulağınkı qulaq, dişinki diş və yaralarınkı yaralardır. Lakin hər kəs (qisası) bağışlasa, bu onun üçün bir kəffarədir (Allah onun günahlarının üstünü örtüb bağışlar. Və ya zərərdidə qisası bağışlasa, bu, cani üçün bir kəffarədir. Haqq sahibi haqqından vaz keçib onu tələb etməsə, Allah da cinayətkarı cəzalandırmaz). Allahın nazil etdiyi (kitab və şəriət) ilə hökm etməyənlər, əlbəttə, zalimdirlər!"*[64] Bu ayə, Tövratda İsrailoğulları üçün qoyulmuş hökmdən xəbər verir.

Onu da qeyd etmək lazımdır ki, əslində sözügedən dəlil müstəqil bir dəlil yox, Kitab və Sünnənin əhatəsinə daxildir. Çünki bu hökmlər ya Qurani-

60. Ənam, 6/145, 146.
61. İbn Hənbəl, II, 252, 412
62. Bəqərə, 2/183.
63. İbn Macə, Əzahi, 3.
64. Maidə, 5/45.

kərimdə və ya Sünnədə mənsux olduğu bildirilmədən qeyd olunmuşdur. Odur ki, bu kimi hökmlərə əməl olunması məqsədə uyğundur.

## V. SƏHABƏ QÖVLÜ

Bu başlıq altında səhabə qövlünün tərifi və hökmü izah olunacaqdır.

### A. Tərifi

Səhabə, Hz. Peyğəmbəri görmüş, ona iman gətirmiş və adətə görə "dost" deyilə biləcək qədər uzun müddət onunla birgə olan kəsə deyilir.

### B. Hökmü

Səhabə qövlü rəy və ictihadla dərk edilməyən bir mövzuda olarsa, bunun dəlil olduğunu və ona əməl etməyin vacibliyini bütün alimlər ixtilafsız qəbul etmişdirlər. Çünki səhabənin sözügedən mövzudakı rəyi böyük ehtimal Hz. Peyğəmbərə aiddir. Məsələn, Hz. Əli altı rükət və hər rükətdə altı səcdəli bir namaz qılmışdır. Namaz təəbbüdi olduğu üçün həmin namazı böyük ehtimal peyğəmbərimizdən öyrənmişdir.

Ancaq digər mövzularda alimlərin əksəriyyətinə görə, səhabə ictihadlarına əməl etmək vacib deyildir. Müctəhid özü araşdırar ya səhabə ilə eyni fikrə gələr və ya başqa bir qənaətə gələr. Çünki onlara görə səhabə də digər müctəhidlər kimi bir müctəhiddir. Belə olan halda səhabənin də ictihadında xəta etməsi mümkündür. Məhz bu səbəblə səhabə qövlüdigər müctəhidlər üçün şəri dəlil sayılmaz.

Bunun tam əksini iddia edən alimlərə görə isə, hərçənd ki, səhabənin xəta etmə ehtimalı var, onların əksər fikirləri doğrudur. Çünki onlar Hz. Peyğəmbərin məktəbindən keçmiş və orada yetişmişdirlər. Ərəb dilini mükəmməl bilir, Quran ayələrinin nazil olma və hədislərin varid olma səbəblərinə yaxşı bələddirlər. Habelə Hz. Peyğəmbərin davranışlarına şəxsən şahid olmuş, onun söylədiklərini dinləmiş və şəri hökmlərin məqsədlərini qavramışdırlar. Bu xüsusiyyətlər daha sonra gələn müc-

təhidlərin heç birində mövcud deyildir. Odur ki, səhabənin fikirləri digər müctəhidlərin fikirlərindən daha üstündür və digər müctəhidlər üçün mənbə təşkil edər.

## VI. SƏDDİ-ZƏRAİ

Bu başlıq altında sözügedən dəlilin tərifi və növləri haqqında məlumat veriləcəkdir.

### A. Tərifi

Səddi-zərai, məfsədətə (fəsada) aparan yolların və ya hər cür vasitənin qadağan olunması deməkdir. Bunun əksinə yaxşılığa aparan yolların qabağının açılmasına isə fəthi-zərai deyilir. Bu prinsipə əsasən harama vasitə olan hər şey haram, vacibə vasitə olan hər şey vacib, mübaha vasitə olan hər şey mübahdır.

### B. Növləri

1. **Mahiyyəti baxımından:** Məsələn, cana qıyılan və insalar arasında ədavətə səbəb olan haqsız yerə adam öldürmə, namusun kirlənməsinə və nəsillərin qarışmasına səbəb olan zina, əqli müvazinətin pozulmasına səbəb olan spirtli içkilər bu kateqoriyaya daxildir.

2. **Caiz əməllər:** Fəsada səbəb olması baxımından caiz olan əməllər də öz növbəsində üç qismə bölünür:

*a) Nadir:* Nadirən fəsada aparan (pisliyə səbəb olan) caiz əməllər və ya işlər. Bu kimi əməllərə qadağa qoyulmamasında alimlər həmfikirdir. Çünki bunların təmin etdiyi faydalar səbəb ola biləcəyi ziyandan daha çoxdur. Məsələn, təyyarədən istifadə, üzümün əkilib-becərilməsi və s.

*b) Əksər:* Əksər hallarda fəsada səbəb olan caiz əməllər və işlər. Məsələn, şərab istehsalatçısına üzüm satmaq, daşınmaz əmlakı qumar üçün icarəyə vermək və s. Bu kimi əməllərin qadağan olunmasının vacibliyi barəsində İslam hüquqşünasları ixtilaf etməmişdirlər. Ancaq

malikilər və hənbəlilər kimi bir qrup alimlər bu qadağanı səddi-zərai dəlilinə əsaslandırarkən, hənəfilər, şafilər və zahirilər kimi digər alimlər bunu *"Yaxşılıq etməkdə və pis əməllərdən çəkinməkdə əlbir olun, günah iş görməkdə və düşmənçilik etməkdə bir-birinizə kömək göstərməyin. Allahdan qorxun. Həqiqətən, Allahın əzabı şiddətlidir!"* [65] ayəsində qeyd edilən prinsipə əsasladırmışdırlar.

*c) Məqsədin xaricində:* Əsas məqsədinin xaricində bir nəticə əldə etmək üçün vasitə edilən caiz əməl və işlər. Məsələn, ölüm xəstəliyi əsnasında ərin arvadını bain talaqla boşaması buna daxildir. Belə ki, əsas olaraq boşama caiz olmasına baxmayaraq, bu vəziyyətdə, talaq hökmünün əsas məqsəddən başqa bir nəticə, yəni qadını mirasdan məhrum etməyə vasitə edilə biləcəyi ehtimalı ortaya çıxır. Odur ki, hənəfilərə görə bu talaq, qadını mirasdan məhrum etməz.

### C. Səddi-zərainin dəlil olması haqqında:

Bu prinsipdən çox istifadə edənlərr malikilər və hənbəlilər, onun çərçivəsini daraltaraq mənimsəyənlər şafilər və tətbiqatda ona ən geniş yer verənlər hənəfilər olmuşdurlar.

Qurani-kərimdə səddi-zərainin qanunvericilikdə əsas prinsiplərdən biri olduğunu göstərən dəlillər mövcuddur. Məsələn, *"Allahdan başqalarına tapınanları söyməyin. Yoxsa onlar da (Allaha qarşı hörmət və ehtiram) bilmədikləri üzündən Allahı düşməncəsinə söyərlər."* [66] *"Gizlətdikləri bəzək şeylərini (xalxallarını) göstərmək üçün ayaqlarını (yerə və ya bir-birinə) vurmasınlar."* [67] Bu kimi ayələri misal vermək mümkündür.

## VII. İSTESHAB

Bu başlıq altında isteshab dəlilinin tərifi, növləri və bu prinsipə əsasən ortaya qoyulan fiqhi prinsiplər haqqında məlumat veriləcəkdir.

65. Maidə, 5/2.
66. Ənam, 6/108.
67. Nur, 24/31.

## A. Tərifi

İsteshab, keçmişdə sabit olan bir şeyin, dəyişdiyinə dair bir dəlil olana qədər hal-hazırda da mövcud olduğuna hökm verməkdir.

## B. Növləri

**1. İbahəyi-əsliyyə isteshabı**. Buna استصحاب الاباحة الأصلية في الأشياء deyilir. Əksinə bir dəlil olana qədər bir əşyadan istifadə etmə və ya bir davranışı etməyin mübah olduğuna hökm vermə isteshabıdır.

Müctəhidlərin əksəriyyəti, haqqında müəyyən bir şəri hökm olmayan və insana faydalı olan şeylərdə və işlərdə təməl hökmün mübahlıq olduğunu qəbul edirlər. Çünki bu mövzuda bir çox dəlil vardır. Məsələn, *“Yer üzündə nə varsa, hamısını sizin üçün yaradan, sonra səmaya üz tutaraq onu yeddi qat göy halında düzəldib nizama salan Odur (Allahdır)! O, hər şeyi biləndir!”* [68] *“Göylərdə və yerdə nə varsa, hamısını öz tərəfindən sizin ixtiyarınıza qoyan da Odur. Həqiqətən, bunda düşünən bir qövm üçün ibrətlər vardır!”* [69] Bu kimi ayələrdə yer üzündəki və göylərdəki hər şeyin insanlar üçün yaradılıb, onların əmrinə verildiyini bildirir.

Odur ki, müctəhid, bir məsələ ilə qarşılaşdıqda, bu məsələnin hökmünü nəqli dəlillərdən və ya qiyas metoduna yaxud məsləhət prinsipinə görə araşdırar. Bu dəlillərdə hər hansı bir hökm tapa bilməzsə, sözügedən prinsipə görə mübahlıq hökmünü verər.

**2. Bəraəti-əsliyyə isteshabı**. Buna استصحاب البراءة الأصلية deyilir. Bu, Ortada bir dəlil olana qədər heç kəsin məsuliyyətə cəlb edilməməsi isteshabıdır. Məsələn, bir şəxs başqa bir şəxsin ona borclu olduğu haqda iddia qaldırarsa, iddia qaldıran şəxs bunu sübuta yetirməlidir, çünki əsas qayda hər bir insanın əleyhinə dəlil olmadıqca borcsuz olmasıdır.

**3. Vəsf isteshabı.** Buna استصحاب ما دل الشرع على ثبوته لوجود سببه حتى يقوم الدليل على زواله deyilir. Bu, Səbəbi ortadan qalxmadığı müddətcə, şəriətə görə varlığı qəbul edilən hökmün sabit sayılması isteshabıdır. Məsələn, nikah əqdi ilə bağlanmış bir evlilik münasibətinin üstündən nə qədər vaxt keçərsə

68. Bəqərə, 2/29

69. Casiyə, 45/13

keçsin, nikahın pozulduğuna dair bir səbəbin meydana gəldiyinə dair dəlil olmadıqca bu nikahın davam etdiyi qəbul olunur.

### C. İsteshab əsasına görə qoyulan fiqhi prinsiplər

الأصل بقاء ما كان على ما كان حتى يثبت ما يغيره : Hər hansı bir dəyişiklik meydana gəldiyinə dair dəlil olana qədər, mövcud olanı olduğu kimi qəbul etmək əsasdır. Məsələn, möfqudun (itkin) hüquqları öldüyünə dair bir dəlil olmadıqca qorunur. Belə ki, mirası varislər arasında paylaşdırılmaz, arvadı başqası ilə evlənə bilməz və s. Ancaq sözügedən şəxs yeni haqlar əldə edə bilməz.

الأصل في الأشياء الاباحة : Əşyanın əsas xüsusiyyəti onun mübah olmasıdır. Bu qaydaya görə, hökmünə dair müəyyən dəlil olmayan hər şey mübahdır.

اليقين لا يزول باالشك : Yəqin ilə bilinən bir şey şübhə ilə zail olmaz. Məsələn, dəstəmaz aldığını dəqiq bilən kəs, dəstəmazının pozulduğunda şübhə edərsə, dəstəmaz aldığını dəqiq bildiyi üçün burada şübhəyə etibar edilməz və dəstəmazlı olduğuna qərar verilər.

# II FƏSİL
# HÖKMLƏR (EHKAM)

## I. HÖKM

### A. Tərifi

Hökm lüğətdə mane olmaq, bir şeyə istinad etmək mənalarına gəlir. Hökm, fəlsəfə və məntiq elmlərində iki fikir, iki şey arasında "bu belədir və belə deyildir" kimi müsbət və mənfi yöndə qərar verməkdir.

Şəri hökmün mənbəyi Uca Allahdır. Yəni, bir şeyin hökmünü təyin edən Allahdır. Bu hökmləri isə mükəlləfin fellərində özünü göstərir. Yəni Allah, hökmünü mükəlləfin felləri üzərində icra edər. Mükəlləfin gördüyü işin və ya felin vəsfi Allah tərəfindən müəyyənləşdirilir.

Hökmün termin mənasına gəlincə, üsulşünaslar ilə fəqehlər hökmə fərqli şəkillərdə tərif vermişdirlər. Bu fərqlilik üsulşünasların hökmün tərifini verərkən Allahın xitabını əsas ölçü olaraq almalarından, fəqehlərin isə bu xitabın mükəlləf üzərindəki nəticəsini əsas qəbul etmələrindən irəli gəlir.

Üsulşünaslara görə hökm: Şarinin (Qanunverən) tələb, ixtiyar vermə, qanun vermə baxımından mükəlləfin felləri ilə əlaqəli xitabıdır. Məsələn, *"əqdləri yerinə yetirin"*[70] ayəsi şəri bir hökmdür. Bu ayə Allahın müəkəlləflərdən əqdləri yerinə yetirmələrini istədiyi bir xitabdır. Bu xitab əqdlərin yerinə yetirilməsini vacib edir.

### B. Növləri

Hökm iki qismə ayrılır:

**1. Təklifi hökmlər**

a) Təklifi hökmün tərifi və mahiyyəti

---

70. Maidə, 5/1.

Təklifi hökm mükəlləfin işlərinə dair irəli sürülən xitabın nəticəsidir. Bu hökmlər bir işin görülüb-görülməməsini tələb edər və ya iki şey arasında edib-etməməkdə ixtiyar haqqı verər. Bu növ hökmlərə təklifi hökmlər deyilməsinin səbəbi insana bəzi mükəlləfiyyətlərin yüklənməsindən irəli gəlir.

b) Təklifi hökmün növləri

*1) Mükəlləfin fellərinin nəticəsi olan hökmlər*

Mükəlləf dünyaya dair hər hansı bir iş görər və bu işin bir nəticəsi olar. Məsələn, bir şəxs hər hansı bir mal alarsa həmin şey o şəxsin mülkiyyətinə keçər. Həmin şeyin alan şəxsin mülkiyyətinə keçməsi alma işinin bir nəticəsidir. Çünki alış-veriş əqdi mükəlləfin bir felidir. Bu felin nəticəsində satan pula, alan isə satılan şeyə malik olur.

*2) Mükəlləfin fellərinin vəsfi olan hökmlər*

Bir mükəlləf namaz qılar, oruc tutar, alver edər, zəkat verər və buna bənzəyən bir çox işlər görər. Bu işlərin hər birinin bir xüsusiyyəti və ya vəsfi vardır. Məsələn: namaz bir feldir. Bu felin vəsfi onun fərziyyətidir, yəni fərz oluşudur. Alış-veriş bir işdir. Bunun vəsfi isə səhhət, butlan, fəsad və s. xüsusiyyətlərdir.

**a) Vacib**

Vacib Şarinin mükəlləfdən edilməsini qəti və bağlayıcı bir tərzdə istədiyi bir işdir. İslam alimlərin əksəriyyətinə görə vaciblə fərz eyni mənadadır. Belə ki, onlara görə fərz mənasında olan vacib qanunvericinin bir işin görülməsini qəti bir şəkildə tələb etdiyi işdir ki, bunu tərk edən günahkar olar.

Hökmü: Yerinə yetirilməsi mütləq olaraq lazımdır. Bu işi görən mədh edilir. Tərk edən isə ağır cəzaya və tənbehə məruz qalır. Qəti dəlil ilə sabit olan vacib, bir şeyi inkar edən kafir olar.

1. Hənəfilərə görə vacib və fərz

*Vacib*: Şarinin mükəlləfdən o işi etməsini bağlayıcı bir tərzdə istədiyi və ancaq haqqındaki bu bağlayıcılığın sübutu zənni dəlil ilə sabit olan feldir. İcra edilməsi qəti olaraq lazımdır. Tərk edən fərzi tərk edəndən daha

az cəzaya məruz qalar. Vacibi inkar edənin küfrünə, yəni kafir olduğuna hökm verilməz.

*Fərz*: Şarinin mükəlləfdən bağlayıcı tərzdə edilməsini istədiyi fel haqqındakı dəlil qəti isə buna fərz deyilir. Yerinə yetirilməsi mütləq lazımdır. Tərk edən ağır cəza alar. İnkar edən isə kafir olar.

2. Vacibin fərzdən ayrılmasının nəticəsi

Bunların bir-birindən ayrılması üsul baxımından doğru deyildir. Çünki biz bir şeyin edilməsini həm istəyərik, həm də istəməyə bilərik. Üsul alimlərinin məqsədi bunu müəyyənləşdirməkdir. Əgər biz bunu dəlil qəbul etsək artıq əlavə olaraq "zənni" və "qəti" ayrımına ehtiyac qalmaz.

Bu təsnifdə əsas məqsəd Şarinin istədiyinin qətiliyi deyil, dəlilin qətiliyi və ya zənni olmasıdır. Hənəfilər bunu təsnif edərkən məsələni etiqadi baxımdan da incələmişdirlər. Bu təsnifin hüquqi nəticələri vardır. Yəni bu tətbiqatda məqsədəuyğun nəticələr əldə edilmişdir. Füru baxımından da bu təsnif məqsədəuyğundur. Müamilata təsiri ilə bərabər məsələn, ibadətlərdən olan namazda bir fərzin tərk edilməsi namazın tamamına mane olduğu halda vacibin tərki isə səhv səcdəsi ilə bu əksiklik ortadan qaldırıla bilər.

3. Bir şeyin vacib olduğunu göstərən kəlmə, cümlə və ifadələr:

a) Vaciblik hökmü əmr formasından çıxarılır. Çünki, əmr çox vaxt vücub ifadə edir. Məs: "namazı doğru qılınız" ayəsindən namazın fərz olduğu hökmü çıxarılır.

b) Vücub hökmü, "fərz oldu", "vacib oldu", "əmr olundu", "əmr edir", "yazıldı" və bənzəri mənalar ifadə edən cümlələrdən çıxarlır. Məsələn, *"Oruc sizdən əvvəlkilərə yazıldığı (fərz edildiyi) kimi sizə də yazıldı"* ayəsindən orucun fərz olduğu hökmü çıxarılır. *"Şübhəsiz Allah, ədaləti, yaxşılığı, qohum-əqrabaya möhtac olduqları şeyləri verməyi əmr edir"* ayəsindən ədalətli hökm vermənin, yaxşılıq etmənin, möhtac qohum-əqrabaya köməklik göstərmənin fərz olduğu başa düşülür. Bəzən vəsiyyət kəlməsi də vaciblik ifadə edər. Belə ki,*"Allah övladlarınız haqqında oğlana qızın payının iki qatını verilməsini vəsiyyət edir"* [71] ayəsindəki "vəsiyyət edir" feli "əmr edir" mənasında işlədilmişdir.

71. Nisa, 4/11

c) Bir şey haqqında sadəcə xəbər vermək mahiyyətində deyil, əmr mənasında işlədilən ifadələr. Məsələn, *“sizdən ölənlərin zövcələri, dörd ay on gün gözləyərlər”* ayəsində “gözləyərlər” feli “gözləsinlər” mənasında işlədilmişdir. Bir başqa bir ayədə *“Analar öz övladlarını tam iki il əmizdirərlər”* buyrularaq “əmizdirərlər” ifadəsindən “əmizdirsinlər” hökmü çıxarılır.

d) Bir işin bütün insanlara və ya bəzi cəmiyyətlərə verildiyini xəbər verən nəslər də vücub ifadə edər. Məsələn, *“gücü çatanların Beyti (kəbə) həcc etmələri, Allahın insanlar üzərində bir haqqıdır”* ayəsindən həccin zənginlərə fərz buyrulduğu hökmü çıxarılır.

e) Bir işi görənə gözəl bir qarşılıq və savab veriləcəyini ifadə edən nəslər də vaciblik ifadə edər. Məsələn, *“kim Allaha və peyğəmbərinə itaət edərsə Allah onu cənnətlərə qoyar” “Allah və peyğəmbərinə itaət edənlər ki, var onlar həqiqi doğru olanlardır”* ayələri Allah və peyğəmbərə itaət etmənin vacib olduğunu göstərir.

4. Vacibin ifası

Vacib iki şəkildə ifa edilir: Əda və qəza

a) Əda

Vacib olan şeyi eynilə yerinə yetirməyə əda deyilir. Bu da üç növdür:

*Tam əda*: Bu, vacib olan şeyin özünü bütün şərt və vəsfləri ilə birlikdə yerinə yetirməklə meydana gələn ədadır. Fərz olan namazı, vaxtında bütün rükn və ədəbləri ilə camaatla birlikdə qılmaq kimi. Qəsb edilən malı olduğu kimi mal sahibinə qaytarmaq da bu növ əda hesab edilir.

*Əksik əda*: Bu, vacib olan bir şeyi vəsflərindən bəzilərinin əksik olması ilə yerinə yetirməkdir. Fərz olan bir namazı camaatsız qılmaq, qəsb edilən malı qüsurlu olaraq sahibinə qaytarmaq, satılımış malı müştəriyə qüsurlu olaraq vermək kimi.

*Qəzaya bənzəyən əda*: Bəzi “qəza” növləri kimi qəbul edilən bir əda formasıdır. Bir şəxsin başqa bir şəxsə aid malı mehr kimi göstərərək bir qadınla nikahlandığını və o malı sonradan alaraq nikahladığı qadına verdiyini düşünək. Bu, mehr kimi göstərilən malın, mehr kimi eyni ilə verilməsi baxımdan əda olunmuş sayılır. Ancaq satış səbəbilə malın mülkiyyəti satıcıdan müştəriyə keçib. Malın dəyişməsi, mülkiyyətin

dəyişməsi kimi qəbul edilir. Bu baxımdan sanki qadına o malın eynisi deyil, misli vermiş olur. Məhz bu cəhəti ilə bu əda qəzaya oxşayır.

b) Qəza

Qəza, vacib olan şeyi zamanında deyil, daha sonra yerinə yetirməkdir. Hər hansı namazı vaxtı keçdikdən sonra qılmaq, tutulmayan orucun Ramazan xaricində hər hansı bir vaxtda tutulması kimi.

5. Vacibin qisimləri

a) Əda ediləcəyi vaxt baxımından:

*1) Mütləq vacib*: Şarinin əda edilməsi üçün müəyyən vaxt təyin etmədiyi vacibdir. Kəffarələr kimi. Mükəlləf bunu istədiyi zaman yerinə yetirə bilər.

*2) Müqəyyəd vacib*: Şarinin əda edilməsi üçün müəyyən vaxt təyin etdiyi vacibdir. Bunun üçün bir başlanğıc və bitiş vaxtı vardır. Mükəlləf bunu təyin edilmiş vaxt içində tam olaraq ifa edərsə *“əda”* adı verilir. Mükəlləf vaxt içində əksik olaraq ifa edib vaxt çıxmadan təkrar ifa edərsə *“iade”* deyilir. Mükəlləf vacibi vaxtı çıxdıqdan sonra ifa edərsə buna *“qəza”* deyilir.

Müqəyyəd vacib də üç növdür.

*a) Müvəssə vacib*: Vacibin əda olunması üçün təyin olunan vaxt həm o vacibə və həm də o vacib cinsindən başqa bir ibadətə imkan verən genişlikdə olmasıdır. Beş vaxt namaz vaxtları kimi.

*b) Müdəyyəq vacib*: Vacibin əda edilməsi üçün təyin olunan vaxt, o vacib cinsindən başqa bir ibadətin ifasına imkan vermirsə buna müdayyəq vacib deyilir. Məs: Ramazan orucu...

*c) Züş-şəbəheyn vacib:* Bu vacib həm dar zamanlı vacibə həm də geniş zamanlıya bənzəyir. Həcc ibadəti buna misal verilə bilər. Müəyyən aylarda olması cəhəti ilə müdayyəq ama hər hansı bir il içində əda edilə biləcəyi cəhəti ilə də müvəssədir.

Müvəssə vacibin ədası ancaq ona məxsus olaraq niyət edilməsilə mümkün olar. Çünki həm bu vacibin həm də başqa ibadətin ifasına uyğun bir zaman mövcuddur.

Müdəyyəq vacibin ədası mütləq niyət ilə və ya eyni cinsdən başqa bir ibadətə niyət edərək mümkün olar. Züş-şəbəheyndə mütləq niyət kifayət edər.

Bu təsnifat mükəlləfə zamandan istifadə etməyi öyrətmə xüsusiyyətini daşıyır. Müdəyyəq vacib bir işi müəyyən bir müddət ərzində ifa etməyi, mütləq vacib isə bir işi ömür boyunca etməyi öyrədir.

2) Miqdarının müəyyən olub-olmaması baxımından vacib

*a) Muhaddəd vacib:* Şarinin haqqında müəyyən bir miqdar təyin etdiyi vacibdir. Beş vaxt namaz, otuz gün Ramazan orucu kimi. Vücub səbəbinin olması ilə mükəlləfin boynunda borc olaraq qalar. Şarinin təyin etdiyi miqdar ödənmədən borc mükəlləfin boynundan düşməz.

*b) Qeyri-mühəddəd vacib:* Şarinin miqdarını təyin etmədiyi vacibdir. Allah yolunda malından xərcləmək (infaq), möhtacların ehtiyaclarını təmin etmək, sədəqə vermək kimi. Bu vacib məhkəmə qərarı və ya borcunun razılığı olmadan mükəlləfin boynunda borc olaraq qalmaz. Ancaq bunun yerine yetirliməsi lazımdır.

Bu təsnif sadəcə vəzifədən irəli gələn işləri icra etmə düşüncəsini əngəlləmək üçün edilmişdir. Həkimin xəstə müayinə etməsi lazımdır. Ancaq bütün xəstələri müayinə etməsi deyil. Qeyri-muhəddəd vacib, şəxsin imkanına və eyni zamanda mühit şərtlərinə görə dəyişər.

3) İfa etməsi tələb edilən şəxs baxımından vacib

*a) Ayni vacib:* Şarinin mükəlləflərin hər biri tərəfindən yerinə yetirilməsini istədiyi vacibdir. Namaz, oruc kimi.Hər bir mükəlləf bu vacibi əda etməlidir. Bəzilərinin bu vacibi yerinə yetitməsilə digərlərinin boynundan bu borcun düşməsinə səbəb olmaz.

*b) Kifai vacib:* Şarinin ifasını mükəlləflərin hər birindən deyil, hamısından ümumi olaraq tələb etdiyi vacibdir. Burada əsas olan vacib olan o işin yerinə yetirilməsidir. Mükəlləflərin bir qisminin bunu yerinə yetirməsi digərlərinin üzərindən bu vacibi düşürər. Ama bu vacibi heç bir mükəlləf yerinə yetirməzsə hər mükəlləf bu vacibdən məsul olar.

Bu təsnif İslam əqidəsinə istinad edir. Başqalarına həvalə etməklə ifa olunmayan vaciblər vardır. Namaz, oruc kimi. Bu ibadətlərin məqsədi hər

dəfə yenilənir və mükəlləfi doğru istiqamətdə tutar. Ayni vacib bir başa hər bir mükəlləfə aid, kifayədə isə o felin, işin görülməsi əsas etibarilə nəzərdə tutulur. Kifai vacibin əsas məqsədi bir növ planlı surətdə irəliləmək və inkişaf etməkdir. Çünki bir çox insan bununla məşğul olsa boş yerə əmək sərf edilimiş olar. Bu səbəbdən kifai fərzlə müəyyən sayda insanlar o işə istiqamətləndirilər və bu da cəmiyyət üçün kifayət edəcək. Vəqf təşkilatları bu növdəndir.

4) Tələb edilən işin müəyyən olub olmaması baxımından vacib.

*a) Müəyyən vacib:* Şarinin müxtəlif işlər arasında seçmə haqqı tanımadan görüləcək işi açıq şəkildə təyin edərək tələb etdiyi feldir. Namaz kimi. Bu ibadət növünün yerinə başqa ibadətlər edərək namazın yerinə saymaq olmaz. Vacib olan felin özü ifa edilmədikcə mükəlləf məsuliyyət daşıyar.

*b) Müxəyyər vacib:* Şarinin özü bir işi təyin etmədən mükəlləf bir neçə işdən birini yerinə gətirmədə sərbəst buraxdığı vacibdir. Məsələn, and içmə kəffarəi bir neçə şəkildə ifa edilə bilər. Oruc tutmaq, möhtacı doyurmaq kimi.

Mükəlləf, Şari tərəfindən ixtiyarına verilən fellərdən sadəcə birini yerinə gətirməlidir. Heç birini etməzsə günahkar olar.

Bu təsnif mükəlləfə bir asanlıq tanımışdır. Allah Təala insan xarakterindəki fərqlilikləri də nəzərə alaraq mükəlləfə müxtəlif alternativlər təqdim etmişdir. Ancaq bəzi fellərin bir başa özünün həyata keçirilməsi mükəlləf üçün faydalıdır. Onun yerinə başqa bir iş görülərsə o zaman qoyulan məqsəd hasil olmaz, bu müəyyən vacibdir. Hansı ki, bu alternatiflərdən hər hansı birinin seçilməsi ilə məqsəd olaraq meydana gələn bir vacib də vardır ki, bu da müxəyyər vacibdir.

**b) Məndub**

1) Məndubun mahiyyəti

Şarinin, edilməsini bağlayıcı olmayan bir tərzdə tələb etdiyi və ya edilməməsini pisləmədiyi fellərdir. Fel ya qəti və bağlayıcı tərzdə tələb edilməmiş ya da bağlayıcı olmadığına dair dəlil vardır. Bunlar üç qisimdir:

1. Dini cəhətdən görülməsi çox fəzilətli olanlar.

a. Dini vəcibələri tamamlayıcı olanlar. Azan, camaat kimi,

b. Peyğəmbərimizin müntəzəm olaraq etdiyi sünnələr. Günorta namazının ilk sünnəsi, müsvaqdan istifadə etmək kimi,

2. İtaət və nafilə növündən olub, Peyğəmbərimizin bəzən işləyib, bəzən də işləmədiyi fellərdir. Bazarertəsi və cümə axşamı günləri tutulan oruc, ikindinin sünnəsi kimi,

3. Peyğəmbərimizin bir insan olaraq gördüyü işlər. Ağ paltar giyinməsi, yatması, yemək yeməsi kimi.

Hənəfilərin vacib dediyinə cümhur bəzən məndub demişdir. Ancaq bunun ümumi bir qaydası yoxdur.

2) Məndubun faydaları

Məndubun insan həyatındakı əhəmiyyət və önəmi vaciblərə öyrəşdirici xüsusiyyəti ilə izah edilə bilər. Məndub bir iş görən mədh edilər və ibadətlərə bu yolla həvəsi artırılar. Zəkatın əda edildiyi dövrlərdə sədəqələr zəkatı iki-üç misli keçmişdir.

Məndub sosial əhəmiyyətli xüsusiyyətlərə malikdir. İnsanların, cəmiyyətin bunu tərk etməsi bir çox zərərlər meydana gətirə bilər. Cəmiyyətin xüsusiyyətlərini meydana gətirən azan, camaat kimi məndublar tərk edilərsə bunlar o cəmiyyyətin fərdlərinə icra etdirilir. Çünki bunlar İslamın simvolları olaraq görülür.

Qeyri-mühəddəd vacibdə incə və dəqiq hesablamalar aparılmaya bilər. Bu vəziyyətdə zəkat və sədəqə çox-çox verilərək artıq hissəsi mənduba daxil olar. Halbu ki, digər hüquqlarda incə və dəqiq hesablamalar aparılır. Əlavə olaraq cüzi miqdarda da olsa verilməməyə çalışılır. İslamda isə nə qədər çox verilərsə o qədər də savab qazanılar inancı vardır.

3) Məndubluq ifadə edən kəlmə və ifadələr

Əmr forması ilə məcburiyyət deyil, məndubluğa dəlalət edən bir səbəbin olması o işi görmənin məndub olduğunu göstərər. Məsələn “Ey iman edənlər! Müəyyən edilmiş vaxta qədər bir-birinizdən borc aldığınız zaman onu yazın” ayəsindəki əmr forması ayənin davamındakı “əgər bir-birinizə etibar edərsənizsə həmin adam ( borclu) əmanətini tamamən ödəsin” ifadəsi borc alarkən və ya verərkən yazmanın məcburiyyət

olmadığını göstərir. Eyni zamanda başqa bir ayədəki “əgər onlarda (kölə və cariyələrdə) bir xeyir görsəniz onlarla anlaşma bağlayın” əmr forması “mülk sahibi, mülkü ilə istədiyi kimi müamilə göstərə bilər” qaydasına istinadən müqavilə bağlamanın vacib olduğuna dəlalət etməz.

“Məndub oldu” və “məndubdur” kimi ifadələr də bir işin məndub olduğunu göstərir.

**c) Sünnə**

Hənəfi hüquqşünaslarına görə, sünnə dində fərz və vacib olmadan görülməsi tələb edilən iş və əməldir. Buna məsnun və müəkkəd sünnə də deyilir. Qeyri-müəkkəd sünnəyə müstəhəb və ya məndub da deyilir. Üsul alimləri sünnəni sünnətul-hüda və sünnətul-zəvaid deyə iki yerə ayırırlar. Birincisi, ibadət növündəndir ki, mütəmadi olaraq görülən işlərdir. Bunu tərk edən tənbeh edilir. Camaatla namaz qılmaq, günorta və akşam namazlarının sünnəti kimi. Ikincisi isə normal olaraq görülən işlərdir ki, bunu tərk edən tənbehə məruz qalmaz. Yemək, içmək, yatmaq, geyinmək kimi.

**d) Müstəhəb**

Görülməsi yaxşı olmaqla bərabər tərk edilməsinə dair hər hansı bir gadağanın olmaması və dində daima edilməyən iş və əməllərdir. Buna məndub, ədəb, qeyri müəkkəd sünnə də deyilir. Məsələn, nafilə namaz qılmaq, sədəqə vermək, yaxşılıq etmək kimi. Bu işləri görən hər kəs savab qazanar. Tərk edən günahkar olmaz. Ancaq nafilə bir ibadətə başlamaq ilə o nafilənin tamamlanması lazımdır.

**e) Haram**

Haram Şarinin edilməməsini qəti və bağlayıcı bir üslubda tələb etdiyi feldir. İslam hüquqşünaslarının əksəriyyətinə görə istər qəti istərsə də zənni dəlillə olsun bir şeyin görülməməsi mükəlləfdən tələb edilirsə o şey haram olur. Hənəfilər isə bir şeyin haram olması üçün qəti bir dəlilə dayanmasını şərt qoşarlar. Haramlığı zənni bir dəlil ilə sabit olan şeyə təhrimən məkruh adını verirlər. Murdar əti yemək, içki içmək, zina etmək, adam öldürmək, zülm etmək və bunlara bənzəyən işləri görmək haramdır.

Bir şeyin haram qılınmasının əsası o şeyin açıq bir şəkildə zərərli olmasıdır. Allah nəyi haram edibsə mütləq onun zərərli bir tərəfi vardır.

Nəyi mübah edibsə onun faydalı bir cəhəti vardır. Haram ya özündəki hər hansı bir pis cəhətinə görə haramdır və ya başqa bir səbəblə haramdır.

1) Haram li zatihi

Şarinin müvəqqəti bir səbəbə dayanmadan başdan etibarən haramlığına hökm etdiyi feldir. Mükəlləf bu feli işlədiyində batil olar. Işlənmiş bu fel heç bir müsbət nəticə meydana gətirməz. Əldə edilməsi istənən mənfəət sahibinə verilməz. İçki içmək, zina etmək, adam öldürmək, və s. kimi.

2) Haram li qeyrihi

Halal davranışı əhatə edən şərtlər haram olarsa o zaman o şey də haram sayılır. Bu şərtlər zaman və məkan, şəkil, məqsəd, vasitə ola bilər. Haram liqeyrihi insanların müamilatda ən çox qarşılaşdığı vəziyyətdir. Bunların həlli liqeyrihi haramın hüdudlarını müəyyinləşdirməklə mümkündür. Bu haram əsli etibarilə mötəbər, xüsusiyyəti etibarilə isə qeyri mötəbərdir. Hənəfilərə görə bu cür müamilələr hüquqi nəticələr meydana gətirər. Məsələn, faizli satışlar haramdır. Çünki faiz özü haramdır. Başqasının çörəyini oğurlayarq yemək haramdır. Haramlık çörəyin özündən irəli gəlmir. Alış-veriş halaldır, ancaq cümə azanı oxunarkən bu işi görmək haramdır.

Haram li aynihi ilə haram li qeyrihi arasında iki fərq vardır.

a) Haram li aynihi sayılan şey əqdlərə dair olarsa bu batil olar. Məsələn, murdar əti, şərab və donuz ətini alıb-satmaq üçün bağlanan əqdlər batil hesab edilir.

b) Haram li qeyrihi sayılan şey əqdlərə dair olarsa bu batil olmaz. Məsələn, cümə namazı əsanasında bağlanan bir əqd səhih sayılır. Ancaq haram li qeyrihi sayılan bir şey işləndiyində insan günahkar olar.

2. Haram li aynihi zərurət olmadığı müddətcə mübah olmaz. Məsələn, içki içmək haramdır, ölüm təhlükəsi olmadıqca mübah olmaz. Haram liqeyrihi isə ehtiyac hiss edildiyində mübah olar. Məsələn, bir qadının övrət yerinə baxmaq haramdır, müalicə etmək üçün isə ehtiyac varsa caiz olar. Ancaq bəzi haramlar vardır ki, onlar heç vaxt mübah olmaz. Adam öldürmək, zina etmək kimi.

3) Haramlıq ifadə edən cümlə, kəlmə və ifadələr

a) Haramlıq hökmü nəhy formasından başa düşülür. Çünki, nəhy forması ümumiyyətlə haramlıq ifadə edər. Məsələn, "Özünüzü təhlükəyə atmayınız" ayəsindən insanın özünü təhlükəyə atmasının haram olduğu hökmü çıxarılır. "Zinaya yaxınlaşmayınız" ayəsindən zinaya yaxınlaşmanın haram olduğu hökmü çıxarılır.

b) Nəhy məqsədi daşıyan xəbər cümlərləri də haramlıq bildirir*: "Mömin olan şəxs başqasına lənət etməz"*, *"hakim qəzəbli ikən hökm verə bilməz"* hədislərindəki "lənət etməz" lənət etməsin, "hökm verə bilməz" ifadəsi isə hökm etməsin mənasında işlədilmişdir.

c) Haramlıq hökmü haram kəlməsi kimi quruluşu etibarilə haramlıq ifadə edən, yaxud halallığa mane bir kəlmənin işlədilməsindən çıxarılır. Məsələn, *"analarınız sizə haram qılındı"*, "*sizə ölü əti, qan, donuz əti haram qılındı"*, *"əgər kişi arvadını üçüncü dəfə boşayarsa, ondan sonra arvadı başqa bir kişi ilə evlənmədikçə halal olmaz"*, "*bir müslümanın malı, razı olmadıqca başqa bir şəxsə halal deyildir"* kimi ayələrdən haramlıq hökmlərini çıxarmaq mümkündür.

**f) Məkruh**

Şarinin, edilməməsini qəti və bağlayıcı olmayan bir tərzdə istədiyi feldir. Onu etməmək etməkdən daha yaxşıdır. Məkruh bir iş görən cəzaya məruz qalar. Ancaq tənbeh olunar. Məkruh hənəfilərə görə iki yerə ayrılır: Təhrimən məkruh və tənzihən məkruh. Digər məzhəblərə görə təhrimən məkruh haram, tənzihən məkruh isə məkruh hökmündədir.

1) Hənəfilərə görə məkruhun qisimləri

*a) Təhrimən məkruh:* Şarinin edilməməsini qəti və bağlayıcı bri tərzdə istədiyi fel olmaqla bərabər bu tələb xəbər-i vahid kimi zənni dəlillə sabitdir. Bu məkruhun hökmü haramı işləməmənin cəzası kimidir. Ancaq bunu inkar edən kafir sayılmaz. Əslində tahrimən məkruh haramın bir hissəsidir. Ona haram deyilməməsi sübutu cəhətinə görədir, bu təsnifat insanları yanlış yöndə istiqamətləndirə bilər, çünki məkruhu işləmək günahdır. Məsələn, kişilərin ipək paraçadan tikilmiş paltar giyməleri, qızıl üzük taxmaları hənəfilərə görə təhrimən məkruh sayılarkən, digər məzhəblərə görə isə haram sayılır.

*b) Tənzihən məkruh:* Şarinin edilməməsini qəti və bağlayıcı olmayan bir tərzdə istədiyi feldir. Cümhur buna məkruh ismini vermişdir. Məndub vacibi işləməyə bir alışqanlıq məqsədi daşıdığı kimi məkruhdan da uzaq duran mükəlləf də haramlardan asanlıqla qaçına bilər, harama meyl etməz.

Dəstəmaz alarkən suyu lazım olduğundan çox işlətmək tənzihən məkruhdur.

2) Məkruhluq (kərahət) ifadə edən kəlmə və cümlələr

a) Nəhy formasının harama dəlalətinə mane olan, kərahətə dəlalət etdiyinə dair bir səbəbin olması, o işi görmənin məkruh olduğunu göstərir. Məsələn, *"Ey iman edənlər! Öyrəndiyiniz vaxt xoşunuza gəlməyən şeylər haqqında soruşmayın. Əgər siz bunları Quran nazil olarkən soruşsanız sizə açıqlanar. Allah onları əfv etmişdir. Allah çox bağışlayıcıdır. Cəza verərkən də tələsməz."*[72]

b) Kərahət hökmü, kərahət kimi quruluş etibarilə məkruhluq bildirən bir kəlmə və ya üslubla məlum olur. Məsələn, *"Allah sizə dedi-qodu etmənizi, çox sual soruşmanızı, malı-mülkü ziyan etmənizi məkruh etmişdir"*[73], *"Allahın ən çox xoşlamadığı halal boşamadır"*[74]

**g) Mübah**

Şarinin, mükəlləfi işləyib-işləməməkdə sərbəstlik tanıdığı bir işdir. Bunu işləyib işləməmək eynidir. Bu feli işləyən nə savab, nə də günah qazanmaz. Mübahı müəyyənləşdirmək önəmlidir. Ya istishab dəlili ilə hər yeni şey halal qəbul ediləcək və ya bizdə olmayan haramdır deyiləcəkdir. İnsanları istishab dəlili ilə istiqamətləndirmək ancaq zamanla və təlim tərbiyə ilə mümkün olar. Mübah bir işin görulməsində savab, görülmədiyi təqdirdə isə tənbehə məruz qalmaz. Vəziyyətlərin fərqli olması bəzən hökmlərin də fərqli olmasına təsir göstərir. Məsələn, haram olmayan bir şeyi yeyib-içmək mübahdır. Ancaq insan bədənini təhlükəyə düşməsinə səbəb olmayacaq qədər yeməsi, içməsi isə fərzdir.

1) Mübahın növləri

Mübah olan şeylər iki yerə ayrılır: *Mübah lieynihi* və *mübah liqeyrihi*

72. Maidə, 101
73. Buxari, İstiqraz, 19; Əhməd ibn Hənbəl, II, 327, 360
74. İbn Macə, Təlaq, 1.

Mahiyyəti etibarilə mübah olan fel və hərəkətlərə mübah li aynihi, bir zərurət səbəbilə görülməsinə icazə verilən işlərə də mübah li qeyrihi deyilir. Məsələn, içki içmək haramdır. Bunun haramlığı mahiyyətindən irəli gəlir. Bu səbəblə içki içmək haram li aynihiyə daxildir. Ancaq boğazında loxma qalan və boğulma təhlükəsinə məruz qalan şəxsin yanında şərabdan başqa bir içki olmasa müəyyən qədər içməsi caizdir.  Göründüyü kimi burada zərurətə görə içki içmək mübah hesab edilmişdir.

2) Mübahlıq ifadə edən kəlmə və cümlələr

a) Əmr forması məcburiyyət gətirmədən ibahənin nəzərdə tutulduğunu göstərən səbəbin varlığı işin görülməsinin mübah olduğunu göstərir. Məsələn, “ *Ehramdan çıxdıqdan sonra (istəsəniz) ov ovlaya bilərsiniz”*[75] ayəsi, həcc ehramından çıxdıqdan sonra ov ovlamanın mübah olduğuna dəlalət edər. *“Yeyin, için ancaq israf etməyin. Çünki Allah israf edənləri sevməz*”[76] ayəsi yemə və içmənin mübah olduğunu göstərir.

b) Bir şeyin halal olduğunu göstərən kəlmə və cümlələr də mübahlıq ifadə edər. Məsələn, “*bu gün sizə yaxşı və təmiz (nemətlər) halal edildi”* [77]

c) Bir şeydə günah olmadığını göstərən nəslər mübahlıq ifadə edər. Məsələn, *“Ancaq kim bunlardan yeməyə məcbur olarsa (heç kimə) zərər vermədən və həddi aşmamaq şərti ilə ona bir günah yoxdur”* [78], *“Vəfat iddəti gözləyən qadınları nikahla istəyəcəyinizi əl altından bildirmənizdə və yaxud belə bir arzuyu könüllərinizdə saxlamanızda sizə bir günah yoxdur”*[79]

4. Haram olduğuna dair hər hansı bir dəlilin olmayan hər şey mübah hesab edilir. Çünki əşyada əsl olan mübahlıqdır.

**i) Əzimət və rüxsət**

Dini hökmlər, əzimət və rüxsət deyə iki yerə ayrılır.

1) Əzimət

Əzimət lüğətdə qərar vermək, yönəlmək, məqsəd seçmək kimi mənalara gəlir. Fiqh üsulu elmində isə belə tərif edilir: Allahın mükəlləflərin hamsı üçün bütün vəziyyətlərdə bağlayıcı olaraq qoyduğu hökmlərdir.

75. Maidə, 2.
76. Əraf, 31.
77. Maidə, 5.
78. Bəqərə, 73.
79. Bəqərə, 235.

Bu tərifə görə əzimət; fərz, vacib, haram, məkruh, məndub, mübah kimi hökmləri təklifi hökmləri ehtiva edir. Əzimət hökmləri, zərurət və məşəqqət kimi vəziyyətlərdən asılı olamayaraq başlanğıcda qoyulmuş və normal şərtlərdə bütün mükəlləflərin riayət etməklə məsuliyyət daşıdıqları əsli hökmlərdir. Məsələn, oruc tutmaq, bütün mükəlləflərə vacibdir ki, bu hökm əsli bir hökmdür. Yəni əzimətdir. Bəzi üsul alimləri əziməti, normal şərtlərdə əsli hökmlərin tətbiq edilməsi üçün Allah tərəfindən qoyulmuş bir "səbəb" kimi hesab edərək, vəzi hökmlərə daxil etmişdirlər.

2) Rüxsət

Rüxsət lüğətdə asanlıq mənasına gəlir. Fiqh üsulu elmində isə Allahın, mükəlləflərin vəziyyətlərinə görə və onların ehtiyaclarını nəzərə alaraq qoyduğu müvəqqəti hokmlərdir. Rüxsətin səbəbləri çoxdur. Zərurət və məşəqqətin aradan qaldırılması, asanlığın təmin edilməsi və bənzərləridir. Məsələn, normal şərtlər altında murdar əti yemək haramdır. Ancaq, aclıqdan ötrü ölüm təhlükəsi ilə qarşı-qarşıya qalan şəxsə murdar əti yemək mübah olar. Eyni şəkildə məhrəm olmayan kişinin məhrəm olmayan qadının övrət yerlərinə baxması haramdır. Ancaq, bir həkimin müalicə məqsədilə övrət yerlərinə baxması caizdir.

Rüxsəti bir neçə cür təsnif etmək mümükündür. Bunlardan ən məşhuru aşağıdakıdır.

a) Haram iş görmə rüxsəti: Zərurət və ya şiddətli ehtiyac hiss edildikdə haram bir şey mübah olur. Ölümlə təhdid edilənin Allahı inkar etməsi və çətin vəziyyətdə qalanın donuz ətini yeməsi, canını və ya bir orqanını itirmə təhlükəsi daşıyan insanın rüxsətə görə əməl etməsi vacibdir.

b) Vacibi tərk etmə rüxsəti: Vacibi işləmək mükəlləfə ağır zərər verəcəksə bu vəziyyətdə o vaciblə əməl etməyə bilər. Məsələn, ramazanda xəstə olan oruc tutmaya bilər. Bu vəziyyətdə kişi əzimətə görə hərəkət etməsi yaxşı görünərsə və o işi görə biləcək əzimətlə əməl etməsi ona zərər verəcəksə rüxsətlə əməl etməsi lazımdır.

*Rüxsəti qəbul etmənin faydaları:*

Cəmiyyətin həyata davam etməsini və hər hansı bir qeyri stabilliyə düşməməsini təmin edər. Əzimət fövqəladə hallarda hüquqi vəziyyətdir.

İnsanların bir-birindən fərqli olması onların fəqli problem və hadisələrlə qarşılacağını göstərir. Bu problemləri və fərqliliyi nəzərə alarsaq bu sistem həll edici bir rol oynaya bilər.

Şarinin məqsədi əzimətlə gərçəkləşmədiyi halda Şari bunu rüxsətlə gərçəkləşdirə bilər.

Əzimət bəzi mənfəətləri təmin etmək üçün qoyulmuşdur. Ancaq əziməti tətbiq etmək daha böyük mənfəətləri əldə etməyə mane olarsa bu vəziyyətdə rüxsətlə əməl edələr.

Asanlıq və çətinliyə görə mükəlləfiyyət şərtlərini qoyan Şari bu rüxsəti tanıyaraq zəif insanların da vəziyyətlərini nəzərə almışdır.

Hüquq dövləti olmaq fərd və cəmiyyətin qanun və prinsiplər daxilində yaşamasının və işləməsinin təmini ilə olur. Fərdin öz həyatı ilə bütövləşməsi və qanun və qaydalardan ayrılmamasının təmini rüxsətlə həyata keçirilir. Rüxsətlər olmasa insan psixi narahatçılıqlar keçirər, nəticədə isə ya dini tərk edər ya da həyatına son qoyar. Rüxsət bir qurum halına gətirilərsə fərd hər bir vəziyyətdə İslama itaət edər və rüxsətlə əməl edərkən Allahın əmrinə də itaət etmiş olar.

Qeyri-normal və çətin vəziyyətlərdə belə dini prinsilərə uyğunluğunu araşdırıb rüxsətlə əməl edən insan normal həyatında imkan daxilində əzimətlə əməl edər.

**2. Vəzi hökmlər**

Vəz kəlməsi lüğətdə “qoymaq” mənasına gəlir. Bu növ hökmlərin vəzi adlandırılması, Şarinin bir şeyi başqa bir şey üçün səbəb, şərt, mane, illət ilə vasitəçi etməsindən irəli gəlir. Yəni burada “vəz” Şari tərəfindən mükəlləfin işi ilə əlaqəli iki şeyin bir-birinə bağlanmasını ifadə edir. Məsələn, mirasçı olmaqla, murisin (miras qoyan şəxs) ölümü bir-birinə bağlıdır. Yəni murisin ölümü, qohumunun mirasçı olmasına səbəb olur. Eyni qaydada Şari, namaz üçün dəstəmazı, nikah üçün iki adil şahidi şərt qoşmuşlar. İcab və qəbul, əqdin rüknünü təşkil edər. Öldürmək, mirasa manedir. Vaxt, namaz üçün bir səbəbdir.

**Vəzi hökmlərin qisimləri**

Vəzi hökmlərin qisimləri aşağıdakılardır:

a) İllət,

b) Səbəb,

c) Rükn,

d) Şərt,

e) Əlamət,

f) Mane,

Vəzi hökmlər ilə təklifi hökmlər arasında bir əlaqə vardır. Çünki, vəzi hökmlər, təklifi hökmləri meydana gətirirlər. Məsələn, vaxt ilə namaz arasına sıx bir əlaqə vardır. Belə ki, vaxt namazın vacib olması üçün bir səbəbdir.

**a) İllət**

İllət, lüğətdə "dəyişdirici" mənasına gəlir. Xəstəliyə, insanda bir dəyişiklik meydana gətirdiyi üçün meydana gətirdiyi üçün illət deyilmişdir. İllət hökmdə bir dəyişiklik meydana gətirir. Belə ki, mövcud olmayan hökmü meydana gətirir və ya qiyasda olduğu kimi xüsusi hökmü, ümumi hökm halına gətirir.

Fəqihlər, hökmün varlığı, ona isnad edilən başqa bir ifadə ilə hökmün dayandığı şeyə illət deyirlər. Belə olan halda illət, bir hökm meydana gətirər, başqa bir ifadə ilə hökmə təsir göstərər. Bir yerdə illət varsa hökm də vardır, illət yoxdursa hökm də yoxdur.

Şarinin hökm qoyarkən diqqət mərkəzində tutduğu mənfəət və hikmətlərə də illət deyilir.

1) İllətin növləri

*a) Tam illət*

Tam illət şəri hökmü ifadə etmək üçün qoyulmuş, o hökmdə amil olan və hökmlə bərabər meydana gələn illətdir. Hənəfilər bu illətə hökmən və ya mənəvi illət deyirlər. Alqı-satqıın illəti mülkiyyətdir. Belə ki, bir satış əqdi səhih, qeyri-mövquf və seçmə haqqından (müxəyyərlik) uzaq olsa da meydana gələrsə, illət tam olar və onun nəticəsi olan mülkiyyət hökmü də meydana gələr. Satan şəxs pula, alan şəxs də satılan əşyaya malik olar. Səhih və lazım olan nikah da, ər-arvad arasında qanuni münasibətin

meydana gəlməsi üçün tam illətdir. Qəsdən adam öldürmə qisas üçün tam illətdir.

*b) Naqis illət*

Naqis illət hər vaxt tam olmaz. Bəzi maneələr hökmün dərhal meydana gəlməsinə əngəl ola bilər. Nə vaxt maneə ortadan qalxarsa o vaxt hökm də meydana gələr. Naqis illətləri aşağıdakı kimi sıralamaq mümkündür.

*1) İsim və məna olaraq illət*

Məsələn, mövquf hökmündəki alış-veriş. Belə bir əqd nəticəsində mülkiyyət hökmü meydana gələr. Ancaq bu növ alış-veriş nafiz (qanuni) deyildir. Mülk sahibinin və ya qanuni nümayəndəsinin icazəsinə bağlı olaraq qanuni olar.

*2) Məna və hökm olaraq illət*

İki hissədən meydana gələn illətin ikinci hissəsi kimi. Əqd, icab və qəbulun əlaqəsindən meydana gəlir. Əqddə qəbul, hökmün məna olaraq illətidir, həm də hökmə təsir edir.

*3) İsim və hökm olaraq illət*

Məsələn, bir şəxsin əlində bıçaqla qan içində bir evdən çıxdığını təsəvvür edək. Əgər o əsnada həmin evdə öldürülmüş bir adam olarsa, əlində bıçaq olan şəxs qatil kimi cəzaya məruz qalar. Çünki o şəxsin bu vəziyyəti qatil olduğuna dəlil olub, öldürmə yerinə isnad edilir.

*4) İsim olaraq illət*

Şərtə bağlı icab kimi. Məsələn, bir şəxs arvadına “Filan yerə girsən, boş ol” deyərsə, arvad evə girdikdə boşanma meydana gələr.

*5) Məna olaraq illət*

Əqdlərdə icab və qəbuldan hər biri, mənən bir illətdir. Hər ikisi də o müamiləni, o əqdi meydana gətirmə məsələsində bir illətdir.

*6) Hökm olaraq illət*

Məsələn, bir şəxsin başqa bir şəxsin mülkündə icazəsi olmadan quyu qazması, ora düşərək tələf olan bir heyvanın bu tələfinə şərt olmaqla, bundan ötrü lazım gələn zərəri ödəmə hökmünü hökmən illəti olur.

**b) Səbəb**

Səbəb, şarinin bir şeyin varlığını onun hökmünün varlığına, yoxluğunu hökmünün yoxluğu üçün qoyduğu bir vəziyyətdir.

Səbəbin bir dar, digəri geniş olmaqla iki mənası vardır.

Dar mənada səbəb, hökmdə birbaşa təsir edici olmayıb, hökmə aparan, ona çatdıran bir yol və vasitədir. Belə olan halda illət ilə səbəb arasında belə bir fərq vardır. Məsələn, sərxoş edicilik illətdir. Vaxt, namazın vacib olması üçün bir səbəbdir.

Geniş mənada isə səbəb, hər hansı bir şəri hökmü tərif edici şey mənasında işlədilir. Yəni hökmün varlığını göstərən bir əlamətdir. Bu baxımdan səbəb, illəti də əhatə edir. Bu mənaya görə hər illət səbəbdir. Ancaq hər səbəb illət deyildir. Şəri hökmü tərif edici olan şey ilə hökm arasında məntiqi bir münasibət varsa ona həm səbəb, həm də illət deyilir. Əgər məntiqi bir münasibət yoxdursa ona da sadəcə səbəb deyilir. Məsələn, vaxt namazın vacib olmasının səbəbidir, illəti deyildir. Çünki, namaz ilə vaxt arasında məntiqi bir münasibət yoxdur. Sərxoşedicilik içkinin haram olmasının həm illəti, həm də səbəbidir. Çünki, sərxoşedicilik ilə içkinin haram qılınması arasında məntiqi bir münasibət vardır. Içki qadağan edilməsi ilə insanın ağlı qorunur. Bu halda illət, münasib və müəssir (təsir edici) bir vəsfdir, hökmdə təsiri vardır. Səbəb isə belə deyildir.

Burada illət ilə səbəbin eyni mənaya gəldiyini qəbul edən üsul alimlərinin də olduğunu qeyd etmək lazımdır.

1) Səbəbin qisimləri

Səbəblər dörd qismə ayrılır:

*a) Həqiqi səbəb*

Bu növ səbəb, hökmə aparıb çıxaran bir vasitədir. Ancaq hökm onun üzərinə deyil, bir illət üzərinə qoyulur. Məsələn, bir şəxsin başqa bir şəxsin ona yol göstərməsi ilə bir mal oğurladığını təsəvvür edək. Malı oğurlayan, oğurluq cinayətinin failidir (onu icr edəndir). Oğrunu, oğurluq cinayətini törətməyə təhrik edən şəxs isə səbəb hesab edilir. Çünki, o oğruya yol göstərərək ona vasitəçi olmuşdur. Oğurluq cəzası, oğurluq edən şəxsə

verilir. Səbəbkara isə oğurluq cəzası verilməz. Ona da təzir (məhkəminin uyğun gördüyü bir cəza) cəzası tətbiq edilir.

*b) İllət hökmündə olan səbəb*

Bəzi səbəblər vardır ki, onlar illət yerinə keçir və hökm onun üzərinə qurulur. Məsələn, bir şəxsin bir küçədə sürdüyü heyvanın başqasına aid bir malı tələf etdiyini qəbul edək. Tələf olan malın ödənilməsi kimə aid olacaq? Həqiqətən heyvanı sürən şəxs sadəcə bir səbəbdir (mütəsəbbib). Heyvanın feli isə bir illətdir. Ancaq bu illətin nəticəsi o şəxsə aid edilir. Çünki, heyvan öz ixtiyarı ilə deyil, sahibinin ixtiyarı ilə sürülür.

Hər kəsin istifadə etdiyi küçə və yollarda quyu qazmaq, içində maye olan bir qabı deşmək, bir çılçırağın ipini kəsib qırmaq kimi səbəblər də illət hökmündədir. Çılçıraq cazibə qüvvəsinə görə yerə düşüb parçalanır. Ancaq, hökm cazibə qüvvəsi nəzərə alınaraq deyil, ipi kəsən şəxs illət kimi qəbul edilər və vurulan zərəri də həmin şəxs ödəyər.

*c) İllət şübhəsi olan səbəb*

Hər hansı bir hadisənin bir səbəbi, bir də illəti ola bilər. Bəzi hallarda hadisəni illət üzərinə deyil, səbəb üzərinə qurulması daha uyğun və əlverişli olar.

Məsələn, bir şəxsin bir küçədə quyu qazdığını qəbul edək. Bu quyuya düşərək ölən heyvanın təzmini (dəyərinin ödənməsi), yəni ödənilməsi quyuyu qazan şəxsə aid olar. Çünki, şəxsin quyu qazması heyvanın ölməsinə səbəb olmuşdur. Bu ölümün əsl illəti isə düşən heyvanın ağırlığıdır. Əgər ağırlıq olmasaydı, bu quyuya düşməzdi. Ancaq ölüm hökmü bu ağırlığa nisbət edilməz. Bu baxımdan burada hökmün ağırlıq illəti üzərinə deyil, quyu qazma səbəbinə istinad edilməsi daha əlverişlidir.

*d) Məcazi səbəb*

Bu səbəb, gələcək zamanda hökmə qovuşduran bir səbəbdir. Məsələn, bir şəxs "Vallah mən filan adamla görüşmərəm" deyərək sonra da onunla görüşsə, andı kəffarə lazım gələr. Kəffarə bir hökmdür. And içmək də bu hökmə məcazi bir səbəb təşkil edir. Bunun illəti isə andı pozmaqdır.

2) Səbəbin başqa yöndən növləri

*a) Mükəlləfin fe`i olub-olmaması baxımından*

1) Mükəlləfin feli olan və mükəlləfin gücü daxilində olan səbəb: Ramazanda oruc tutmamanın caiz olması hökmünün səbəbi səfərdir.

2) Əsas etibarilə mükəlləfin fe``li olmayan səbəb, günəşin qərbə tərəf meyl etməsi namaz vaxtının səbəbidir.

*b) Səbəbə bağlanan nəticə (müsəbbəb) baxımından*

1) Təklifi bir hökmün səbəbi: Ramazanda səfər, oruc tutmamanın caiz olması üçün səbəbdir.

2) Mükəlləfin felinin nəticəsi olan hökmün səbəbi: Alım satım əqdi mülkiyyət haqqını əldə etmə səbəbidir.

Bir şey ancaq rüknləri və şərtləri yerinə gəlmişsə və bir mane də yoxsa o zaman səbəb ola bilər. Belə olmadığı halda hüquqi bir səbəbdən bəhs edilməz

Səbəb mükəlləfin gücü daxilində isə və mükəlləf bunun rüknləri və şərtləri ilə yerinə yetirərsə mükəlləf o səbəbin nəticəsini qəsd etsə belə nəticə səbəbə bağlanmaz. Şərtlərini daşıyan satış əqdi istənilməsə belə mülikyyət sabit olar.

**c) Rükn**

Bütöv bir şeyi meydana gətirən və o şeyin varlığı öz varlığından asılı olan və ondan bir hissə təşkil edən ünsürdür. Məsələn, nikah, alqı-satqı, icarə kimi əqdlərin rüknü icab və qəbuldur. İcab və qəbul olmadıqda əqd də meydana gəlməz. Namazın rüknləri arasında qiyam, qiraət, rükü və səcdə və s. vardır. Bunlardan biri olmazsa namaz da səhih olmaz.

Rükn iki yerə ayrılır: Əsli rükn, əlavə (zaid) rükn

İman qəlb ilə təsdiq və dil ilə iqrardan (ifadə etmə) meydana gəlir. Qəlb ilə təsdiq əsli rükndür. Dil ilə rükn isə əlavə rükndür. Yəni qəlb ilə təsdiq olmadıqda iman da meydana gəlməz. Halbuki, təhdid və icbar qarşısında olan bir şəxsin dil ilə iqrar etməyərək imanını gizləməsi, onun imanına bir zərər verməz. Çünki, o zaid bir rükndür.

**d) Şərt**

Hökmün varlığının istinad etdiyi bir şeydir. Onun olmaması, hökmün də olmaması deməkdir. Ancaq şərtin olması, hökmün də olmasına dəlalət

etməz. Şərt ilə səbəb və illət arasındakı fərq də bundan ibarətdir. Məsələn, dəstəmazın olması namazın vacib olmasını lazım qılmaz, iki şahidin olması nikah əqdinin bağlanmasını vacib qılmaz. Ancaq dəstəmazsız namaz səhih olmayacağı kimi, iki şahid olmasa nikah əqdi də mötəbər sayılmaz. Halbuki, illət və səbəb mövcud olsa və ortada da hər hansı bir mane hökmün olması lazım gələr. Məsələn, vaxt girdikdə namaz vacib olar. Ramazan ayı görüldükdə oruc tutmaq lazım gələr. Bir şey sərxoşluq verirsə, haramdır. Oğurluq edən şəxs cəzaya məruz qalar.

Şərt iki cürdür:

1) Səbəbin şərti: Zəkatın vacibliyinin səbəbi nisabdır. Ancaq bu nisab üzərindən bir ilin keçməsi şərtdir. Məhz buna səbəbin şərti deyilir.

2) Hökmün şərti: Nikah əqdində şahidlik bu növ şərtdir. Evlilik hökmünün ola bilməsi üçün şahidlik şərtdir.

Cəli şərt

İnsanların hüquqi münasibətlərində irəli sürdükləri şərtlərə cəli şərt deyilir. Bunlar iki növdür:

*1) Təliqi şərtlər*

Fərdin öz iradəsilə ortaya qoyub borclandığı şərtlərdir. "İmtahanı keçərsəm qurban kəsəcəyəm" kimi...

*2) Təqyidi şərtlər*

Hüquqi münasibətlərdə irəli sürülən şərtlərdir. "Bu kitabın qapağını cildləsən alaram" kimi. Bunlar da üç qismə ayrılır:

*a) Caiz şərtlər b)Ləğv şərtlər c) Müfsid şərtlər*

*a) Caiz şərt:* Məsələn, bir alqı-satqı əqdində satıcının, malın məbləğini alan qədər satılan şeyi yanında saxlayacağını şərt olaraq irəli sürməsi caizdir. Burada şərtə riayət etmək lazımdır.

*b) Ləğvi şərt:* satıcının malı satarkən, "bunu başqasına satmayacaqsan" şəklində bir şərt irəli sürməsi ləgvi bir şərtdir. Ancaq əqd səhihdir.

*c) Müfsid şərt:* Əqdin bir hissəsi olmaqla bərabər, tərəflərdən birinə mənfəət gətirən bir şərtdir. Xalq arasında adət halına gələn şərt səhih,

gəlməyən şərt isə fasiddir. Satıcının evini, işində bir müddət oturmaq şərti ilə başqasına satması kimi. Satım əqdi qeyri səhih, şərt də fasiddir.

**e) Əlamət**

Əlamət, hökmün varlığından asılı olmayan, sadəcə onu tərif edən və açıqlayan şeydir.

Əlamətin növləri:

*1) Xalis əlamət*

Məsələn, namazda təkbirlər, bir rükndən digərinə keçməyə işarə və dəlalət edər.

*2) Şərt mənasına gələn əlamət*

Nikahlı bir qadının dünyaya gətirdiyi uşağın nəsəbi sabit olar. Belə ki, doğum nəsəbin əlaməti mənasında bir şərtdir.

*3) İllət mənasında əlamət*

Şəri illətlər bura daxildir. Məsələn vaxt, namaza görə bir səbəb, bir illətdir. Vaxt özbaşına isə namazın vacib olmasına təsir göstərməz. Namazı vacib qılan Allahdır. Vaxt isə, namazın vacib olduğuna dəlalət edən bir əlamətdir.

*4) Məcazi əlamət*

Bunlar həqiqi illətlər və həqiqi şərtlərdir. Məsələn, günəşin çıxması gündüzün varlığının illəti olduğu kimi, əlaməti də olar. Nikahın səhih ola bilməsi üçün, şahidlərin olması şərtdir. Nikah əsnasında şahidlərin olması, nikahın qanuni olmasının bir əlamətdir.

**f) Mane**

Varlığı səbəbin meydana gəlməməsini təmin edən və ya səbəb hökmün bağlanmasına mane olan şeyə deyilir. Varisin murisini öldürməsi, öldürdüyü o şəxsə mirasçı olmasına manedir.

Hökmün manesi: Səbəb və şərtlər meydana gəldiyi halda hökmün olmasına əngəl olan manedir. Muris kimi.

Səbəbin manesi: Varlığı səbəbin meydana gəlməsini əngəlləyən bir vəziyyətdir. Borcun zəkata mane olması kimi.

### C. Səhhət, Fəsad, Bütlan

Mükəlləfin hüquqi felləri üçün lazımi şərtlərə malik olub-olmamasına görə onun bu əməlləri təsnif edilmişdir.

*Səhih:* İbadət və müamilələrdə şəri olaraq bildirilən rükn və şərtləri ehtiva edən və Şarinin əmrinə uyğun meydana gələn fel və əməllərin keyfiyyətidir.

*Batil və fasid:* İbadətlərdə batil və fasid eyni mənadadır. Bir felin istər rüknündə istərsə də şərtlərində Şarinin istəyinə zidd bir şeyin və ya bir əksikliyin mövcud olmasıyla felin aldığı bir vəziyyətdir.

*Müamilələrdə batil və fasid:* Cümhura görə müamilatda batil və fasid eyni mənalara gəlir. Hənəfilər isə butlanı "hüquqi müamilələrin rükn və şərtlərindən birinin əksik olması ilə felin səciyyələndirilməsidir" deyə tərif etmişdirlər. Fasid isə hüquqi müamilələrin rükn və şərtləri yerində ikən onu əhatə edən vəsflər və xarici ünsürlər əksik olarsa o felin təsvir edilməsinə fasid deyilir. Fəsad ünsürünü kənarlaşdırmaqla o müamilə səhih vəziyyətə çevrilə bilər.

Hüquqi müamilələrin rükn və şərtləri sağlam olduğu halda onu əhatə edən xüsusiyyətlər və xarici ünsürlər əksik olarsa o fel fasid olar. Fəsad ünsurunu ortadan qaldıran o müamilə səhih vəziyyətə çevrilə bilər. Batil heç bir hüquqi nəticə meydana gətirməz ikən fasid bir çox hüquqi nəticələr ortaya çıxara bilər.

### D. Təklifi və vəzi hökmlər arasındakı fərqlər

Təklifi hökm mükəlləfdən bir şeyin edilməsini və ya edilməməsini istəyər və ya onu ixtiyar sahibi edər. Vəzi hökmdə belə bir tələb mövcud olmayıb bir şeyin başqa bir şey üçün səbəb, şərt, mane, illət təşkil etməsidir.

Təklifi hökmdə tələb edilən şey mütləq surətdə mükəlləfin gücü daxilindədir. Namaz qılmaq, həccə getmək kimi. Vəzi hökmlərin isə bir hissəsi mükəlləfin gücü daxilindədir. Günəşin qərbə tərəf meyl etməsi günorta namazının vaxtının səbəbidir və mükəlləfin buna bir təsiri yoxdur.

## II. MƏHKUMUN BİH (FİH)

Şarinin tələbinin və ixtiyar verməsinin və ya qoymuş olduğu hokmün mövzusudur. Yəni hökmün mövzusuna deyilir.

Mükəlləf olmanın şərtləri

Bir şəxsi aciz qoyma məqsədi daşımadan ağır və çətin bir iş yükləməyə "təklif" deyilir. Bir şeyi təklif edə bilmək üçün aşağıdakı şərtlərin olması lazımdır.

Felin mükəlləf tərəfindən tam olaraq bilinə bilməsi lazımdır. Bundan məqsəd birbaşa bilmək deyil, bilmə imkanına sahib olmaqdır.

Fel mükəlləfin gücü daxilində olmalıdır. Onu etməyə və ya etməməyə gücü çatmalıdır.

Mükəlləfi imkansız və gücünün çatmayacağı bir şeylə mükəlləf tutmaq caiz deyildir. Bu həm əqli, həm də nəqli olaraq isbat edilə bilər. (Bu görüş Maturidilərə aiddir və bu mövzuda əqaid alimləri arasında fikir ayrılığı vardır.)

İnsan iradəsinin xaricindəki təbii vəziyyətlər təklifə mövzu ol bilməz. Yemək, içmək, sevinmək, üzülmək kimi. Peyğəmbərin oğlu vəfat etdiyi zaman peyğəmbərimiz üzülmüş, ona sən də mi üzülürsən deyənlərə cavab olaraq "göz yaşarar, qəlb hüzünlənər. Mərhəmət etməyənə, mərhəmət edilməz" buyurmuşdu.

### A. Qüdrət və məşəqqət

Qüdrət, bir işi görə bilmək insanın sahib olması lazım gələn qabiliyyətdir. Allah, insanın qabiliyyətinə görə onu bir işlə mükəlləf tutar. *"Allah sizin üçün asanlıq istəyər, çətinlik istəməz"*[80], *"Allah sizə çətinlik vermək istəməz"*[81] ayələrinə görə Allah, insanların çətinliyə düşməsini istəmədiyini ifadə edir.

80. Bəqərə, 2/185.

81. Maidə, 5/6.

Ancaq insan, Allahın əmrlərini icra edərkən az-çox çətinliklərlə qarşılaşa bilər. Bunun nəticəsin olaraq da savab qazanar. Məsələn, namaz qılmaq, zəkat vermək, oruc tutmaq hər biri bir məşəqqətli ibadətdir. Ancaq insan bunlara əməl edə biləcək qüdrətə sahibdir.

İnsanın mükəlləfiyətə dair bir işi görərkən iki növ qüdrətə sahib olması lazımdır:

1. Qüdrəti-mümәkkinə

Bu, əmr edilən işi görə bilmə qabiliyyətinə malik olacaq miqdardakı qüdrətdir. Bu qüdrət hər vacibin şərtidir. Bu qüdrətə malik olmayan şəxs, nə namaz kimi bədənlə edilən ibadətlərlə, nə də zəkat kimi mal ilə edilən ibadətlə mükəlləf tutulmaz. Çünki, şərt olmadıqca, şərt qoşulan şey də mövcud olmaz.

Qüdrəti-mümәkkinə ilə vacib olan şey, bu qüdrətin ortadan qalxması ilə insanın zimmətindən düşməz. Məsələn, namaz bu qüdrət ilə vacib olduqdan sonra bu qüdrət ortadan qalxsa, bundan əvvəl qəzaya qalan namazlar yenə şəxsin öhdəsində borc kimi qalar. Həcc və fitrə sədəqəsi də belədir.

Qeyd olunmalıdır ki, bədənlə edilən ibadətlərdə vəkalət caiz deyildir. Bu səbəblə də, başqasının yerinə vəkalətlə namaz qılmaq, oruc tutmaq caiz deyildir. Həcc kimi həm bədənlə, həm də mal ilə edilən ibadətlərdə bir üzrə istinadən vəkalət yolu ilə icra edilər. İnsan, həccə getməkdən bədəncə aciz olarsa, yerinə başqasını göndərə bilər. Ancaq vəkilin daha əvvəl həcc etməsi şərtdir. Zəkat, üşr, fitrə sədəqəsi kimi malı ilə edilən ibadətlərdə isə vəkalət edilə bilər. Bu səbəblə də biri başqasının zəkatını ödəməyə vəkil təyin edə bilər.

2. Qüdrəti-müyəssirə

Bu, əmr edilən işi asanlıqla görə bilmək üçün yüksək dərəcədəki qüdrətdir. Məsələn, maddi gücü olmayan insan zəkat ödəməklə mükəlləf tutulmaz. Qüdrəti- müyəssirə ilə vacib olan şey, bu qüdrətin ortadan qalxması ilə mükəlləfin zimmətindən düşər. Bu növ vacibin davamı üçün qüdrətin də davamı şərtdir. Məslən, nisaba malik olan bir müsəlmana zəkat fərz olar. Bu zəkat, müddət içində verilmədən nisab azalarsa və ya itərsə, bu zəkat vəcibəsi mükəlləfin boynundan düşər.

İnsanların güclərinin çata biləcəyi məşəqqət iki növdür:

a) İnsanın gücünün çata biləcəyi və mütəmadi olaraq o şeyə dözəcəyi zaman heç bir işinə zərər verməyən məşəqqət. Bu, mükəlləf olmaya mane deyildir.

b) İnsanın öhdəsindən gələ bilməyəcəyi və davamlı surətdə dözəcəyi zaman bir çox faydalı işin kəsintiyə məruz qaldığı məşəqqətdir. Ard-arda bir neçə gün heç iftar etmədən oruc tutmaq (visal orucu) kimi. Şari insanı bu növ məşəqqətlə məsul tutmaz. Çünki:

- İslam asanlıq dinidir. İnsanı, gücü xaricindəki şeylərdən məsul tutmaz.

- Üzr hallarında asanlıq üçün rüxsət hökmləri gətirmişdir.

**B. Allah və qul haqları**

Təklif mövzusu olan əməllər və fellər Allaha və qula nisbət edilməsi ilə dörd qisimdir.

**1. Allah haqları**

Allah haqları cəmiyyətin mənfəətini təmin edən haqlardır. Cəmiyyətin nizam-intizamlı bir şəkildə yürüməsi bunlara edilən etibara bağlıdır. Bu haqlar əhəmiyyətinə görə Allaha isnad edilmişdir. Bunlara qəti surətdə riayət olunmalı, əfv, sülh və ibra bu haqlarda cərəyan etməz. Bunlar da bir neçə qisimdir:

a) Tamamilə ibadət xüsusiyyəti daşıyanlar. Namaz, oruc və s.

b) Məunə (mali ödənişlər, vergi) xüsusiyyəti daşıyan ibadət hökmləri. Fitrə sədəqəsi kimi. Mükəlləf bu sədəqəni verərək Allaha yaxınlaşar. Ancaq fitrə sədəqəsində maliyyə yükü vardır. Çünki, bu sədəqə mükəlləfə başqası səbəbilə vacib edilmişdir. Halbuki, digər ibadətlər, başqası səbəbilə mükəlləfə vacib qılınmamışdır.

c) İbadət xüsusiyyəti daşıyan məunə. Torpaq vergisi (üşr vergisi) kimi. Üşr, ərazinin vergisi olduğuna görə maliyyə xüsusiyyəti daşıyan mükəlləfiyyətdir. Üşrdə ibadət mənası vardır. Çünki, alınan oşür, ərazinin məhsulunun zəkatıdır. Zəkatın verildiyi yerlərə verilir.

d) Cəza xüsusiyyətinə malik məunə (maliyyə) hökmləri. Xərac vergisi, xərac ərazisindən alınan vergidir. Bu vergini torpaq sahibi qeyri-müslimlər ödəyirlər. Bu vergilərdən, sosial xidmətlərin göstərilməsi üçün istifadə edilir.

e) Tam cəza. Həddlərin hamısı bura girər. Zina, oğurluq, içki, quldurluq, namusa iftira kimi cinayətlərə qarşı verilən cəzalar tam cəza hökmündədir.

f) Məhdud cəza. Murisin varisini öldürməsi və mirasdan məhrum qalması. Mirasdan mahrum olmaqla qatil, hər hansı fiziki əziyyətə məruz qalmadığı və hürriyyətində hər hansı məhdudiyyətdən bəhs edilmədiyi üçün bu cəza, əksik və ya məhdud bir cəzadır.

g) İbadət xüsusiyyətinə malik cəza. Kəffarələr buna misal göstərilə bilər. Bir insanın ramazanda orucunu pozması günahdır və kəffarə lazım gəlir. Bu kəffarəin ödənilməsi, bir günah səbəbilə lazım olduğu üçün cəza mahiyyətinə bürünür. Bu kəffarə oruc tutmaq, sədəqə vermək, kölə azad etməklə həyata keçirilir.

h) Tamamilə Allah haqqı olanlar. Qənimətlərin beşdə birinin dövlət xəzinəsinə ayrılması kimi.

**2. Qul haqları**

Qul haqqı fərdə aid olan mənfəətlərdir. Borc verənin haqqı kimi. Eyni zamanda satın alınan malın dəyəri və ya qəsb edilən malın əvəzi şəxsi haqlardır. Fərdlər bu haqlardan vaz keçə bilərlər. Qul haqlarında əfv, ibra, sülh cərəyan edər.

**3. Allah haqqı üstünlük təşkil edənlər**

Qəzf (iftira) həddi bu növ bir haqdır. Bu cinayət namusu ləkələyən bir cinayətdir. Buna cəza tətbiq edilməlidir ki, cəmiyyətdə bir daha başqasına iftira atılmasın. Ailənin şərəfinə təsir etməsi cəhəti ilə də bu bir qul haqqıdır.

**4. Qul haqqı üstünlük təşkil edənlər**

Qisas bu növ bir haqdır. Bu cazanın verilməsi cəmiyyəti bu cür cinayətlərdən qorumaqla Allah haqqıdır. Ancaq ölənin ailəsi və qohumlarının vəziyyəti nəzərə alındıqda qul haqqı üstünlük təşkil edər. Ailəsi istəsə

qisas, istəsə də diyetə razı olabilər. Buna müqabil olaraq tamamilə əfv də edə bilər.

## III. MƏHKUMUN ƏLEYH

İslam hüququnda mükəlləfə “əl-məhkumu əleyh” deyilir. Allah hökmlərini, xitablarını insanlara yönəldmişdir. Bu hökmlərin hədəfində insanın olmasının səbəbi isə onun ağıllı bir varlıq olmasıdır. DeməK ki, mükəlləf olmanın əsas şərti ağıldır.

### A. Mükəlləfiyyətin əsas şərti

Bir insanın bir iş ilə mükəlləf sayılması üçün o işə qabiliyyətli olması lazımdır. Bu da o şəxsə edilən xitabı dərk etmə gücünə sahib olması ilə mümkün olur. Xitabı dərk etmə gücünə sahib olmayan imtahana tabe tutulmaz.

Xitabı dərk edə bilmək ancaq ağıl ilə mümkün olur. Çünki anlama və qavrama vaxitəsi ağıldır. Ağlın xitaba uyğun olması təmyiz və hədd-büluğ yaşına girməklə meydana gəlir.

### B. Əhliyyət

Şəxsin borc vermə (ilzam) və borc alma (iltizam) səlahiyyətinə malik olmasıdır. Əhliyyət iki qismə ayrılır: Vücub əhliyyəti və əda əhliyyəti

#### 1. Vücub əhliyyəti

Vücub əhliyyəti müasir hüquqda “mədəni haqlardan istifadə etmə səlahiyyəti” şəklində ifadə edilir. İslam hüququnda “bir insanın lehinə və əleyhinə olan bütün qanuni haqların vacib olmasına səlahiyyətli olmasıdır” şəklidə tərif edilir. Yəni insan, bu əhliyyət səbəbilə bir çox haqlara sahib olur və borclar altına girər. Burada əsas olan həyatda olmaqdır. Yaşa və əqli qabiliyyətlərə baxılmadan yaşayan hər şəxsin vücub əhliyyəti vardır ki, buna da zimmət deyilir. Vücub əhliyyəti zimmət ilə sabit olur.

Zimmət: Şəxsi haqq və borclar altına girə bilmə qabiliyyəti verən şəri bir xüsusiyyətdir.

Vücub əhliyyəti iki qismə ayrılır.

a) Naqis (əksik) vücub əhliyyəti

b) Kamil (tam) vücub əhliyyəti

Ana rəhmindəki uşağın əhliyyəti əksik vücub əhliyyətidir. Sadəcə lehinə olan haqlar sabitdir. Miras, vəsiyyət, nəsəbin sübutu rüşeymin lehinə olan haqlardır. Rüşeym bu haqlardan istifadə etmə hüququna malikdir. Rüşeym, əleyhinə olan haqlardan məsul tutulmaz. Buna görə də, vəlisi rüşeym üçün bir şey satın alsa, onun pulunu ödəməklə rüşeym məsul tutulmaz. Eyni zamanda rüşeymin malından qohumlarına nəfəqə verilməsi də vacib deyildir. Rüşeym xaricində bütün insanlar tam vücub əhliyyətinə sahibdir.

**2. Əda əhliyyəti**

Əda əhliyyəti, şəxsin hüquqi olaraq qanuni sayılan işləri həyata keçirə bilmə qabiliyyətinə malik olmasıdır. Əda əhliyyətinin əsasını həyatda olmaq deyil, təmyiz və büluğ çağına çatmaq təşkil edər. Bu əhliyyət sayəsində insan tək başına başqaları ilə hüquqi münasibətlər qurar. Əda əhliyyəinə sahib olan insan gördüyü işlərdən məsul tutulur.

Əda əhliyyəti iki qismə ayrılır.

a) Tam (kamil) əda əhliyyəti: Ağıllı, baliğ və rəşid olan, fizioloji və psixoloji cəhətdən xəstə olmayan ve eyni zamanda hüquqi məhdudiyyətlər gətirilməyən şəxslər bu əhliyyətə sahib olurlar.

b) Əksik (naqis) əda əhliyyəti: Əqli cəhətdən zəif olanlar, uşaqlar bu əhliyyətə sahibdirlər.

**C. Əhliyyət maneələri**

İnsan həyatının müxtəlif mərhələlərində elə vəziyyətlər yarana bilər ki, onlar insanın kamil bir insan kimi hərəkət etməsinə mane olur və insan əhliyyəti və səlahiyyətini zəyiflədər. Bu vəziyyətlərdə insan kamil bir insan kimi borclar altına girə bilməz və haqlarından istifadə edə bilməz. Məhz bu hallara əhliyyət (səlahiyyət) maneələri deyilir. İslam hüququnda əhliyyəti

məhdudlaşdıran və ya ortadan qaldıran vəziyyətlər “səmavi” və “müktəsəb” maneələr deyə iki yerə ayrılır.

**1. Səmavi maneələr**

Səmavi maneələr, insanın özünün əldə etməsi ilə, iradə və ixtiyarı ilə olmadan meydana gələn maneələrdir. Bu maneələr uşaqlıq, məcnunluq, ürək getmə, yuxu, unutma, qadınların adət halı, lohusalıq, ölüm xəstəliyi, ölüm, kölәlikdir. Bu maneələrin bir hissəsi, məsələn ölüm kimi, vücub əhliyyətini, yuxu və ürək getmə kimi maneələr isə əda əhliyyətini ortadan qaldırır

**a) Uşaqlıq**

Doğuşdan büluğ yaşına qədər davam edər. Bu da öz içində iki qismdə tədqiq edilir: Qeyri-müməyyizlik və müməyyizlik mərhələsi

Daha əvvəl, ana rəhmindəki uşağa rüşeym deyildiyini və onun vücub əhliyyətinin olduğunu, əda əhliyyətinin isə olmadığını ifadə etmişdik. Uşağın doğuluşundan etibarən yeddi yaşına qədər davam edən mərhələyə, yaxşını pisdən ayıra bilmədiyinə görə qeyri-mümeyyiz deyilir. Yeddi yaşından həddi-büluğ yaşına qədər olan mərhələdə uşağın əqli qabiliyyətləri irəlilədiyinə görə, yaxşını pisdən ayıra bilmə qabiliyyəti inkişaf etmişdir. Bu mərhələdə ona müməyyiz uşaq deyilir.

*1) Qeyri-müməyyiz uşaq*

Qeyri-müməyyiz uşaq vücub əhliyyətinə malikdir. Bu səbəblə lehinə və əleyhinə olan haqlara haq qazanar, borc verər və borc alar. Ancaq əqli qabiliyyətləri inkişaf etmədiyi üçün əda əhliyyətinə sahib deyildir.

Uşaq dünyaya gələn kimi qohumluq münasibəti meydana gəlir, nəsəbi sabit olur. Vəsiyyət alar və mirasçı olar. Qanuni nümayəndəsinin uşağın adına aldığı mallar onun mülkiyyətinə keçər. Uşağın canı, malı, namusu, mülkiyyıt haqlar qanunların təminatı altındadır.

Uşağın borc və mükəlləfiyyətləri aşağıdakı kimidir:

*Maliyyə mükəlləfiyyətləri:* Uşaq tələf etdiyi malların əvəzini ödəməklə mükəlləfdir. Qanuni nümayəndəsinin uşaq adına alqı-satqı, icarə kimi əqdlərin hüquqi nəticələri ona aiddir.

*Cəzalar:* Qisas və hədd cəzaları uşağa tətbiq edilməz. Çünki uşağın hərəkətlərində suç ünsürü axtarılmaz. Uşaq təzminat da ödəməz. Mirasdan məhrumiyyət cəzasına məruz qalmaz.

*İbdətlər:* Uşağa namaz, oruc, zəkat, həcc kimi ibadətlər vacib olmaz. Ancaq bu ibadətləri ifa etsələr mötəbər olar.

*Sözlü hərəkətləri:* Qeyri-müməyyiz uşaqların hüquqi müamilələri hökmsüzdür.

*2) Müməyyiz*

Uşaqın yeddi yaşına qədər əqli qabiliyyətləri inkişaf edir, yaxşını pisdən ayırd etmə qabiliyyətinə malik olar. Artıq bundan sonra uşağın əksik əda əhliyyəti ortaya çıxır. İbadətlər, cəzalar, maliyyə mükəlləfiyətləri baxımında qeyri-müməyyiz uşaqdan fərqlənmir. Ancaq sözlü müamilələri isə fərqlidir. Belə ki, müməyyiz uşağın sözlü müamilələri üç qismə ayrılır.

*a)Lehinə olan müamilələr:* Müməyyiz uşağın lehinə olan sözlü müamilələri mötəbər və səhihdir. Lehinə olan müamilələri qanuni nümayəndəsinin icazəsinə ehtiyac olmadan qanuni hesab edilir. Hədiyyə və sədəqə qəbulunu bu növə misal göstərmək mümkündür.

*b)Əleyhinə olan müamilələr:* Müməyyiz uşağın əleyhinə olan sözlü müamilələrdi qanuni hesab edilmir. Qanuni nümayəndəsinin uşağın adına bu cür sözlü müamilələri səhih deyildir. Uşağın malından başqa bir adama hədiyyə və sədəqə vermək kimi.

*c)Lehinə və əleyhinə olma ehtimalı olan müamilələr:* Alqı-satqı, kəfalət kimi müamilələrin zərər və qazanc gətirəcəyi ehtimal xarakteri daşıyır. Müməyyiz uşaq əgər belə müamilərlər icra edərsə, qanuni nümayəndəsinin icazəsi ilə hökm ifadə edər. Əgər qanuni nümayəndə bu müamilələri uyğun görərsə hüquqi, uyğun görməzsə qeyri-hüquqi sayılar.

**b) Ruhi xəstəlik**

Bu, əqli qabiliyyətlərin olmadığı bir vəziyyətdir ki, belə bir insana məcnun deyilir. Məcnunların ağılları ya tamamilə yoxdur ya da əqli tarazlığı bəzən pozulur bəzən də yerinə gəlir. Bu baxımdan məcnunlar iki qismə ayrılır.

*Məcnuni-mütbiq:* Bunların xəstəlikləri daimidir. Hüquqi müamilələri də qəbul deyildir. Hüquqi vəziyyəti qeyri müməyyiz uşaq kimidir.

*Məcnun-i qeyri mutbiq:* Ağlı bəzən yerində bəzən isə yerində olmayandır. Ağlı başında olduğu zaman icra etdiyi fellər hüquqi dəyər daşıyar. Əksi halda isə daşımaz. Ağlı başında ikən gördüyü haqsız əməllərdən məsul tutular. Bu kimi şəxslərə ibadət vacib deyildir.

**c) Ətəh (əqli zəiflik)**

Əqli cəhətdən inkişaf etməmiş idrak və anlayışları zəif olan şəxslərdir (mətuh). Hüquqi olaraq müməyyiz uşaq kimidir. Əda səlahiyyətinə sahibdir. Ancaq hüquqi müamilələri qanuni nümayəndəsinin təsdiqinə bağlıdır. Haqsız fellərdən məsul olurlar. Ibadətlər bunlara vacib deyildir. Sözlü müamilələri baxımından müməyyiz uşaq hökmündədir. Mətuh da məcnun kimi hüquqları məhduddur.

**d) Yuxu və özündən getmə**

Yatan və ya özündən gedən insanların dedikləri sözlər hökmsüzdür. Fellərinə görə əleyhlərində cəza tətbiq edilməz. Verdikləri zərərlər təzmin edlilir. Özündən gedənin vəziyyəti əqli cəhətdən zəif insanlar kimidir. Bu insanların ibadətlərinə dair vəziyyətləri məcnunlarınkı kimidir. Yuxu isə ibadətlərin vacib olmasına mane deyildir. Yuxu vəziyyətində qılınmayan namazların qəza edilməzi lazımdır.

**e) Unutma**

Unutma, vücub əhliyyətini ortadan qaldırmaz. Unutma, qul haqlarında haqlı bir səbəb deyildir. Məsələn, bir şəxs, başqasına aid bir malı tələf etsə, dəyən zərəri ödəməsi lazımdır. Allah haqlarında unutma bəzən üzr sayılar və bəzən sayılmaz. Burada iki vəziyyət mövcuddur:

1) Allah haqlarında unutma bir səbəb sayılır və unudan şəxs günahkar sayılmaz. Peyğəmbər (s.ə.s.), "Allah ümmətimi xəta, unutma və məcburiyyət qarşısında gördükləri işlərdən ötəri məsul tutmaz" buyurur. Məsələn, bir insan unudaraq orucunu yeyərsə günahkar olmaz.

2) Allah haqlarında unutmaq səbəb sayılmaz. Məsələn unudaraq yemək və içmək orucu pozmadığı halda namazı pozar (Şafilərdə bir görüşə görə pozmaz). Eyni zamanda mükəlləf unudaraq namaz qılmazsa namaz

onun üzərindən düşməz, qəzası lazım gələr. Bir insan heyvan kəsərkən "bismillah" deməyi unudarsa, o heyvanın əti yeyilər.

**f) Ay başı və zahılıq (nifas)**

Qadınlara məxsus bu hallarda yalnız ibadət ilə əlaqəli məsələlərdə onlardan məsuliyyət qaldırılmışdır. Belə ki, bu hallar vücub və əda əhliyyətini ortadan qaldırmaz. Belə vəziyyətlərdə qadınlar ibadətlərdən məsul tutulmazlar. Qıla bilmədikləri namazları qəza etməzlər, sadəcə tuta bilmədikləri orucları qəza edərlər. Məsələn, beş vaxt namazı bu hallarda tərk edər, ramazan orucunu isə daha sonra qəza edər.

**g) Ölüm xəstəliyi (mərəzi-mövt)**

Xəstəlik vücub və əda əhliyyətinə ortadan qaldırmaz. Oruc, namaz, zəkat kimi ibadətləri də düşürməz. Xəstənin maliyyə mükəlləfiyyətləri vardır və bütün əqd və təsərrüfləri qəbul sayılar. Şəxs bu xəstəlik səbəbiylə normal insan kimi hərəkət etməz. Bu səbəblə bəzi İslam hüquqçuları belə bir vəziyyətdəki insanı da əhliyyət manelərinə sahib insan kimi qəbul etmişdirlər. Belə bir insana xəstəliyin başlanğıcından etibarən haqlarından istifadəsinə məhdudiyyətlər gətirilər. Vəsiyyətin 1/3 hissəsi keçərlidir. Ölüm xəstəliyi səbəbiylə arvadına əsəbləşib onu boşayan şəxs boşama haqqından sui-istifadə etmiş sayılar. İmam Şafi bu vəziyyətdə boşamanı mötəbər saymışdır. İmam Əbu Hənifə adamının qadının iddət müddəti içində ölməsi halında vərəsə ola biləcəyini bildirmişdir. Əhməd b. Hənbəl isə başqa bir kişi ilə evlənmədiyi müddət ərzində mirasçı ola biləcəyini bildirmişdir. İmam Malik qadının istər evlənsin istər evlənməsin mirasçı ola biləcəyini söyləmişdir.

**i) Ölüm**

Ölümlə həyat sona çatar və əhliyyəti ortadan qaldırar. Buna görə də ölüm ilə bütün mükəlləfiyyətlər sona çatar. Namaz, oruc, zəkat kimi mükəlləfiyyətlər düşər. Qəsb etdiyi və əmanət kimi əlində olan əşyalar sahiblərinə qaytarılır. Borcu varsa, malından və ya kəfilindən alınır.

Ölünün vücub əhliyyətinə gəlincə, İslam alimləri zimmətin ölümlə dərhal sona çatıb-çatmayacağı mövzusunda fərqli görüşlər irəli sürmüşdülər.

a) Zimmət ölümlə sona çatar. Çünki, zimmətin əsası dünya həyatıdır. Ölümlə dünya həyatı sona çatdığına görə, ölünün vücub əhliyyəti də sona

çatmışdır. Ölünün borcları mallaırndan ödənir. Malı yoxdursa, borcları da düşər. Bu görüş, bəzi hənbəli alimlərinə məxsusdur.

b) Zimmət, ölümlə dərhal sona çatmaz, ancaq zəifləyər. İflas etmiş ölünün zimməti zəiflədiyi üçün, başqa bir nəfərin ona kəfil olması cazi deyildir. Ölünün borcları qaytarılır və miras qoyulan malların paylanması sona çatarsa, ölünün zimməti də sona çatar, vücub əhliyyəti ortadan qalxar.

c. Ölünün zimməti qalar, sona çatmaz. Ölünün zimməti qaldığına görə, ona başqası kəfil ola bilər. Ölünün borcları verilir, mirası da paylanarsa, ölünün zimməti və vücub əhliyyəti də sona çatar.

**ı) Köləlik**

Kölələrin vücub əhliyyəti vardır. Ancaq tam əda əhliyyəti yoxdur. Kölələr də insandır və hür insan kimi yaşama hüququna malikdirlər. Kölələrin hüquqi müamilə haqları yoxdur. Ancaq sahibi tərəfindən ticarət fəaliyyəti göstərə bilmə icazəsi verilən kölə, əqd və digər hüquqi müamilələr icra edə bilər. Kölələr evlənənmə haqqından istifadə edə bilərlər. Ancaq evlənmələri sahiblərinin icazəsinə bağlıdır. Eyni zamanda boşama hüququna da malikdirlər. Kölələrə hədd və qisas cəzaları tətbiq edilir. Kölələrə, hür insanlara tətbiq edilən cəzaların yarısı tətbiq edilir. Kölələr bədənlə edilən ibadətlərlə mükəlləfdirlər. Ancaq cümə, bayram namazları və həcc ibadətləri onlara fərz deyildir.

**2. Müktəsəb maneələr**

Bu maneələr insanın öz ixtiyar və iradəsi ilə meydana gələn maneələrdir. Bunlar; bilməmək (cəhl), sərxoşluq (səkr), zarafat (həzl), xəta, ikrah (icbar), səfahət (bədxərclik), səfərsir.

**a) Cəhalət**

Cəhalət və ya bilməmə, bilmə qabiliyyətinə sahib bir insanın lazımi bir şeyi bilməməsidir. Üzr sayılıb-sayılmaması baxımından cəhalətin qisimləri aşağıdkılardır:

1) Üzr sayılmayan cəhalət: Allahı bilməmək. Çünki, kainat Allahın varlığına dəlalət edir. Ağıl sahibi bir insanın bu kainata baxaraq Allahın varlığını bilməməsi təsəvvür edilə bilməz. Eyni zamanda İslam dövlətində

ibadətləri və cəzaları bilməmək kimi. Bu məsələlərin bilinməməsi qəbul edilməz.

2) Hədd və kəffarəni düşürməyə əlverişli olan cəhalət: Öldürülən şəxsin iki vəlisindən (qəyyum) biri qatili əfv edərsə və digəri də bunu bilmədən qisas olaraq öldürsə ona qisas tətbiq edilməz.

3) Üzr sayılan cəhalət: Qeyri-müsəlman dövlətdə yaşayan şəxsin namaz, oruc kimi ibadəti və zina, rəcm kimi qadağaları bilməməsi üzr sayılır. Bunları bilməyən insan məsul tutulmaz. Eyni şəkildə vəzifədən azad edildiyinə dair xəbəri çatmayan qazının verdiyi hökmlər xəbər gəlib çatana qədər qüvvədə hesab edilir.

**b) Sərxoşluq (səkr)**

Sərxoşluq, sərxoşedici bir şeyin içilməsi nəticəsində ağlın yox olmasıdır. Sərxoşluq iki yoldan meydana gəlir:

*Mübah yolla sərxoşluq:* Məsələn, dərman və çox miqdarda bal yeməklə meydana gələn sərxoşluq, mübah yolla meydana gələn sərxoşluq sayılır. Belə sərxoşun sözlü müamilələri qəbul edilməz. Alqı-satqı, boşama kimi müamilələri hökm ifadə etməz. Hədd tətbiq edilməz. Haqsız felləri nəticəsində ortaya çıxan zərəri təzmin edərlər.

*Haram yolla sərxoşluq:* Bu növ sərxoşluq, şərab kimi bir sərxoşedici bir içki ilə meydana gəlir. Belə bir sərxoşun namaz, oruc kimi dini vəzifələri düşməz. Bunların sözlü və feli bütün müamilələri qəbul sayılır. Bu alimlərin əksəriyyətinin görüşüdür. Boşama və kölə azad etmə, alqı-satqı kimi müamilələr hənəfilərə görə səhih hesab edilir.

**c) Zarafat (həzl)**

Lətifə, zarafat, ciddiyətsizlik kimi mənalara gələn həzl, iki şəxsin bir müamiləni hər hansı bir məqsəddən ötrü qeyri-ciddi olaraq görmələridir. Əqaid mövzusunda edilən zarafat hökm ifadə edər. Zarafat olaraq verilən xəbərə etimad edilməz. Nikah, boşama, and içmə, qisas kimi müamilələr hökm ifadə edər.

**d) Zorakılıq (ikrah)**

İkrah və icbar, bir şəxsi razı olmadığı bir işi görməyə məcbur etməkdir. Bu da iki növdür: ikrahi-mülci və ikrahi-qeyri mülci

*1) İkrahi-mülci:* İnsan öldürmə və ya bir orqanı yox etmə kimi bir təhdidlə bir işi görməyə məcbur etməkdir. Bu vəziyyətdə sözlü hərəkətlər qəbul sayılmaz. Feli hərəkətlərdən və zərərli fellərdən isə icbar edən şəxs (mucbir) məsul tutulur.

*2) İkrahi-qeyri-mülci:* Döymə, həbs etmə kimi təhdid etmə halındaki feli və sözlü hərəkətlərindən məsul tutulur.

İkrah halında haramın mübah olub-olmaması fellər üç qismə ayrılır:

*1) Zərurət anında mübah olan işlər:* İçki içmək, donuz əti yemək kimi. Bu işlər, mülci ikrah vəziyyətində mübah olur. Mükrəh, ikrah halında məsələn, içki içməyərək ölsə günahkar olar. Qeyri-mülci ikrahla isə bu fellər mübah sayılmaz. Şübhə ilə hədlər düşdüyü kimi, belə bir təhdid altında içki içənə hədd tətbiq edilməz.

*2) Zərurət halında icazə verilən fellər:* Bu növdən işlər görüldüyü zaman günah meydana gəlməz. Ancaq mükrəh bu işi görmədikdə əziyyətə məruz qalarsa, savab qazanar. Məsələn, bir şəxs təhdid altında Allahı dil ilə inkar edə bilər. Bunun bir günahı yoxdur. Namaz, oruc kimi ibadətləri təhdid altında tərk edə bilər. Bu səbəblərə görə şəxs günahkar olmaz. Eyni şəkildə mükrəh təhdid altında başqasına aid malı tələf edə bilər. Bu vəziyyətdə təhdid edən şəxs zərəri ödəməklə məsuldur.

*3) Heç bir şəkildə ikrah ilə düşməyən fellər:* İnsan öldürmək, zina etmək kimi. Hənəfilərə görə bir şəxs, təhdid altında bir şəxsi öldürərsə, qisas cəzasına ikrah edən şəxs məruz qalar. Ancaq mükrəh də, özü kimi günhasız bir insanı öldürərək günah qazanar. Şafilərə görə işi birbaşa icra edənə qisas tətbiq edilir. Çünki, bu məzhəbə görə, hansı şərtlər altında olursa olsun, günahsız bir insanı öldürmək caiz deyildir. Şafilərə görə, icbar edənə də bir şəxsin ölümünə səbəb olduğu üçün qisas cəzası tətbiq edilir.

Zina da öldürmə kimidir. Bütün məzhəblərə görə zina cəzası, mükrəhə tətbiq edilir. Hənəfilərə görə şübhə olduğuna görə zinanın cəzası olan hədd düşər. Şafilərə görə hədd cəzası tətbiq edilər.

**e) Xəta**

Xəta, insanın istəyi və iradəsi xaricində bir söz söyləməsi və ya iş görməsidir. Xəta, vücub və əda əhliyyətinə mane deyildir. Çünki, xəta

işlənərkən insanın ağlı və iradəsi mövcuddur. Ancaq xəta, Allah haqlarının düşməsinə səbəb təşkil edir. Xəta ilə görülən işlərə görə insan cəzaya məruz qalmaz. Xəta ilə bir cinayət işlənibsə, caniyə cəza verilməz. Məsələn, xəta ilə adam öldürmə cinayətində caniyə qisas tətbiq edilməz. Ancaq təzminat (diyət) ödəməsi lazım gəlir.

Başqa bir adamın malını xəta ilə tələf edən şəxs, tələf etdiyi malı ödəmək məcburiyyətindədir. Çünki, təzminat bu işin deyil, malın əvəzidir.

**f) Səfehlik (səfahət)**

Səfeh, dinə və ağla zidd olaraq malı ilə əlaqəli müamilələr həyata keçirə bilən şəxsdir. Səfahət vücub və əda əhliyyətini ortadan qaldırmaz. Ancaq səfahət bəzi hökmlərə təsir edər. Səfehlər iki qismə ayrılır.

*1) Səfeh olaraq həddi-büluğa çatanlar:* Alimlər, *"Allahın sizə həvalə etdiyi mallarınızı, səfehlərə verməyin. Onlara bunlardan yedirdin, geyindirin, onlara gözəl söz söyləyin. Yetimləri nikah etdikləri həddi-büluğ yaşına qədər sınayın. O vaxt gəlib çatanda onlarda ağıl və düzəlmə müşahidə edərsənizsə mallarını onlara qaytarınız"* [82] ayələrinə istinad edərək hədd-büluğa səfih olaraq çatan şəxsə malının verilməməsinə dair fikir birliyi etmişdirlər. İmam Azam 25 yaşına qədər vəziyyətini düzəltməsə belə malın ona verilməsini irəli sürmüşdür. Digər imamlar isə onun haqq məhdudiyyətinin davam edəcəyini, hüquqi olaraq müməyyiz uşaq kimi qəbul ediləcəyini bildirmişdirlər.

*2) Yetkinlik çağına çatdıqdan sonra səfeh olanlar:* Əbu Hənifə, səfehin haqlarının məhdudlaşdırılmasını onun hürriyətini zədələyəcəyini irəli sürərək qəbul etməz. Digər alimlər isə səfehin həcr altına alına bilənəcəyini ifadə edərlər. Hüquqşünaslar ictimai mənfəəti nəzərə alaraq səfehin həcr altına alınmasının daha uyğun olduğunu irəli sürürlər. Əks halda səfeh malını xərcləyərək hər şeyini əlindən çıxarar və nəticədə cəmiyyətə yük olarlar.

Səfehin haqq və mükəlləfiyyətləri:

*1) Dini vəzifələri:* Səfeh, büluğa çatan bir şəxs kimi dini ibadətlərlə mükəlləfdir. Namaz, oruc, həcc, zəkat kimi ibadətləri yerinə yetirmək məcburiyytindədir.

---

82 Nisa 5/6.

*2) Haqsız felləri və cinayətləri:* Səfeh rəşid şəxslər kimi haqsız fellərindən məsuldur. Tələf etdiyi malları ödəməklə mükəlləfdir. İşlədiyi cinayətlərə görə cəzalandırılar. Məsələn, qəsdən adam öldürmə cinayətinə görə qisas tətbiq edilər. Zina cinayətinə görə də hədd cəzası tətbiq edilər.

*3) Hüquqi müamilələri:* Səfehin həcrindən əvvəlki müamilələri, rəşid bir şəxsin müamilələri kimi qəbul edilir. Məhcur səfehin alqı-satqı, kirayə kimi müamilələri müməyyiz uşağın müamilələri hökmündədir. Qanuni nümayəndələrinin icazəsinə bağlı olaraq hökm ifadə edər. Məhcur səfehin hədiyyə, hibə etmək kimi zərərinə olan müamilələri isə hökm ifadə etməz. Səfehin hədiyyə qəbul etmək kimi mənfəətinə olan müamilələri isə qanuni nümayəndəsinin icazəsinə bağlı olmadan hökm ifadə edər. Nikah, boşama kimi müamilələri isə səhih və qanuni hesab edilir.

*4) Mal ilə əlaqəli mükəlləfiyyətləri:* Səfehin özünün və nəfəqəsi üzərinə vacib olanların nəfəqəsi malından ödənilir.

**g) Səfər**

Səfər əsnasında namazlarda bir asanlıq olduğu kimi oruc tutmamaq üçün rüxsət vardır. Ayrıca səfərdə olan şəxsə cümə və bayram namazları də fərz deyildir. Digər fərzlərdə bir fərqlilik yoxdur. Bu məsələ daha çox rüxsətlə əlaqəli bir məsələdir.

# III FƏSİL
# HÖKM ƏLDƏ ETMƏ METODLARI

## LƏFZLƏR BƏHSİ

## I. QOYULDUĞU MƏNA BAXIMINDAN LƏFZ

Qoyulduğu məna baxımından ləfzlər üç qismə bölünür:

### A. Xass

Tək başına bir məna ifadə etmək üçün qoyulmuş ləfzdir. Məsələn, xüsusi adlar (ay, Bakı, Əli), cins isimlər və növləri (insan, dəvə, ağac) və ya (kişi, qadın, alma) və ədədlər 1, 1453.

Xass ləfzin hökmü, dəlalət etdiyi mənanı qəti surətdə ifadə edir və əksinə dəlil olmadıqca həmin mənadan başqa mənaya gəlmədiyi mövzusunda alimlər həmfikirdir.

Xass ləfzin təvili: Xass ləfzin təvilinə dair bir dəlil mövcud olarsa dəlilin göstərdiyi mənaya görə izah olunur. Məsələn, في كل أربعين شاة شاة [83] hədisindəki qoyun kəlməsini hənəfilər, qoyun və ya onun dəyəri kimi izah etmişdirlər.

Xass ləfz də öz növbəsində bir neçə qismə bölünür:

**1. Mütləq**

Dəlalət etdiyi fərdlərdən hər hansı birini ifadə edir. Məsələn, kitab/kitablar, quş/quşlar və s.

Mütləq ləfzin hökmü, bir nəsdə mütləq olaraq qeyd edilən ləfz, başqa bir nəsdə müqəyyəd (qeyd-şərtli) olaraq qeyd altında alınmamışsa, mütləq kimi əməl olunur və müqəyyəd olduğuna dair bir dəlil olmadıqca onun hər hansı bir şəkildə müqəyyəd edilməz.

83. Tirmizi, Zəkat, 4.

Mütləq ləfzlə amm ləfzin fərqi, mütləq, dəlalət etdiyi fərdlərdən hər hansı birini ifadə edir. Ancaq amm isə, dəlalət etdiyi fərdlərin hamısına şamildir.

**2. Müqəyyəd**

Dəlalət etdiyi fərdlərdən hər hansı birini ifadə etməklə yanaşı, bir vəsflə qeyd olunduğuna dair bir dəlil mövcuddur. Məsələn, Azərbaycanlı oğlan, qiymətli kitab/kitablar.

Müqəyyəd ləfzin hökmü, bir nəsdə mütləq olaraq keçən bir ləfz, başqa bir nəsdə mütləq kimi keçməmişsə, müqəyyəd kimi əməl olunur və həmin qeyd-şərtin ortadan qaldırıldığına dair bir dəlil olmadıqca bunun ortadan qaldırılması düzgün deyildir.

Mütləq ləfzin müqəyyəd ləfzə tabe olması (həml):

Mütləq ləfz aşağıdakı hallarda müqəyyəd ləfzə tabe olur:

a) Həm səbəbləri, həm də hökmləri eyni olarsa, mütləq müqəyyədə tabe olur. Məsələn, Quranda bir ayədə "الدم" (qan)[84], başqa bir ayədə isə, "دما مسفوحا" (axan qan) [85] ifadəsi keçir. Sözügedən ayələrdə qanın haramlığından bəhs olunur. Beləliklə də birinci ayə ikinci ayəyə tabe edilərək "axan qanın" yeyilməsinin haram olduğu hökmü əldə edilir.

b) Həm hökmləri, həm də səbəbləri fərqli olarsa, mütləq müqəyyədə tabe olmaz. Məsələn, oğurluq edənin əli kəsilir. Bunu ifadə edən ayədə "əl"[86] kəsilməsi mütləqdir. Dəstəmaz alarkən əlləri dirsəklərə qədər yuyun. Bunu ifadə edən ayədə " əl"[87] kəlməsi dirsək ləfzi ilə müqəyyəd olmuşdur. Sözügedən ayələrdə hökm və səbəb baxımından heç bir əlaqə olmadığı üçün birinci ayədəki mütləq ləfz, ikinci ayədəki müqəyyəd ləfzə tabe olmaz.

c) Səbəbləri fərqli, hökmləri eyni olarsa, hənəfilərə görə, mütləq müqəyyədə tabe olmaz. Ancaq əksər alimə görə, mütləq müqəyyədə tabe olur. Məsələn, zihar ayəsində[88] kəffarə olaraq qul azad olunması əmr

84. Bax.Maidə, 5/3.
85. Bax.Ənam, 6/145
86. Bax.Maidə, 5/38.
87. Bax.Maidə, 5/6.
88. Bax.Mücadilə, 58/3.

olunur. Xətaən adam öldürmədə[89] isə, mömin qul azad etmək əmr olunur. İki ayədə də hökm eynidir, yəni qul azad etməyin vacibliyi. Ancaq səbəbləri fərqlidir. Belə ki, birincidə zihar, ikincidə isə xətaən öldürmə səbəb kimi irəli sürülür.

d) Hökmləri fərqli, səbəbləri eyni olarsa mütləq müqəyyədə tabe olmaz. Dəstəmaz ayəsinə görə əllər dirsəklərə qədər yuyulmalı, təyəmmüm ayəsinə[90] görə isə, sadəcə əl yuyulmalıdır. İki ayənin də səbəbi eynidir, yəni ibadət etmək üçün təmizlikdir. Ancaq hökmləri fərqlidir. Birincisi dəstəmaz almaq, digəri isə təyəmmüm almaq. Odur ki, mütləq müqəyyədə tabe olmaz.

### 3. Əmr

Bir şeyin qətiyyətlə yerinə yetirilməsini istəmək üzrə istifadə olunan ləfzdir. Əmr ifadə edən tələb üç tərzdə olur:

a) Əmri-hazır formasında, أقيموا الصلوة [91]

b) Əmri-ğaib formasında, وليوفوا نذورهم.[92]

c) Tələb mənasında xəbəri-cümlə, والوالدات يرضعن أولادهن [93]

Əmrin dəlaləti, əskər alimə görə vaciblik bildirir. Belə ki, mücərrəd olaraq istifadə olunan əmr ləfzi vaciblik ifadə edir. Əmrin nədb və yaxud ibahəyə dəlaləti qərinə ilə gerçəkləşir.

Qadağa qoyulduqdan və haram edildikdən sonra gələn əmr: Bu kimi əmr formasındakı ləfzlər mübahlığa dəlalət edir. İmam Şafi və bəzi üləma qadağadan sonra gələn əmrlərin əksər halda ibahəyə dəlalətini əsas alaraq bu nəticəyə gəlmişlər.

Hənəfilərin əksəriyyəti və bəzi şafilər vaciblik ifadə etdiyi fikrini mənimsəmişdirlər. Çünki hər hansı bir qərinəyə tabe olmayan əmr normal vəziyyətdə vaciblik bildirir. Onun vaciblikdən çıxması üçün sadəcə qadağadan sonra gəlməsi kifayət deyildir.

89. Bax.Nisa, 4/92.
90. Bax.Maidə, 5/6.
91. Bax.Bəqərə, 2/43.
92. Bax.Həcc, 22/29.
93. Bax.Bəqərə, 2/233.

Bu kimi ləfzlər qadağanı və haramlığı eyni zamanda ortadan qaldırır və əmr olunan şeyin qadağadan əvvəlki (mübah, vacib və s.) hökmünün geri qayıtmasını təmin edir. Hənəfilərdən Kamal ibn Hümam bu fikri mənimsəmişdir.

Əmr, əmr olunanın gələcəkdə yerinə yetirilməsinin tələb olunduğunu göstərir. Əmr olunanın təkrarına dəlalət isə, əmr ləfzinə görə təyin edilməz. Bu dəlalət, əmri əhatə edən qərinələrdən çıxarılır.

Əmrin özü, əmr olunanın fövrənmi yoxsa təraxiyənmi yerinə yetirilməsinə dəlalət etməz. Bu ancaq əmri əhatə edən arqumentlərdən aydın olur.

**4. Nəhy**

Qüdrət sahibinin bir felin edilməməsini qətiyyətlə istəməsi üzrə qoyulmuş bir ləfzdir.

Nəhy ləfzləri:

a) Nəhyi-hazır və nəhyi-ğaib, ولا تقتلوا النفس التي حرم الله الا بالحق [94]

b) Feldən imtina etməyi və əl çəkməyi bildirən əmr, وذروا البيع [95]

c) “Nəhy” məsdərindən törəyən fellərlə, وينهي عن الفحشاء و المنكر [96]

d) “Təhrim” məsdərinin fel formaları ilə, حرمت عليكم امهاتكم [97]

e) “Əhəllə” məsdərinin nəfyi ilə,ولا يحل لكم ان تاخذوا [98]

Nəhyin dəlaləti: Üsulşünaslar əmrin dəlalətində olduğu kimi, qərinədən mücərrəd nəhyin dəlaləti mövzusunda da ixtilaf etmişlər:

Əksər alimə görə, nəhy, qadağan olunan felin haramlığına dəlalət edir və xüsusi bir qərinə olmadıqca başqa mənaya çəkilməz.

Bəzi üsulşünaslara görə, nəhy, qadağan olunan felin məkruh olduğunu bildir

94. Bax.İsra, 17/33.
95. Bax. Cümə, 62/9.
96. Bax. Nəhl, 16/90.
97. Bax. Nisa, 4/23.
98. Bax. Bəqərə, 2/229.

Bəzi üsulşünaslara görə isə nəhy, haram və məkruh arasındadır. Qərinə olmadıqca heç birinə dəlalət etməz.

Nəhyin, qadağa qoyulan feldən dərhal əl çəkməyə dəlalət etdiyində üsulşünaslar həmfikirdir. Mükəlləf bunu dərhal tərk etməli və bir daha əsla yaxınlaşmamalıdır.

**B. Amm**

Tək vəz və tək məna ilə həddsiz bir şəkildə bütün fərtləri əhatə edən fərzə deyilir.

**1. Amm ləfzin növləri**

Mərifə olan cəmlər, mərifə müfrədlər, istiğraq (əhatə etmə) ifadə edən (ال) ilə mərifəyə muzaf olan kəlmələr. Ləfzi müfrəd, mənası amm olan ləfzlər. Məsələn, rəht, ceyş, qövm kimi kəlmələr. Cəmi və küll ləfzləri, ismi mövsullar, istifham isimləri, şərt isimləri. nəfydən sonra gələn nəkrə kəlmə.

**2. Dəlaləti və hökmü**

*a) Hənəfilər:* Amm ləfzi qətiyyət bildirir. Odur ki, təxsis edilmədikcə (xüsusiləşdirilmədikcə) dəlalət etdiyi fərdlərin hamısı haqqında qəti hökm bildirir.

Təxsis edilən (mədudlaşdırılan) amm, geridə qalan fərdlərinə dəlaləti zənnidir. Məsələn: *“müşrikləri harda görsəniz öldürün”* Tövbə surəsinin 5-ci ayəsi müstəminlərin öldürülməməsi ilə əlaqədar bir başqa ayə ilə təxsis edilmiş və amm zənni olmuşdur. Bu səbəblə *“yaşlıları və uşaqları oldürməyin”* ahad hədis ilə bir daha təxsis edilmişdir.

b) *Əksəriyyət (cümhur):* Amm ləfzi təxsisdən əvvəl də sonra da əhatə etdiyi fərdlərin hamısına qəti yox, zənni olaraq dəlalət edir. Çünki bir neçə istisnası olmaqla yanaşı, təxsis edilməmiş amm demək olar ki, yoxdur. Belə olan halda dəlaləti zənnidir.

Xülasə, İslam hüquqşunasları Qurandakı amm ləfzin Quran, mütəvatir sünnə və ya məşhur hədislə təxsis olunduğunda həmrəydir.

Hənifələrə görə ahad hədislə təxsis caiz deyildir. Əksər alimə görə isə caizdir. Belə ki, xəbəri-vahidin sübutu zənni, dəlaləti qətidir. Quranın isə amm ləfzinin sübutu qəti, dəlaləti zənnidir. Odur ki, bunlar bir-biri ilə eynidir.

**3. Amm xass təzadlığı:**

*a) Əksəriyyət (Cümhur):* Amm ilə xass arasında hər hansı təzadlıq əmələ gəlməz. Əgər hər hənsı təzadlıq olarsa, dəlalət etdiyi qədər xassa görə, bundan sonra amma görə əməl olunur.

b) *Hənəfilər:* Amm ilə xass təzadlığı dörd halda meydana gəlir:

1) İki dəlildən hər ikisi eyni vaxtda nazil və ya varid olmuşsa xass ammı təxsis edər.

2) Xass dəlili, ammdan sonra varid olmuşsa şamil olduğu miqdarı nəsx edər. Məsələn: "*namuslu qadınlara böhtan atıb dörd şahid gətirə bilməyənlər ...*" [99] ayəsində böhtan atan hər kəsə həddi-qəzf tətbiq olunmalıdır. Buna müqabil *"öz həyat yoldaşlarına zina iftirası atıb özlərindən başqa şahid gətirə bilməyənlər ..."* [100]ayə birinci ayəni şamil olduğu nisbətdə nəsx edir.

3) Amm dəlili xassdan sonra varid olsa xassın hökmünü nəsx edər. Məsələn: sidik içib yaxşılaşan bədəvi hədisində bu caiz ikən daha sonra *"sidikdən uzaq durun"* hədisi ilə qadağan edilmişdir.

4) Amm ilə xassın varid olma tarixi bilinmirsə, hənəfilərə görə, hər ikisinə görə də əməl oluna bilər və ya hansı daha üstün isə ona əməl olunur, bu üstünlük təsbit oluna bilməzsə tərk olunur. Əksər alimə görə isə, sözügedən vəziyyətdə ümumi hədis təxsis olunar.

**4. Ammın təxsisi**

Təxsisin növləri:

*a) Qeyri-müstəqil (müttəsil) müxəssis:*

Müttəsil təxsisi əksər üləma qəbul edir. Hənəfilər bunu təxsis kimi qəbul etməz, buna həsr və ya qəsr adı verirlər. Bu növə aşağıdakı misallar verilə bilər:

---

99. Nur, 24/4
100. Nur, 24/6

1) İstisna ilə ammın təxsisi: الا/غير/عدا/خلا/ليس

2) Şərt ilə ...: ان/اذا/من/مهما

3) Sifət ilə ...: الغنم الساءمة

4) Qayə ilə ...: الى/حتى

b) *Müstəqil (münfəsil) müxəssis:*

1) Ağıl: Bəzən təxsis olduğunu ağıl qəbul edir.

2) Örf: Amm örflə təxsis oluna bilər. Hənəfilər və əksəriyyət (cümhur) qəbul edir.

3) Amma bitişik (müttəsil), müstəqil (münfəsil) nəss: Hənəfilər və əksəriyyət bunu qəbul edir. Ya eyni ayədə olur, ya da ardarda iki ayə ola bilər.

4) Ammdan ayrı, müstəqil (münfəsil) müxəssis. Bunu sadəcə əksəriyyət (cümhur) qəbul edir.

Xülasə, təxsislə əlaqədar məzhəblərin gəldiyi qənaət belədir:

*Hənəfilərə görə:* Müxəssis zaman baxımından amm ilə birlikdə gəlməli, əgər amm dəlildən əvvəl və ya sonra gələrsə buna nəsx adı verirlər. Müxəssis müstəqil olmalıdır, əks təqdirdə şərt, istisna, sifət əmələ gəlir ki, buna hənəfilər qəsr adı verirlər.

*Əksəriyyət (cümhur):* Təxsis amm olan nəssə müqarin olan və ya olmayan bir dəlillə ola bilər. Amma görə əməl edildikdən sonra gələn dəlil təxsis deyil, nəsxdir. Zənni dəlil ilə təxsis ola bilər.

Nəsxlə təxsisin fərqi: Nəsx amma daxil olan ləfzləri sonradan çıxarır. Təxsis isə, bəzi ləfzləri başlanğıcdan etibarən amma daxil olmadığını qəbul edir.

Təxsisi mümkün olub-olmayanlar:

1) Təxsisi mümkün olmayan amm: Məsələn, *“Allah hər şeyi bilir”* ayəsi.

2) Təxsis edilmiş amm: Məsələn,*“Allah alqı-satqını halal, faizi isə haram etdi”* ayəsi.

3) Təxsis nəzərdə tutulan amm: Məsələn, *“Onun yoluna (ərzaq, minik, və sağlamlıq baxımından) gücü çatan hər bir kəsin həccə gedib o evi ziyarət etməsi insanların Allah qarşısında borcudur.”* [101] ayəsi.

Ammın nüzul və vürud səbəbləri ilə təxsis edilib-edilə bilməyəcəyi: Amm olaraq gələn bir nəssi nüzul və ya vürud səbəbinə həsr etmək düzgün deyildir. Amm bütün müştərək fərdlərinə şamildir. Səbəbin xüsusi olması hökmün ümumi olmasına mane olmaz.

## C. Müştərək

İki və daha çox məna üçün qoyulmuş ləfzdir. Məsələn, القرء/العين/المولى kəlmələri.

Dildə müştərək ləfzlərin meydana gəlməsinə səbəb olan bir çox amil mövcuddur. Məsələn:

1) Ərəb qəbilələri arasındakı fərqliliklər.

2) Bir ləfz iki məna arasında ortaq bir məna üçün qoyula bilər.

3) Bir ləfz, əvvəlcə bir məna üçün qoyulub, daha sonra eyni ləfzi məcaz yolu ilə “əlaqəyə” əsasən başqa bir mənada istifadə olunur.

Müştərək ləfzin hökmü: Ləfzdə əsas olan müştərək olmamaqdır. Şayət ləfzin həm müştərək olduğu, həm də müştərək olmadığı ehtimalı varsa, müştərək olmama ehtimalı əsas alınır. Müştərəklik vəsfi gerçəkləşdiyi təqdirdə, ləfzin dəlalət etdiyi mənalardan heç biri, qərinə və ya işarə mövcud olmadıqca əsas alına bilməz. Ancaq dəlil, işarə və qərinələrdən biri mövcud olarsa, onlardan bir mənası əsas alınır və artıq bu ləfz müştərəklikdən çıxar müəvvəl olar. Habelə müştərək qəti dəlillə şərh olunsa müfəssər adını alar.

Müştərək ləfzin ümumu: Müştərək ləfzin istifadə olunduğu mənaların hər birinin qəsd olunması təbiidir. Bu mövzuda aşağıdakı rəylər mövcuddur:

1) Müştərəklə ümum qəsd olunmaz. Müştərək ancaq bir mənada istifadə olunur. Əksər üsulşunaslar və hənəfilər bu rəyi mənimsəmişdirlər.

101. Ali-İmran, 3/97.

2) Müştərək bəzən bir-birinə zidd iki mənada istifadə olunur. Ancaq bu iki mənanın birlikdə qəsd olunması qeyri-mümkündür. Müştərək ləfzin mənaları ayrı-ayrı qoyulmuşdur. Odur ki, bu mənaların hamısını birdən ifadə edə bilməz. Müştərəklə ümum qəsd olunması mənfi ifadələrdə olur. Müsbətlərdə olmaz. Məsələn, filanın mövlaları ilə danışmayacağam, deyən şəxs həm azad, həm də azad etdikləri ilə danışa bilməz, danışarsa andı pozular.

**D. Təvil**

Ləfzin bir dəlilə əsasən zahir mənasından alınaraq zahir olmayan başqa bir mənaya çəkilməsidir. Həmin ləfzə də müəvvəl deyilir.

Şərtləri:

1) Ləfz, təvil edilməyə uyğun bir ləfz olmalıdır.

2) Ləfzin təvil olunduğu məna, həmin ləfzin ehtimal və ya məcaz yolu ilə də olsa dəlalət etdiyi mənalardan olmalıdır.

Təvil, ləfzin zahir mənasından alınaraq başqa mənaya çəkilə bilməsinə dair əlverişli şəri bir dəlilə əsaslanmalıdır.

Növləri:

1) Qərib: ağıla asanlıqla gələn təvil.

2) Bəid: ağla asanlıqla gəlməyən təvil.

Müştərək ləfzin müxtəlif mənalarından biri zənni bir dəlil ilə və ya rəy ilə digər mənalardan seçilərsə buna müəvvəl deyilir.

Bəziləri xəfi, müşkil, mücməl, zahir və nəssin seçilən mənalarına da müəvvəl adını vermişdirlər. Bunların qapalılığı da xəbəri-vahid və ya qiyas ilə ortadan qaldırıla bilər.

Qəti bir dəlil ilə müştərək ləfzin qapalılığı ortadan qaldırılarsa buna müfəssər adı verilir.

Müştərək ləfzi təvil edərkən tutulan metod: Müştərək ləfzdən nəzərdə tutulan məna təsbit olunarkən aşağıdakı yollar təqib olunur:

a) Ləfzin tərkibinə baxılır: Müştərək ləfzin hansı kökdən törədiyi və bu kökün mənası araşdırılır. Məsələn, hənəfilər “qur” kəlməsinin mənasının cəm etmək olduğunu nəzərə alaraq bu kəlmənin heyz (aybaşı) mənasına gəldiyi fikrini mənimsəmişdirlər. Çünki aybaşı halında qan ana rəhmində cəmləşir.

b) Ləfzin əvvəlinə (sibaq) baxılır: Müştərək ləfzdən əvvəlki kəlməyə baxılır. Hənəfilərin “qur” kəlməsindən əvvəlki kəlmə olan “səlasə (üç)” ləfzi xüsusi ləfz olduğu və qətiyyət ifadə etdiyi üçün “qur” kəlməsinə ay başı mənası verməklə xüsusiliyin qətiliyi ortaya çıxır. Təvilin düzgünlüyünü təsdiq edir.

c) Ləfzin gəlişinə (siyaq) baxılır: Məsələn; Rəd surəsindəki səcdə ləfzinin boyun əymə mənasına gəldiyi siyaqdan anlaşılır.

d) Müştərək ləfzlə əlaqədar digər dəlillərə baxılır:

Ay başından kəsilənlərin iddət müddəti üç aydır ayəsi digər ayədəki “üç qur” ifadəsi ilə eynidir. Çünki “yəs” ay başı ilə olur. Habelə təmizlikdən kəsilmə anlayışı yoxdur. Odur ki, bu təvil “qurun” ay başı olması təvilini doğrulayır.

Müəvvəlin hökmü: Xətalı olma ehtimalına baxmayaraq buna əməl olunması labüddür. Ancaq təvilin xətalı oduğu qənaətinə gələn bunu tərk etməlidir.

## II. İSTİFADƏ OLUNDUĞU MƏNA BAXIMINDAN LƏFZ

### A. Həqiqət

Qoyulduğu mənada istifadə olunan ləfzdir. Həqiqət də öz növbəsində üç qismə bölünür:

1) Lüğəvi həqiqət: Qoyularkən lüğət mənası nədirsə həmin mənada istifadə olunan ləfzdir. Məsələn, الشمس/القمر.

2) Şəri həqiqət: Şarinin qəsd etdiyi mənada istifadə olunan ləfzdir. Məsələn, الصلوة/الزكوة.

3) Adətdən əmələ gələn həqiqət: Bir ləfzin xalqın vərdiş etdiyi adət və istifadə olunması ilə müəyyən mənaya dəlalət etməsidir. Məsələn, السيارة Bu da öz növbəsində iki qismə bölünür:

a) Ümumi adət: Ümumiyyətlə xalqın istifadə etdiyi ləfzdir.

b) Xüsusi adət: Elm və peşə sahiblərinin istifadə etdikləri spesifik terminlərdir.

Həqiqətin hökmü, bu ləfz üçün qoyulan mənanın  sabit olmasıdır. Hökm bu mənaya görə verilir. Eyni zamanda məcazdan üstündür.

**B. Məcaz**

Həqiqi mənasının qəsd olunmadığını göstərən bir “əlaqə” və ya “qərinədən” ötrü qoyulduğu mənadan başqa bir mənada istifadə olunduğuna qərar verilən ləfzdir.

Əlaqə, ləfzi eşidən şəxsin zehnində ləfzin həqiqi mənası ilə istifadə olunduğu məna arasında qurulan rabitə deməkdir. Əlaqə iki cür olur;

1) Müşabihə (oxşarlıq): Ləfzin həqiqi mənası ilə məcazi mənasının müəyyən müştərək vəsfdə oxşaması və birləşməsidir. Buna istiarə də deyilir.

2) Məcazi–mürsəl: Qərinə, bir ləfzin həqiqi mənasında istifadə olunmadığını göstərən işarə deməkdir. Qərinə hissi, hali və şəri ola bilər.

Məcazın hökmü, həqiqi mənaya çəkilə bildiyi müddətcə məcazi mənaya görə qərar verilə bilməz. Ancaq həqiqi mənaya görə ləfzi başa düşməyə mane olan bir əlaqə və ya qərinə mövcud isə bu vaxt həmin istiqamətdə qərar vermək gərəkdir.

**C. Sərih**

İstər həqiqi, istər məcazi mənasında olsun, çox istifadə olunduğu üçün nəzərdə tutulan mənasının açıqca başa düşüldüyü ləfzdir.

Sərihin hökmü, söyləyən şəxsin niyyətinə baxılmadan nəticənin meydana gəlməsidir. Məsələn, bir şəxsin “satdım” digərinin də “aldım” deməsi ilə başqa hər hansı bir araşdırmya ehtiyac olmadan alqı-satqı əqdinin bağlandığına dair hökm sərih sözün imənasına görə verilir.

### D. Kinayə

Nəzərdə tutulan mənasının dərhal başa düşülmədiyi ləfzdir.

Kinayənin hökmü, lüzumunun ancaq niyyətə və vəziyyətin dəlalətinə görə sabit olmasıdır.

## III. MƏNAYA DƏLALƏTİNİN AÇIQLIĞI VƏ QAPALILIĞI BAXIMINDAN LƏFZ

### A. Açıqlıq cəhətindən ləfzin növləri

Mənaya dəlalətinin açıqlığı cəhətindən ləfz dörd qismə bölünür:

#### 1. Zahir

Mənasının anlaşılması üçün əlavə bir qərinəyə ehtiyac duyulmayacaq qədər həmin mənaya açıq dəlalət edən, ancaq təvil və təxsis ehtimalı olan və sözün əsl məqsədi olmayan ləfzdir. Məsələn, *“Sələm (müamilə, faiz) yeyənlər (qiyamət günü) qəbirlərindən ancaq Şeytan toxunmuş (cin vurmuş dəli) kimi qalxarlar. Bunların belə olmaları: “Alış-veriş də sələm kimi bir şeydir!” - dedikləri üzündəndir. Halbuki, Allah alış-verişi halal, sələm (faiz) almağı isə haram (qadağan) etmişdir. İndi hər kəs Rəbbi tərəfindən gələn nəsihəti qəbul etməklə (bu işə) son qoyarsa, keçmişdə aldığı (sələmlər) onundur (ona bağışlanar). Onun işi Allaha aiddir. Amma (yenidən sələmçiliyə) qayıdanlar cəhənnəmlikdirlər və orada həmişəlik qalacaqlar!”*[102] ayəsi alqı-satqının halallalığı və faizin (sələmin) haramlılığı hər hansı bir qərinəyə ehtiyac duyulmadan açıq-aşkar anlaşılır. Odur ki, bu mənalar zahirdir. Ancaq ayənin əsl məqsədi isə faiz (sələm) və alqı-satqının fərqli şeylər olduğunu ortaya qoymaqdır ki, buna “nəss” deyilir.

Zahir ləfzin hökmü, əksinə dəlil olmadıqca ləfzdən çıxan zahiri mənaya görə əməl etməkdir. Zahir ləfz ümumi isə xüsusi edilməsinə, mütləq isə qeyd-şərt gətirilməsinə dair dəlil olmadığı müddətcə olduğu kimi qalır. Belə olan halda təxsisə və təqyidə ehtimal olduğu açıq-aşkardır. Nəsxi isə yanlız Hz. Peyğəmbər dövründə mümkündür.

---

102. Bəqərə, 2/275.

**2. Nəss**

Mənasına açıq-aşkar dəlalət edən və çıxarılan hökmün sözün əsl məqsədini ifadə edən, bununla yanaşı təvil və təxsis ehtimalı olan ləfzdir.

Yuxarıdakı ayədə də qeyd olunduğu kimi alqı-satqı ilə faizin (sələmin) bir-birindən fərqli olduğunu vurğulamaq ayədən güdülən əsas məqsəddir və buna "nəss" deyilir.

Nəss ləfzin hökmünə gəldikdə, ona əməl etmək vacibdir. Təvil və təxsisə ehtimalı vardır. Ancaq zahir ləfzə nisbətlə daha azdır. Hz. Peyğəmbər dövründə nəsx oluna bilər.

**3. Müfəssər**

Hökmə açıq-aşkar dəlalət edən, təvil və təxsis ehtimalı olmayan ləfzdir. Məsələn, *"İsmətli qadınlara zina isnad edib, sonra (dediklərini təsdiqləyəcək) dörd şahid gətirə bilməyən şəxslərə səksən çubuq vurun və onların şəhadətini heç vaxt qəbul etməyin. Onlar sözsüz ki, (Allahın itaətindən çıxmış) əsl fasiqlərdir."* [103] Bu ayədə keçən (səksən) ləfzi müfəssərdir. Əksiklik və ya artıqlıq ehtimalı yoxdur. Ayənin mənası açıq və qətidir. Belə olan halda sözügedən ayə müfəssərdir.

Müfəssər ləfzin hökmü, qətiyyətlə dəlalət etdiyi mənaya müvafiq olaraq əməl olunmalıdır. Təvil və təxsisə ehtimalı yoxdur. Nəsxi yanlız Hz. Peyğəmbər dövründə ola bilər. Onun vəfatı ilə nəsx ehtimalı ortadan qalxmışdır.

**4. Möhkəm**

Hökmə dəlaləti açıq və qətidir. Təvil, təxsis və Hz. Peyğəmbərin həyatında belə nəsxə ehtimalı olmayan ləfzdir. Məsələn, *"Sizə Allahın Peyğəmbərini incitmək, özündən sonra onun zövcələri ilə evlənmək əsla yaraşmaz."* [104]

Möhkəm ləfzin hökmü, qətiyyətlə dəlalət etdiyi mənaya müvafiq olaraq əməl olunmalıdır. Zahiri baxımdan anlaşılan mənanın başqa bir mənaya gələ bilmə ehtimalı olmamaqla yanaşı nəsx və ortadan qaldırılması da qeyri-mümkündür.

---

103. Nur, 24/4.

104. Əhzab, 33/53.

Onu da qeyd etmək lazımdır ki, sözügedən ləfzlər arasında təzadlıq əmələ gələ bilər. Odur ki, bu ləfzlərin arasında təzadlıq əmələ gəldikdə, necə uzlaşmalı və hansına əməl olunması barədə aşağıda məlumat veriləcək:

a) Zahir ilə nəss arasında təzadlıq: Məsələn, *"Bunlardan başqaları isə namusla (iffətlə), zinakarlığa yol vermədən, mallarınızı sərf edərək evlənmək üçün sizə halal edildi"*[105] və *"Əgər yetim qızlarla (evlənəcəyiniz təqdirdə) ədalətlə rəftar edə bilməyəcəyinizdən qorxarsınızsa, o zaman sizə halal olan (bəyəndiyiniz) başqa qadınlardan iki, üç və dörd nəfərlə nikah bağlayın! Əgər (onlarla da) ədalətlə dolanmağa əmin deyilsinizsə, o halda təkcə bir nəfər (azad) qadın və ya sahib olduğunuz kənizlə evlənin (yaxud: o halda təkcə bir nəfər azad qadınla evlənin və ya əlinizin altında olan kənizlərlə kifayətlənin). Bu, ədalətli olmağa (ədalətdən kənara çıxmamağa) daha yaxındır"*[106] ayələrində, birinci ayənin dörddən çox qadınla evlənməyə dəlaləti zahiridir. İkinci ayə isə dörd qadınla evliliyə icazə vermək məqsədini daşıyır və dəlaləti "nəss" olan bir ayədir. Məhz bu səbəblə ikinci ayəyə əməl olunmalıdır.

b) Nəss ilə müfəssər arasında təzadlıq: Fatma binti Əbu Hubeyş davamlı istihazəli olduğunu deyir, Hz. Peyğəmbər bunun üzr qanı olduğunu "hər namaz" və ya "hər namaz vaxtı" üçün dəstəmaz alaraq namaz qılmasını əmr edir: توضئي لكل صلاة/ توضئي لوقت كل صلاة [107]

Birinci hədis hər namaz üçün dəstəmazın vacibliyinə "nəss" olaraq dəlalət edir. İkinci hədis isə hər namaz vaxtı üçün bir dəstəmazın kifayət olduğunu "müfəssər" bir ləfzlə bəyan edir. Odur ki, birinci hədisin təvil və təxsisi mümkün olarkən, ikinci hədisin ehtimalı yoxdur.

Mökəm ilə nəss arasında təzadlıq: Məsələn, *"sizə analarınız, qızlarınız, bacılarınız, bibiləriniz, xalalarınız, qardaş və bacılarınızın qızları, süd analarınız, süd bacılarınız, arvadlarınızın anaları və yaxınlıq etdiyiniz qadınlarınızın himayənizdə olan qızları (ögey qızlarınız) ilə evlənmək haram edildi. Cinsi əlaqədə olmadığınız qadınlarınızın qızları ilə evlənmək*

105. Nisa, 4/24.

106. Nisa, 4/2.

107. Buxari, Vüzu, 63; Müslim, Heyz, 62, 63; Əbu Davud, Təharət, 11; Tirmizi, Təharət, 93; Əhməd İbn Hənbəl, VI, 6, 42, 82, 204, 262.

*isə sizin üçün günah deyildir. Öz belinizdən gələn oğullarınızın arvadları ilə evlənmək və iki bacını birlikdə almaq da sizə haramdır. Yalnız keçmişdə (Cahiliyyət dövründə) olan bu cür işlər müstəsnadır. Həqiqətən, Allah bağışlayandır, rəhm edəndir! Cihad vaxtı əsir olaraq) sahib olduğunuz (cariyələr) müstəsna olmaqla, ərli qadınları almaq Allahın yazısı (hökmü) ilə sizə (haram edildi). Bunlardan başqaları isə namusla (iffətlə), zinakarlığa yol vermədən, mallarınızı sərf edərək evlənmək üçün sizə halal edildi. İstifadə (mütə) etdiyiniz qadınların mehrlərini lazımi qaydada verin! Mehr müəyyən edildikdən sonra aranızda razılaşdığınız şeydən ötrü sizə heç bir günah yazılmaz. Həqiqətən, Allah (hər şeyi) biləndir, hikmət sahibidir!"*[108] və *"sizə Allahın Peyğəmbərini incitmək, özündən sonra onun zövcələri ilə evlənmək əsla yaraşmaz"* [109] ayələrində, birinci ayə, nikahın maneələrini sadaladıqdan sonra arxasınca ayənin "nəssinə" görə digərləri ilə nikahın caiz olduğunu göstərir ki, bunlara Hz. Peyğəmbərin xanımları da daxildir. İkinci ayə isə, Hz. Peyğəmbərin xanımları ilə evlənməyin əbədi olaraq qadağan olduğuna "möhkəm" ləfzlə dəlalət edir. Bu iki ayə arasında təzadlıq olduğu üçün "möhkəm" ayəyə əməl olunmalıdır.

## B. Qapalılıq cəhətindən ləfzin növləri

Mənaya dəlalətinin qapalılığı cəhətindən ləfz dörd qismə bolünür:

### 1. Xəfi

Tərkibi etibarilə mənası açıq olmasına baxmayaraq əhatəsinə daxil olan fərdlər haqqında dəlaləti qapalı olub, tədqiqat və ictihada ehtiyac duyulan ləfzdir. Məsələn, "*Oğru kişi ilə oğru qadının gördükləri işin əvəzi kimi Allahdan cəza olaraq (sağ) əllərini kəsin. Allah yenilməz qüvvət sahibi, hikmət sahibidir!*" [110] ayəsindəki "السارق" (oğru/oğurlayan) ləfzi oğurluq edən hər kəsə dəlaləti zahirdir. Ancaq "طرار" (cibgir) və "نباش" (kəfənsoyan) kimi oğru adını daşımayan, xüsusi ad verilən bu kimi cinayətlərə dəlaləti xəfidir. Çünki bunlar "sariq" olaraq deyil, başqa xüsusi bir adla adlandırılmışdır. Belə olan halda  tərəddüd ortaya çıxır. Belə ki, xüsusi adlarla adlanan bu ləfzlərin mənası "sariq" ləfzinin mənasından daha əhatəlidirmi? Bu

108. Nisa, 4/23, 24.
109. Əhzab, 33/53.
110. Maidə, 5/38.

səbəblə də bunlar da “sariq” ləfzin ifadə etidiyi mənada sayılarmı? Yoxsa bu ləfzlərin mənası “sariq” ləfzindən daha xəfif olduğu təsəvvür edilsə oğruya tətbiq olunan ehkam bunlara tətbiq edilməyəcəkmi?

Mücdəhidlər cibgirin sariqdən daha betər və ağır cinayət işlədiyinə qənaətinə gələrək oğurluq cəzasını ona da tətbiq etməyi uyğun hesab etmişdirlər. Odur ki, bu mövzuda icma meydana gəlmişdir. Ancaq müctəhidlər kəfənsoyan barəsində ixtilaf etmişdirlər. Əbu Hənifə və İmam Məhəmmədə görə “nəbbaş” oğrudan xəfifdir. Buna görə də tam oğurluq cinayəti təşəkkül etməmişdir. Əimmeyi–səlasə və Əbu Yusifə görə bu, tam olaraq oğurluq mənasını ehtiva edir və cəzası da oğurluq cəzası kimi olmalıdır.

Xəfi ləfzin hökmü, xəfi ləfzdəki qapalılıq əsas etibarilə ləfzdən deyil, onun tətbiq sahəsinin əhatəsindən irəli gəlir. Odur ki, dəlalətinin qapalı olduğu yerlərdə, ona ancaq dəqiq incələdikdən və dərin təfəkkürdən sonra əməl olunar. Əgər müctəhid ləfzin mənasının xəfi şeyləri əhatə etdiyi qənaətinə gələrsə, hökmü ona tətbiq edər. Əks təqdirdə başqa hökm çıxarar.

**2. Müşkil**

Mənasında qapalılıq olan və ya birdən çox mənaya gəldiyi üçün hansı mənaya dəlalət etdiyində qapalılıq olan ləfzdir.

Bu ləfzdən qəsd olunan məna, ancaq onu əhatə edən qərinə, əmarələrin araşdırılması və təfəkkürlə aydın olur. Məsələn, *“(Ey möminlər!) Qadınlarınız sizin (övlad əkdiyiniz) tarlanızdır. İstədiyiniz kimi öz tarlanıza gəlin”*[111] ayəsindəki “ənna” ləfzi, “keyfə” və “min eynə” mənalarında istifadə olunur. Odur ki, bu ləfzin mənası müşkildir. Başqa qərinələr səbəbilə bunun mənasının “keyfə” olduğu aydınlaşır.

Müşkil ləfzin hökmü, ləfzin ehtimallı olan mənalarını ələ alaraq ləfzi əhatə edən qərinələr vasitəsilə bu mənalardan hansının qəsd olunduğunu təsbit etmək üçün ictihad olunmalıdır.

111. Bəqərə, 2/223.

### 3. Mücməl

Sözü deyənin hər hansı izahı olmadan qəsd olunan mənanın bilinmədiyi ləfzdir. Ehkam ayələrinin əksəriyyəti mücməldir.

Mücməl ləfzin aşağıdakı növləri vardır:

a) Bir-biri ilə eyni dərəcədə birdən çox mənaya gələn və hansının qəsd olunduğunu müəyyən edən qərinə olmaması səbəbilə mücməl. Məsələn, الموالي kəlməsi.

b) Lüğət mənasından Şarinin qəsd etdiyi xüsusi mənada istifadə etdiyi mücməl. Məsələn, الصلوة/الزكوة kəlmələri kimi.

c) Ləfzin istifadə edildiyi mənasındakı qəriblik səbəbi liə mücməl. Məsələn, *"Həqiqətən, insan (sərvətə) çox həris (tamahkar və kəmhövsələ) yaradılmışdır!"* [112] Bu ayədəki هلوعا ləfzinin mənası mücməldir. Sonrakı ayələr bu ləfzin mənasını izah edir.

Mücməl ləfzin hökmü, tələffüz edən tərəfindən izah edilincəyədək gözləmək, kifayət qədər izah edilmədikdə də məqsədin nə olduğunu araşdırmaq labüddür.

Onu da qeyd etmək lazımdır ki, mücməl ləfzi tələffüz edən nöqsansız açıqlarsa müfəssər adını alar və ona əməl etmək vacib olar. Əgər açıqlama nöqsan olar və ya kifayət qədər olmazsa, müşkil adını alar. Belə olan halda araşdırılmalı və mənası tədqiq edilməlidir.

Faiz (sələm) haqqındakı hədislər mücməl olaraq varid olmuşdur. Məhz bu səbəblə müctəhidlər sələmin illətində ixtilaf etmişdirlər.

### 4. Mütəşabeh

Mənası qapalı olan ləfzdir. Nə kitab, nə də sünnədə təfsiri olmayan və mənası sırf Allah (c.c.) tərəfindən bilinən ləfzdir.

Şəri-əməli bir hökmü bəyan etmək üçün nazil olmuş bir mütəşabeh olmadığı üçün fiqhin predmeti deyildir.

112. Məaric, 70/19.

## IV. MƏNAYA DƏLALƏTİNİN ŞƏKLİ BAXIMINDAN LƏFZ

### A. Hənəfilərə görə

#### 1. İbarənin dələləti (nəssin ibarəsi)

Ləfzin, nəssin nazil olmasındakı əsl məqsədi və ya ona tabe olaraq qəsd olunan hökmə dəlalət etməsidir. Məsələn, و أحل الله البيع و حرم الربا ayəsində alqı-satqının halallığına, sələmin haramlığına və bunların fərqli şeylər olduğuna ibarəsi ilə dəlalət edir. Dəlalətlər içində ən qüvvətlisi ibarənin dələlətidir.

#### 2. İşarənin dələləti (nəssin işarəsi)

Ləfzin, ibarəsinin xaricində dəlalət etdiyi şeydir və ibarənin bir nəticəsi olaraq ortaya çıxır. İşarənin dələləti, ibarənin dələlətində olduğu kimi sözün ləfzindən anlaşılan hökmə deyil, bu hökmə əsasən dolayı olaraq anlaşılan hökmə dəlalət edir.

Sözügedən ləfzin aşağıdakı növləri vardır:

Açıq dəlalət: Bir az təfəkkürlə aydın olur. Məsələn, *"Oruc gecəsi qadınlarınıza yaxınlaşmaq sizə halal edildi. Onlar sizin, siz də onların libasısınız. (Bir-birinizə həddindən artıq yaxınsınız). Allah sizin özünüzə pislik (xəyanət) etdiyinizi (yaxud nəfsinizə qarşı zəiflik göstərəcəyinizi) bilib tövbələrinizi qəbul edərək sizi bağışladı; artıq siz onlara yaxınlaşın, Allahın sizə halal etdiyini onlardan istəyin; sübh açılınca, ağ sap qara sapdan fərqlənincəyə qədər yeyib için; sonra gecəyə qədər orucunuzu tamamlayın; məscidlərdə ibadətdə (etikafda) olduğunuz zaman onlarla (qadınlarınızla) yaxınlıq etməyin. Bunlar (bu hökmlər) Allahın hədləridir, bunları aşmayın! Allah (insanlara) hökmlərini bu cür bildirir ki, bəlkə, müttəqi olsunlar!"* [113]

Yuxarıdakı nəssin ibarəsi ilə oruc gecələrində dan yeri ağarana qədər ər-arvadın cinsi münasibətinə icazə verildiyi bildirilir. Çünki ayənin ibarəsi buna dəlalət edir. Ancaq həmin ayədə nəssin işarəsi (işarənin dələləti) dan yeri ağararkən cünub olan şəxsin orucunun etibarlı olduğuna dəlalət edir. Odur ki, dan yeri ağardıqdan sonra alınan qüsl orucu pozmaz.

113. Bəqərə, 2/187.

Qapalı dəlalət: Nəssin işarəsi bəzən çox qapalı olur. Belə olan halda dərin təfəkkür və araşdırmaq lazım gəlir. Məsələn, *“Biz insana ata-anasına yaxşılıq etməyi (valideynlərilə gözəl davranmağı, onlara yaxşı baxmağı) tövsiyə etdik. Çünki anası onu (doqquz ay bətnində) zəhmətlə gəzdirmiş, əziyyətlə doğmuşdur. Onunla (ana bətnində) daşınma və (süddən) kəsilmə müddəti otuz aydır.”* [114]

*“Biz insana ata-anasına (yaxşılıq etməyi, valideyninə yaxşı baxmağı, onlarla gözəl davranmağı) tövsiyə etdik. Anası onu (bətnində) çox zəif bir halda daşımışdı. (Uşağın süddən) kəsilməsi isə iki il ərzində olur.”*[115]

Yuxarıda qeyd olunan ayələrdən işarə yolu ilə hamiləlik müddətinin minimum altı ay olduğu anlaşılır. Birinci ayə, süddən kəsilmə və hamiləliyin otuz ay davam etdiyini bildirir. İkinci ayədə isə, süddən kəsilməyin iki il, yəni iyirmi dörd ay olduğu bəyan edilir. Birinci ayədəki otuz aydan iyirmi dörd ay çıxarıldıqda isə geriyə hamiləlik minimum həddi olan altı ay qalır.

### 3. Nəssin dəlaləti (dəlalətin dəlaləti)

Söz, bəzən ləfzi və ibarəsi ilə müəyyən bir hökmə dəlalət edir və bu hökmün qoyulması vacib olur. Bununla yanaşı başqa bir hökm də vardır ki, Şari bunun hökmünü açıqlamamışdır. Fəqət həmin bu hadisə hökmün illəti baxımından açıqlanan hökmlə müştərək xüsusiyyətə malik olduğu üçün, illət birliyi vasitəsilə sözün dəlalətinin əhatəsində sayılır. Məhz buna nəssin dəlaləti deyilir. Məsələn, *“Rəbbin yalnız Ona ibadət etməyi və valideynlərə yaxşılıq etməyi (onlara yaxşı baxıb gözəl davranmağı) buyurmuşdur. Əgər onların biri və ya hər ikisi sənin yanında (yaşayıb) qocalığın ən düşgün çağına yetərsə, onlara: “Uf!” belə demə, üstlərinə qışqırıb acı söz söyləmə. Onlarla xoş danış!”*[116] ayəsinin ibarəsi ana-ataya “uf” deməyin haramlığını ifadə edir. Onları təhqir etmək, döymək və s. də sözsüz haram olar. Məhz buna nəssin dəlaləti deyilir.

### 4. İqtizanın dəlaləti (nəssin iqtizası)

Sözün, doğru və ya şəri cəhətdən düzgün anlaşılması ona bağlı olan, ibarədə mövcud olmayan “lazima” (dil və məntiq olaraq mövcud olan məna)

114. Əhqaf, 46/15.
115. Loğman, 31/14.
116. İsra, 17/23.

dəlalət edir. Məsələn, حرمت عليكم أمهاتكم ayəsi anaların haram olduğunu ifadə edir. Ancaq əslində haram edilən analar yox, onlarla nikahlanmaqdır.

Yuxarıda qeyd olunan dörd dəlalətin hökmü, təxsis və ya təvil kimi qətilikdən zənniliyə çevirən bir dəlil olmadıqca bunlarla hökm qəti olaraq sabit olur.

İbarənin və işarənin dəlalətində hökm ləfzlə sabit olur.

Nəssin dəlalətində hökm, dil baxımından sözdən anlaşılan illətə bağlanır, hökmün qayəsi və illət vasitəsilə də olsa hökm sabit olur. Dəlalətlə sabit olan hökm qiyasla sabit olandan daha üstündür.

İqtizanın dəlaləti ilə sabit olan hökmün qəbul olunması, sözün düzgün olması və doğru başa düşülməsi zəruridir.

**B. Əksəriyyət üləmaya görə dəlalət**

Əksər üləmaya görə dəlalət iki növdür:

**1. Dəlalətül-məntiq**

Ləfzin, sözdə qeyd olunan və ifadə edilən bir şeyin hökmünə dəlalət etməsi deməkdir. Bu hənəfilərin ibarənin, işarəin və iqtizanın dəlaləti kimi tərif etdiklərini əhatə edir.

**2. Dəlalətül-məfhum**

Ləfzin sözdə qeyd olunmayan və ifadə edilməyən bir şeyin hökmünə dəlalət etməsi deməkdir.

Əksər üləmaya görə dəlalətül-məfhum da öz növbəsində iki qismə bölünür.

*a) Məfhumul-müvafiqə:* Hənəfilərin nəssin dəlaləti kimi tərif etdiklərini əhatə edir.

*b) Məfhumul-müxalifə:* Hökmü bəyan olunanın (məntuq) hökmdə nəzərə alınan qeydlərdən birinə malik olmaması səbəbilə hökmü bəyan olunmayanı (məsqut ənh) əhatə etmədiyinə dəlalət etməsidir.

Məfhumul-müxalifənin aşağıdakı növləri vardır:

1) *Məfhumus-sifət:* Hökmü bir sifətlə qeydlənmiş nəssin, bu vəsfi daşımayanları o hökmü əhatə etmədiyinə hökm olunur. Məsələn, *"Saimə olan hevanlardan zəkat vacibdir"*[117] hədisinin məfhumu-müxalifi evdə bəslənən qoyunlara zəkatın düşməməsidir.

2) *Məfhumuş-şərt:* Hökmü şərt ədatlarından biri ilə şərt qoşulmuş nəssin, bu şərtin olmadığı yerləri həmin hökmün əhatə etmədiyinə dəlalət etməsidir. Məsələn, *"Əgər onlar hamilədirlərsə, bari-həmləni yerə qoyana qədər xərclərini verin"* [118] ayəsinin məfhumu-müxalifi hamilə olmayan bu vəziyyətdəki qadınlar üçün nəfəqə öhdəliyinin olmamadığı mənasıdır.

3) *Məfhumul-qayə:* Hökmü hər hansı şey ilə məhdudlaşdırılmış nəssin, bu həddən sonra o hökmün etibarlı olmadığına dəlalət etməsidir. Məsələn, *"sübh açılınca, ağ sap qara sapdan seçilincəyə qədər yeyib için; sonra gecəyə qədər orucunuzu tamamlayın"* [119] ayəsindəki dan yeri ağarana qədər yeyin və için, bundan sonra yeyib-içməyin, bu haramdır mənasına gəlir.

4) *Məfhumul-ədəd:* Hökm müəyyən bir sayla məhdudlaşdırılmışsa, həmin saydan fərqli bir hökm verilə bilməz. Məsələn, *"Zinakar kişiyə və zinakar qadına yüz çubuq vurun."* [120] Bu ayənin məfhumu-müxalifinə görə yüzdən az və ya çox vurula bilməz.

Onu da qeyd etmək lazımdır ki, hənəfilər məfhumu-müxalifi dəlil kimi qəbul etmirlər. Bununla yanaşı digər üç imam bunu dəlil olaraq qəbul edir, ancaq ona əməl etmək üçün aşağıdakı qeyd-şərtləri qoymuşdurlar.

Nəslərdəki qeydlər mübaliğə, təşviq və ya tənbeh məqsədini güdməməlidir. Məsələn, *"(Ya Peyğəmbərim!) Onlar (o münafiqlər) üçün istər bağışlanma dilə, istər diləmə; onlar üçün yetmiş dəfə bağışlanma diləsəndə, yenə Allah onları bağışlamayacaq. Bu onların Allahı və Onun Peyğəmbərini inkar etmələrinə görədir. Allah fasiq tayfanı doğru yola yönə ltməz!"*[121] Bu ayədə yetmiş dəfə tövbə etsən də Allah (c.c.) əfv etməz buyurulur. Bunun

117. Nəsai, Fər, 2; Əhməd İbn Hənbəl, V, 76.

118. Talaq, 65/6.

119. Bəqərə, 2/187.

120. Nur, 24/2.

121. Tövbə, 9/80.

yetmiş bir dəfə tövbə etsə qəbul olunacağı mənasına gəlməz. Çünki burada tənbeh vardır.

Kəlamdakı qeyd-şərt bir tətbiqatı ifadə edən mahiyyətdə olmalıdır. Belə olan təqdirdə qeydə əməl olunmaz. Məsələn, *"Ey iman gətirənlər! Sələmi (borc üzərinə qoyduğunuz faizi) qat-qat artırıb yeməyin. Allahdan qorxun ki, bəlkə, nicat tapasınız!"* [122]

Məntuq sual vəya hadisəyə cavab mahiyyətində olmalıdır. Məsələn, "buğdada zəkat vardır" hədisi bir sualı cavablayır. Odur ki, bundan başqalarında zəkat yoxdur mənasına gəlməz.

## C. Dəlalətlərin təzadı

3) İbarənin dəlaləti ilə sabit olan hökmün işarənin dəlaləti ilə sabit olan hökmdə təzadlığı: Məsələn, *"Ey iman gətirənlər! (Qəsdən) öldürülən şəxsdən sizin üçün qisas almaq hökmü qərara alındı (vacib oldu)."* [123] ayəsindəki ibarənin dəlaləti, qəsdən adamm öldürənə qisasın lazım gəldiyidir. Ancaq *"Hər kəs bir mömin şəxsi qəsdən öldürərsə, onun cəzası əbədi qalacağı cəhənnəmdir. Allah ona qəzəb və lənət edər, (axirətdə) onun üçün böyük əzab hazırlar!"* [124] ayəsində ibarə, qəsdən adam öldürmənin axirət cəzasından bəhs edir. Odur ki, nəssin işarəsinə görə sözügedən şəxsə qisas ləzım gəlməz.

Bu iki ayə bir-birinə zidd olduğu üçün ibarənin dəlaləti, işarənin dəlalətindən üstün tutulur və qisas tətbiq olunur.

2) İşarənin dəlaləti ilə sabit olan hökmün nəssin dəlaləti ilə sabit olan hökmlə təzadlığı: Məsələn, *"Heç bir möminə başqa bir mömini öldürmək yaraşmaz. Bu, səhvən (xəta üzündən) olduqda müstəsnadır. Hər kəs bir mömini səhvən öldürərsə, o zaman o, mömin bir qul azad etməli və öldürülmüş şəxsin ailəsi qanbahasını sədəqə olaraq bağışlamadıqda, onlara (ölən şəxsin varislərinə) tam şəkildə qanbahası verməlidir"* [125] ayəsindəki nəssin dəlaləti budur ki, əgər xətaən adam öldürən kəffarə verirsə, qəsdən öldürən sözsüz verməlidir. Ancaq *"Ey iman gətirənlər! (Qəsdən) öldürülən şəxsdən sizin üçün qisas almaq hökmü qərara alındı*

122. Ali-İmran, 3/130.
123. Bəqərə, 2/178.
124. Nisa, 4/93.
125. Nisa, 4/92.

*(vacib oldu)*”[126] ayəsində işarənin dəlaləti, qəsdən öldürənin axirətdə cəzaya düçar olacağını bildirir və bu dünyada hər hansı cəzasının olduğundan bəhs etmir. Belə olan halda nəssin dəlaləti ilə işarənin dəlaləti bir-birinə ziddir. Hənəfilər işarənin dəlalətinə əməl edir və kəffarə ilə hökm etməzlər.

3) İbarənin dəlalətinin, iqtizanın dəlaləti ilə təzadlığı: Məsələn, hədisi-şərifdə Hz. Peyğəmbər buyurur: *“Ümmətimdən xəta, unutma və zor altında etdiklərinin məsuliyəti götürülmüşdür”* ayədə isə Uca Allah buyurur: *“Hər kəs bir mömini səhvən öldürərsə, o zaman o, mömin bir qul azad etməli...”*

Yuxarıdakı hədisə görə, xətaən adam öldürənin günahı əfv olunmuşdur. Halbuki ayədə kəffarə cəzası verilmişdir. Odur ki, ibarənin dəlalətinə etibar edilir.

## HÖKMLƏRİN QAYƏSİ

## DƏLİLLƏRİN TƏZADI VƏ HƏLL YOLLARI

## I. HÖKMLƏRİN QAYƏSİ (MƏQASİDÜŞ-ŞƏRİƏ)

### A. Tərifi və mahiyyəti

Əksər İslam alimləri, Uca Allahın qoyduğu bütün hökmlərdə mütləq olaraq bir sıra təməl məqsədlər olduğunu və bu məqsədlərin insanlara fayda təmin etmə, zərərə isə mane olmanın zəruriliyi məsələsində həmfikirdir. Yəni uca Allahın əmr etdiyi şeydə insanlar üçün bilinən və bilinməyən çox sayda faydalar vardır. Allahın haram qıldığı şeylərdə isə bilinən və bilinməyən zərərlər vardır. Bir başqa ifadə ilə halal şeylərin fayda yönü, haram qılınan şeylərin zərər yönü üstünlük təşkil edir. İbadətə aid olan hökmlərin faydaları ağılla tam olaraq bilinməsə də bunlarda ağlın dərk etmədiyi faydalar da vardır. Bunlar, kainatda qayə (teleolojik) prinsipinin və Allahın boş yerə heç bir şeyi yaratmadığını və əmr etmədiyinin də isbatı kimi təzahür edir.

126. Bəqərə, 2/178.

**B. Növləri**

Hökmlərin qayəsini aşağıdakı kimi üç qismə bölmək mümkündür:

**1. Zəruriyyatın qorunması**

Zəruriyyat, cəmiyyətin varlığını qoruya bilməsi üçün qaçınılmaz dəyərlər mənasına gəlir. Bunlar itirildikdə, həyat nizamı yox olar, pozğunçuluq, pislik hər tərəfə yayılar və axirətdəki əbədi səadət də itirilmiş olar. Eyni zamanda bunlar, insan və cəmiyyətin səadətini daim diqqət mərkəzində tutan bütün millətlərin, əxlaq sistemlərinin, fəlsəfi düşüncələrin və dinlərin müştərək məqsədini təşkil edir. Sözügedən zəruri dəyərlər, din, can, əql, nəsil və maldır. Dünya və axirətin xoşbəxtliyi beş zəruri dəyər əsasına qurulmuşdur. İstər fərdlər, istərsə cəmiyyətlərin nizamı bunların mühafizəsi ilə gerçəkləşir. Allahın əmr etdiyi və qadağan etdiyi şeylər bu beş zərurətin bəzən beşini, bəzən bir və ya ikisini qoruma məqsədi güdər. Beləliklə, əgər dinin hökmlərindən biri bu məqsədlərə zidd düşərsə və bunlara zərər verərsə o zaman bu hökm ya dindən deyil, yaxud da əhkamın dəyişməsi prinsipinə görə dəyişməlidir.

Həqiqətən İslam, bu zəruriyyatın qorunmasına xüsusi etina göstərmiş, bunlardan hər birinin varlığını və davamlılığını təmin edən hökmlər qoymuşdur. Belə ki, Uca Allah dinin varlığı üçün, özünə iman gətirilməsini və bununla yanaşı namaz, oruc, zəkat və həcc kimi ibadətləri əmr etmişdir.

**2. Haciyyatın təmini**

Haciyyat, insanların həyatını asanlaşdırmaq və əziyyətsiz həyat sürmələri üçün möhtac olduqları nizam-intizamlar deməkdir. Bunlar olmadığı təqdirdə birinci növdə olduğu kimi həyat nizamı pozulmaz, ancaq insanlar çətinliklərlə qarşı-qarşıya olarlar.

Odur ki, Uca Allah həm ibadətlər, həm də müamilələr çərçivəsinə daxil olan mövzularda, qullarına asanlığı təmin etmək və onlardan məşəqqəti dəf etmək məqsədini güdən bir çox hökm vermişdir. Belə ki, su tapa bilməyənə təyəmmüm, ramazanda xəstə və yolçunun oruc tutmamasına izn vermiş, habelə yolçu üçün dört rükətli namazları qısaltma icazəsini vermişdir.

### 3. Təhsiniyyatın/Kəmaliyyatın gerçəkləşdirilməsi

Təhsiniyyat və ya kamaliyyat, yüksək əxlaq və gözəl davranış kimi yüksək küyfiyyətlərə malik olmaq üçün lazımi şeylər deməkdir. Bunların mövcud olmaması ilə nə insanların həyat nizamı ortadan qalxar, nə də insanlar məşəqqətlərlə qarşılaşarlar. Lakin bu kimi xislətlərdən məhrum olanların həyatı naxoş və çirkin hesab olunur. Məhz bu səbəblə İslam dini ibadətlər, müamilələrdə və s. daima insanların əhval-ruhiyyələrini yaxşılaşdırmaq, təkmilləşdirmək və yüksək əxlaqa yönləndirmək üçün bir sıra hökmlər vermişdir. Belə ki, təmizliyin müxtəlif çeşidləri, pis və zərərli şeylərin istifadəsi və hüquqi müqavilələrinə qadağa qoyması, müharibələrdə qadın, uşaq və din xadimlərinin öldürülməməsi və s. kimi müxtəlif hökmlər gətirmişdir.

## II. DƏLİLLƏRİN TƏZADI

### A. Tərifi

Eyni qüvvədə olan şəri dəlillərin eyni məsələdə bir-birinə zidd hökm ifadə etməsinə təzadlıq (təarüz) deyilir. Təzadlığı qəbul edənlər və etməyənlər vardır.

*Qəbul etməyənlər:* Dörd imam, əksər İslam hüquqşünasları və hədis elminin mütəxəssisləri dəlillərin təzadlığını qəbul etmirlər. Belə ki, qəti dəlillərlə zənni dəlillər arasında həqiqi təzadlığın olması qeyri-mümkündür. Çünki Uca Allah Alim və Hakim olduğuna görə onun hökmlərində əsla təzadlıq ola bilməz. Ancaq müctəhidin zənninə görə təzadlıq olur. Odur ki, bu təzadlıq həqiqi yox zahiridir.

*Qəbul edənlər:* İbn Sübki və bəzi Şafi hüquqşünasları bunu mümkün hesab edirlər. Onlara görə bizə çatan dəlillər arasında təzadlığın olması caiz və reallıqdır.

Təzadlıq ancaq zənni dəlillərdə caiz və realdır Şirazi, Beyzavi, Molla Xosrov kimi üləma bu qənaətə gəlmişdirlər.

### B. Təzadın rükn və şərtləri

1. *Rüknü*

İki dəlilin qüvvət baxımından eyni olmasıdır. Bir məsələdə eyni qüvvədə olan iki zidd hökm ifadə edən dəlillər arasında təzadlıq caiz və realdır. Ancaq dəlillərdən biri qüvvətli digəri zəif olarsa təzadlıq əmələ gəlmiş sayılmaz. Çünki qüvvətli dəlillə bilavasitə əməl olunur.

2. *Şərtləri*

a) Predmetin eyniliyi: Zidd hökm ifadə edən iki dəlil eyni mövzuda olmalıdır.

b) Tarix birliyi: Eyni tarixdə nazil və ya varid olan dəlillər arasında əmələ gəlir. Odur ki, tarixləri fərqli olduqda nəsx, təxsis və s . ilə izah olunur.

c) Vaxt birliyi: Nəssin biri bir vaxtda bir əməli etməyi, digəri həmin vaxtda etməməyi əmr etməlidir. Əks təqdirdə təzadlıq əmələ gəlməz. Belə ki, gündüz oruc tut, gecə tutma kimi əmrlə təzadlıq meydana gəlməz, çünki, vaxt birliyi yoxdur.

d) Zidd hökm: Bir mövzuda gələn dəlil digərinə zidd olmalı, əks halda təfsir, təbyin və ya təkid olar.

### C. Təzadı ortadan qaldırma yolları

Hənəfiyyə metodunu təqib edənlər təzadlığı ortadan qaldırmaq üçün sırası ilə aşağıdakı metodlardan istifadə etmişdirlər: Nəsx, tərceh, cəm və tövfiq, təsaqüt.

Mütəkəllimun üsulunda isə təzadlığı ortadan qaldırmaq üçün sıra aşağıdakı kimi olmalıdır: Cəm və tövfiq, tərceh, nəsx, təsaqüt

#### 1. Nəsx

Şəri bir hökmün ondan sonra gələn şəri bir dəlillə ortadan qaldırılmasıdır. Müvəqqəti qoyulan şəri hökmün vaxtı gəldikdə şəri bir dəlil qüvvədən düşdüyünü bildirməkdən ibarətdir. Bu baxımdan nəsx Allaha görə bəyan,insanlara görə isə dəyişmədir

a) Nəsxi qəbul edib-etməyənlər:

*1) Caiz olmadığını deyənlər*: Nəsxi qəbul etməyənlərə görə, nəsx mövcud olarsa sanki Allahın nöqsanlığı ortaya çıxar. Belə ki, nəsx Allahın əvvəlcədən bilmədiyi, sonradan xəbərdar olduğu bir mənfəətdən ötrü hökm dəyişdirməsi mənasına gəlir. Odur ki, Allah təala haqqında belə bir şeyin düşünülməsi qeyri-mümkündür

*2) Caiz olduğunu deyənlər:* Nəsx, müvəqqəti olaraq qoyduğu bir hökmü vaxtı gəldikdə qüvvədən düşürən və bunu bəyan edən Allahın hər işi hikmətlə və sonsuz elmi ilə gerçəkləşdirdiyi açıq-aşkardır.

Nəsxlə təxsis arasındakı fərqlər aşağıdakı kimidir:

a) Nəsx olan hökm bütün fərdlərdən qalxa bilər və bu cür nəsxə külli nəsx deyilir. Qiblənin dəyişməsi kimi. Təxsisdə isə belə deyildir.

b) Nəsx olan hökm bəzi fərdlərdən qalxa bilər ki, buna cüzi nəsx deyilir. Məsələn, “والذين يرمون المحصنات” və “والذين يرمون أزواجهم” ayələrində birinci ayənin bir qismi ikinci ayə ilə nəsx olunmuşdur.

c) Təxsis halındakı hökm başlanğıcda bəzi fərdlərə şamil bəzilərinə də deyildir. Müxəssis hökm şamil olmayanları bəyan edir. Təxsis edən dəlilin ümumilik bildirən dəlil ilə eyni vaxtda gəlməlidir. Ümumi dəlilə əməl olunduqdan sonra gələrsə, gələn dəlil müxəssis yox, nasix olur.

Onu da qeyd etmək lazımdır ki, nəsx, Hz. Peyğəmbər dövründə meydana gəlmişdir. Onun vəfatından sonra meydana gəlməsi imkansızdır.

b) Nəsxin predmeti

1) Nəsx, fəri şəri hökmlərdə meydana gəlir. Ancaq bunlarda qiyamətə qədər davam edəcəyinə dair dəlil varsa bunlarda nəsx cərəyan etməz. Məsələn, *“və lə təqbəlu ləhum şəhədətən əbədə.”*

2) Etiqadi hökmlərdə nəsx meydana gəlməz.

3) Hissi və əqli hökmlərdə nəsx olmaz. Məsələn, atəş yandırır.

4) Əqlin pis olaraq qəbul etdiyi və qadağan olunmuş hökmlərdə, eyni zamanda əqlin müsbət olaraq qəbul etdiyi hökmlərdə də nəsx əmələ gəlməz.

5) Tarixi hadisələrdən xəbər verən nəslər nəsx olunmaz.

c) Nəsxin şərtləri:

a) Mənsux kimi nəsx də fəri şəri dəlil olmalıdır.

b) Nasix qüvvət baxımından mənsuxla eyni və ya ondan güclü olmalıdır.

c) Nasix mənsuxdan sonra gəlməlidir. Əks təqdirdə təxsis, istisna, şərt, sifət, qayə və s. olar.

d) İki nəssin uzlaşdırılması imkansız olmalıdır.

d) Nəsxin növləri

*1) Sərih:* Şarinin açıq-aydın bildirdiyi nəsxdir. Məsələn, Hz. Peyğəmbərin əvvəlcə qəbir ziyarətini qadağan edib, daha sonra icazə verməsi kimi.

*2) Zimni:* Şari, sonra qoyduğu hökmdə əvvəlkini ortadan qaldırdığını qeyd etməz, ancaq əvvəlki hökmün ziddinə qoyduğu bu hökm ilk hökmlə sadəcə nəsx yolu ilə uzlaşdırılır.

*3) Külli:* Şarinin əvvəlcədən qoyduğu bir hökmü bütün fərdlərdən qaldırmasıdır. Məsələn, qiblənin dəyişdirilməsi.

*4) Cüzi:* Şarinin əvvəlcədən bütün mükəlləflərə qoyduğu bir hökmü, sonradan göndərdiyi bir dəlillə bəzi fərdlərdən qaldırmasıdır.

e) Nəslərin bir-birini nəsx edə bilməsi baxımından növləri

*1) Ayənin ayəni nəsxi:* Ayələrin hamısı sübut baxımından eyni olduğu üçün bir-birinin nəsxi caiz və həqiqətdir. Məsələn, “kutibə aleykum izə hadara...” “yusikumullahu fi evlədikum...”

2) *Ayənin hədislə nəsxi:* Əbu Hənifə və İmam Malik sünnənin də vəhy olduğunu əsas götürərək mütəvatir və məşhur sünnə ilə Quranın nəsx oluna biləcəyini ifadə etmişdirlər. İmam Şafi və İbn Hənbəl isə, ayənin hədislə nəsxini caiz saymamışdırlar.

3) *Sünnənin Quranla nəsxi:* İmam Şafi istisna olmaqla alimlər sünnənin Quranla nəsxinin caiz olduğunu hesab etmişdirlər. Məsələn, Hz. Peyğəmbərin məscidi-əqsa olaraq bildirdiyi qiblə, məscidi-harama çevrilməyi əmr edən ayə ilə nəsx edilmişdir.

*4) Sünnənin sünnə ilə nəsxi:* Məsələn, qəbir ziyarəti və s.

*5) İcma ilə nəsx:* İcma ilə nəsx olmaz, çünki nəsx Hz. Peyğəmbər dövrünə aiddir. Ondan sonra nəsx olmaz.

6) *Qiyasın qiyası nəsxi:* Qiyas başqa bir qiyası nəsx edə bilməz. Çünki müctəhidin qiyası onun üçün bağlayıcıdır. Ancaq başqası üçün dəlil olmaya bilər.

f) Nəsxi bilmə yolları:

1) Hz. Peyğəmbərin bəyanı ilə nəsxin bilinməsi: Məsələn, qəbir ziyarəti ilə əlaqədar hədis.

2) Səhabənin verdiyi məlumatlarla nəsxin bilinməsi: Məsələn, Hz. Əli belə demişdir: *"Rəsulullah cənazə keçərkən qalxmağımızı əmr etdi. Daha sonra oturdu və bizə də oturmağımızı əmr etdi."*

3) Tarix yolu ilə nəsxin bilinməsi: Şəddadın rəvayətinə görə, qan aldıranın (həcəmat) orucu posulur. İbn Abbas isə oruclu ikən Hz. Peyğəmbərin qan aldırdığını rəvayət etmişdir. Şəddadın rəvayəti Məkkənin fəth olunduğu ilə əsaslanır. İbn Abbasın rəvayəti isə vida həcci əsnasında olan bir hadisəyə əsaslanır.

4) İcma ilə nəsxin təsbit olunması: Bir-birinə zidd iki dəlili birinin digərini nəsx etdiyinə dair icmanın hasil olması ilə meydana gəlir.

**2. Tərceh**

Tərceh, təzadlıq təşkil edən dəlillərdən birində mövcud olan və onu digərindən üstün edən bir vəsfi ortaya qoymaq və digərini tərk etməkdir. Məsələn, *"su sudandır"* hədisinə *"sünnət yerləri birləşdikdə qüsl vardır"* hədisi üstün (tərceh) tutulmuşdur.

Tərceh yolları:

*a) Mətn baxımından tərceh:* Möhkəm müfəssərə, müfəssər nəssə, nəs zahirə, həqiqət məcaza, sərih kinayəyə, ibarə işarəyə, işarə dəlalətə, dəlalət iqtizaya, məcaz müştərəkə, məfhumu-müvafiqat məfhumu-müxalifətə, xəfi müşkil, müqəyyəd mütləqə və xüsusi ümumiyə tərceh edilir.

*b) Sənəd baxımından tərceh:* Ravi nöqteyi-nəzərindən, ravisi fəqih olan hədis fəqih olmayana, çox olan az olana və yaddaşı güclü olan zəif

olana tərceh olunur. Rəvayət cəhətindən, Quran ahad sünnəyə, mütəvatir sünnə məşhur sünnəyə, məşhur sünnə ahad sünnəyə, müsnəd sünnə mürsəl sünnəyə və səhabə mürsəli tabeun mürsəlinə tərceh olunur. Rəvayət olunan baxımından, ləfzən rəvayət olunmuş mənən rəvayətə, mətni ixtilafsız olan ixtilaflı olana və mərfu olan mərfuluğu şübhəli olandan üstün tutulur. Hökm yönündən, haramlıq bildirən məndubluq, mübahlıq, məkruhluq bildirəndən üstün tutulur.

*c) Xarici səbəblərlə tərceh:* Qövli hədis əməli hədisə, qiyasa müvafiq olan zidd olana, başqa dəlilin qüvvətləndirdiyi qüvvətləndirilməyənə, dört xəlifənin tətbiqatı Mədinə əhlinin tətbiqatına və digərlərinə, habelə hökmü açıq olan olmayana tərceh edilir.

**3. Cəm və tövfiq**

İki dəlil arasındakı təzadlıq, cəm etməklə ortadan qaldırılaraq hər iki dəlilə də əməl olunarsa buna əməl biş-şəbiheyn deyilir.

a) Şərtləri:

a) Təzadlıq qüvvət baxımından bir-biri ilə eyni dərəcədə iki dəlil arasında meydana gəlməlidir.

b) Təzadlıq təşkil edən iki dəlildən cəm və tövfiq üsulu ilə təzadlıq ortadan qaldırılarkən İslamın ruhuna zidd bir hökm çıxarıla bilməz.

b) Cəm və tövfiqi gerçəkləşdirmə yolları

İki dəlili uzlaşdırıb ona əməl etməyə məxləs deyilir. Təzadlıq üç cür uzlaşdırılır:

Hökm cəhətindən:

*1) Tövfizi-hökm:* Hökmün bir dəlil baxımından müsbət, digər dəlil baxımından mənfi olmasıdır. Məsələn, iddia qaldıran iki şəxs eyni malın onlara aid olduğuna dair dəlillər gətirsələr, həmin mal tərəflər arasında tən bölünər.

*2) Təğayürül-hökm:* İki dəlilin hökmünün fərqli olduğuna həml olunmasıdır. Məsələn, Hz. Peyğəmbərin “Öz məscidində qılmayıb başqa məscidlərdə qılanın namazı yoxdur” hədisi ilə “Kim öz evində namaz

qılarsa...” hədisi bir-birinə ziddir. Buna görə də birinci hədisin mənası savabı yoxdur kimi anlaşılır.

*3) Hal baxımından təzadlığın ortadan qaldırılması:* Təzadlıq təşkil edən dəlillərdən hər birinin fərqli bir hala dəlalət etdiyinə qərar verilir. Məsələn, *“və lə teqrabuhunnə hattə yəthurnə”* ayəsi iki cür oxunur. Belə ki, bu ayədə “yəthurnə” kəlməsi təxfiflə oxunarsa, on gün sonra ay başnın kəsilməsi, təşdidlə oxunarsa on gündən əvvəl ay başının kəsilməsi mənasına gəlir.

Zaman baxımından tövfiqi gerçəkləşdirmə:

Kəlamın ehtiva etdiyi hökmlərin vaxtlarının müxtəlif olduğu bəyan olunur və beləliklə təzadlıq ortadan qaldırılır. Məsələn, *“alqı-satqını tərk edin”* ayəsi ilə *“Allah alqı-satqını halal buyurdu”* ayəsinin təzadlığını birinci ayə cümə namazı vaxtında alqı-satqının tərk olunmasını əmr edir, ikinci ayə bu vaxt müstəsna olmaqla digər vaxtlarda alqı-satqının halal olduğunu bildirir. Odur ki, zaman baxımından fərqli olduğu əsas alınaraq tövfiq gerçəkləşdirilir. Ancaq iki dəlilin nazil və ya varid olma vaxtlarında ixtilaf olarsa, sonra gələn əvvəlkini nəsx edir.

**4. Tərk (təsaqüt)**

Dəlillər arasındakı təzadlıq, nəsx, tərceh və ya cəm yolları ilə ortadan qaldırmaq mümkün olmazsa, müctəhid hər iki dəlili tərk edərək başqa dəlillərlə hökm verər. Məsələn, *“fəqrau mə təyəssəra...”* və *“və izə quriə...”* ayələrində təzadlıq vardır və bunlar uzlaşdırıla bilməmişdir. Ancaq *“İmamın qiraəti, ona tabe olanın qiraətidir”* hədisi bu mövzuda başqa bir müstəqil dəlildir və bu hədislə problem ortadan qaldırılır.

# IV FƏSİL
# İCTİHAD, TƏQLİD VƏ TƏLFİQ

## I. İCTİHAD

Bu başlıq altında ictihada dair bir sıra mövzulara təmas ediləcəkdir. Belə ki, ictihadın tərifi, təşəkkül və inkişaf tarixi, şərtləri, dərəcələri, təcəzzi (bölünmə) qəbul edib-etməməsi, nəqzi (dəyişməsi), hökmü, habelə ictihad qapısının bağlanma və bərpası məsələsi haqqında ümumi məlumat veriləcəkdir. Onu da qeyd etmək lazımdır ki, ictihad çox dərin mövzu olduğu üçün ictihadla əlaqədar mövzular barədə səthi məlumat verilməyə cəhd göstərilmiş və ələlxüsus alimlərin çox geniş münaqişələri haqda təfərrüatı ilə məlumat verilməyəcəkdir.

### A. Tərifi

İctihad (الاجتهاد) lüğətdə, çətin və məşəqqətli bir işi icra etmək üçün cidd-cəhd göstərmək mənasına gəlir. Hədislərdə ictihad kəlməsi "qazı və idarəçinin düzgün hökmə, qərara gələ bilməsi üçün bütün gücünü sərf etməsi"[127] kimi mənalarda istifadə olunmuşdur. Odur ki, hədislərdə istifadə olunan bu məna ictihad kəlməsinin daha sonrakı dönəmlərdə termin kimi formalaşmasına zəmin hazırlamışdır. Fiqh üsulu (İslam hüquq metodologiyası) terminologiyasında ictihad, fəqihin (İslam hüquqşünası) zənni şəri (dini)-əməli hökmləri təfsili (cüzi) dəlillərindən əldə edə bilmək üçün cidd-cəhd göstərməsidir. Müctəhid (المجتهد) isə, şəri dəlillərdən sözügedən hökmləri əldə etmə qabiliyyətinə malik olan şəxsdir. Üsulşünaslar (fiqh üsulu alimləri) həmin şəxsi "fəqih" və "müfti" (qazı) kimi də adlandırmışdırlar. İctihad olunan mövzuya da "müctəhədün fih" (المجتهد فيه) deyilir.

127. Bax. Buxari, Etisam, 21; Müslim, Əqziyə, 15; Əbu Davud, Qəza, 2; Tirmizi, Ehkam, 2, 3; İbn Macə, Ehkam, 3.

**B. İctihadın təşəkkül və inkişaf tarixi**

İctihad, müsəlmanın gündəlik həyatında qarşılaşdığı problemlərin şəri hökmünün vəhy çərçivəsində həllini tapmaq üçün bir vasitə olduğundan, İslamın hələ ilkin dövründə mövcud olan bir anlayış olması qaçınılmazdır. Məhz bu səbəblə ictihadın təşəkkül tapmasını Hz. Peyğəmbər dövründən başlayaraq bir neçə dönəmə ayırmaq mümkündür:

**Hz. Peyğəmbər dönəmində ictihad:** Hərçənd ki, bəzi alimlər Hz. Peyğəmbərin şəri mövzularda ictihadlarını inkar edirlər, ancaq əksər üləmaya görə ictihad məhz elə Hz. Peyğəmbər, onun əshabı tərəfindən reallaşdırılmış və sonrakı müsəlmanlara nümunə olmuşdurlar. Onu da qeyd etmək lazımdır ki, Hz. Peyğəmbərin ictihadında əsla xəta olmaz. Çünki onun ictihadı daima vəhyin nəzarətində idi. Məqsədəuyğun olmayan ictihadı olsa belə vəhy tərəfindən dərhal müdaxilə olunurdu. Həmçinin Hz. Peyğəmbərin sağlığında onun əshabı tərəfindən edilən ictihadlarda xəta olduqda Hz. Peyğəmbər onu düzəltdiyi və onun nəzarətində olduğu üçün artıq həmin ictihadlarda vəhy çərçivəsində hesab olunur və sünnədən sayılırdı. Bu növ ictihadın sünnə çərçivəsinə daxil olması, həmin ictihadı Hz. Peyğəmbərin təsdiqləməsi ilə olduğu kimi, sükut etməsi ilə də gerçəkləşmişdir.

**Hz. Peyğəmbərdən sonrakı dönəmdə ictihad:** Hz. Peyğəmbərin vəfatından sonra səhabə digər mövzularda olduğu kimi ictihad mövzusunda da təşvişə düşmüşdü. Çünki Hz. Peyğəmbərin sağlığında etdikləri ictihadlar onun tərəfindən nəzarət altında olduğunu bilir və daha rahat ictihad edirdilər. Bilirdilər ki, hər hansı bir xəta olarsa Hz. Peyğəmbər bilavasitə müdaxilə edərək düzəliş verəcək. Məhz bu səbəblə səhabə ictihad mövzusunda daha ehtiyatlı davranmağa başladı. Bu dönəmdə insanlar arasında fitva və hökm vermə vəzifəsini qabaqcıl səhabələr yerinə yetirirdi. Məsələn, Hz. Əbu Bəkrə (vəfatı-13/634) bir məsələ soruşulduqda ilkin mərhələdə Qurana, sonra isə Sünnəyə baxardı. Burada həmin məsələ haqqında hər hansı hökm olmazsa, səhabədən bu mövzuya dair Hz. Peyğəmbərdən bir hədis eşidib-eşitmədiklərini soruşar və ən son çarə olaraq ictihad edərdi.

Ümumiyyətlə səhabə dini və ya dünyəvi hər hansı məsələnin hökmünü təsbit etmək ehtiyacı hiss etdikdə, əvvəlcə Allahın Kitabına müraciət edir, orada ehtiyac duyulan məsələyə dair hər hansı hökm əldə edə bilməsələr,

Rəsulullahın Sünnəsinə müraciət edir, orada da hökm olmazsa ictihad edir, yəni (Quran və Sünnədən) həmin məsələyə oxşar məsələləri araşdırır, tapdıqları hökmü qarşılaşdıqları oxşar məsələyə tətbiq edirdilər. Quran və Sünnədə oxşar məsələlər mövcud olmazsa, İslam hüququnun qanunvericilikdəki əsas prinsipi olan daim insanların mənafeyini və ehtiyaclarını nəzərə alaraq, məsələni həll etməyə və həmin prinsipi gerçəkləşdirməyə səy göstərirdilər. Həmçinin tabeundan (səhabədən sonrakı nəsil) olan Qazı Şüreyh (vəfatı-82/701), İbrahim Nəxəi (vəfatı-95/714) və digər müctəhidlər də eyni yolu təqib etmişdilər.

Hicri ilk əsrdən, yəni səhabə və tabeun dövründən sonra müsəlman aləmi böyüməyə başladı. Bunun nəticəsində ərəb dili müsəlmanların təbii dili olmaqdan çıxır və ərəblərin ərəb olmayanlara qarışmaları səbəbilə də ərəb dili zəifləməyə başladı. Habelə daha öncə mövcud olmayan məsələlər ortaya çıxır və bunun nəticəsində də müctəhidlər çox sayda ictihadlar, rəylər bəyan edirdilər. Beləliklə də müctəhidlərin çoxalması, ictihad və hökm istinbatında (hökm çıxarma) metodların müxtəlifliyi, hər birinin özünə görə düzgün yolu təqib etmə iddiası və bu kimi amillər fəqih və müctəhidləri ictihad fəaliyyətinin nizama salınması, bu sahədəki hərc-mərcliyin qabağının alınması üçün bir sıra tədbirlər almağa və nəticədə də şəri dəlillərdən hökm əldə edərkən əsas alınacaq prinsiplər və qaydalar müəyyənləşdirməyə başladılar. Məhz ilk dəfə fiqh-üsulu adı verilən bu elm haqqında tərtibli bir şəkildə kitab yazan Məhəmməd İbn İdris əş-Şafi (vəfatı-204/819) olmuş və kitaba *ər-Risalə* adını vermişdir. Daha sonra alimlər fiqh üsulu mövzusunda kitab qələmə alarkən iki metod təqib etmişdirlər. Birincisi, “şafiyyə” və ya “mütəkəllimun” metodu adlanan xüsusilə şafi kəlamçılarının metodudur. İkincisi isə, “hənəfiyyə” və ya “füqəha” metodudur ki, bu da hənəfilərə məxsus bir metoddur. Daha sonrakı dönəmlərdə bu ikisini birləşdirən bir metod daha ortaya çıkmışdır ki, buna da “məmzuc metod” adı verilmişdir.

Şafiyyə metodunu təqib edən üsulşünaslar, öz məzhəblərinə bağlı qalmadan əqli istidlal (dəlilləndirmə) metodu ilə qaydalar ortaya qoymuşdurlar. Füqəha metodunu mənimsəyənlər, üsul qaydalarını fiqhin tətbiqatından çıxarmış və hadisələrdən hərəkət edərək ümumi qaydalar əmələ gətirmişdirlər. “Məmzuc metod” isə, sonrakı dövrdə yaşayan alimlər hər iki metodu da birləşdirməyə çalışmaları mənasına gəlir.

### C. İctihadın şərtləri

Rəsulullah (s.ə.s) və səhabə dövründə ictihad səlahiyyəti üçün hər hansı şərtlər müəyyənləşdirərək qələmə alınmamışdır. Daha əvvəl də məlumat verildiyi kimi ictihad üçün şərtlər, ilk dəfə müctəhid imamlar dövründə təsbit edilmiş və artıq bu mövzuda kitablar yazılmağa başlanmışdır. İslam hüquqşünasları ictihadın şərtlərini aşağıdakı kimi müəyyən etmişdirlər:

**1. Ərəb dilini bilmək:** Bir müsəlmanın ictihad etmə səlahiyyətinə malik ola bilməsi üçün ərəb dilinə nöqsansız bir şəkildə yiyələnməlidir. Çünki Quran və Sünnənin mətni ərəbcədir. Məhz buna görə də onları anlamaq üçün həmin dilin qrammatikası və ədəbiyyatını təfərrüatı ilə bilməlidir ki, Quran və Sünnə mətnlərinə onları tətbiq edərək oradan hökm əldə edə bilsin. Ancaq ərəb dilinin dərinliklərini, yəni məani elmini, şerlərin vəznlərini təfərrüatı ilə bilməsinə ehtiyac yoxdur.

**2. Qurani-kərimi bilmək:** Qurani-kərimi lüğət və şəri (dini) baxımdan bilməli, habelə onun qisimlərini yəni ümumi, xüsusi, müştərək, mücməl kimi ayələri ətraflı bilməlidir. Bundan məqsəd xüsusilə Qurandakı ehkam ayələrini, onların nazil olma səbəblərini və bu ayələrdən hökmləri əldə etmə yollarını, metodlarını bilməlidir.

**3. Sünnəni bilmək:** Sünnə elminə mətn və sənədi ilə birgə yiyələnməlidir. Ələlxüsus Sünnədə varid olan ehkam hədislərini və həmin rəvayətlərin mütəvatir, məşhur, səhih, həsən və zəif kimi dərəcələrini bilməlidir. Eyni zamanda Quran və Sünnənin nasix və mənsuxunu bilməlidir. Lakin bütün nasix və mənsuxu əzbərdən bilməsi şərt deyil. Belə ki, fitva verdiyi məsələdə əsaslandığı ayə və ya hədisin mənsux olub-olmadığını bilməsi kifayətdir.

**4. İcmanı bilmək:** Müctəhidin düzgün hökmü əldə etməsi üçün icmanı bilməsi böyük əhəmiyyət kəsb edir. Belə ki, qarşılaşdığı və ictihad etdiyi məsələlərdə icmaya zidd hökm verməməsi üçün mövcud olan icmaları və ixtilafları bilməlidir.

**5. Qiyası bilmək:** Müctəhid nöqsansız hökm əldə etmək üçün qiyasın bütün növlərini, ünsürlərini (rüknlər), şərtlərini, məqbul/qeyri-məqbul olanlarını və hökmlərin illətlərini (səbəblərini) bilməlidir.

**6. Fiqh üsulu elmini bilmək:** Müctəhid, şəri dəlilləri, bunlardan hökm çıxarma yollarını, ləfzlərlə əlaqədar qrammatik qaydaları, dəlillər arasındakı üstünlüyü seçə bilmə qaydalarını və digər mövzuları ancaq fiqh üsulu elmindən öyrənə bilər. Məhz bu səbəblə sözügedən elmi təfərrüatı ilə bilməlidir.

**7. Şəri məqsədi bilmək:** Müctəhid sözün əsl mənasında şəri məqsədi (İslam hüququnun əsas qayəsi) qavramalıdır. İslam hüququnun əsas qayəsini, hikmətini, hədəflərini, şəri hökmlərin hansı hadisələr haqqında gəldiyini, Şarinin (Qanunverici/Allah Təala) işarə etdiyi illət (səbəb) və hikmətləri bilmək, tədqiqatlar nəticəsində mümkündür. Hətta məşhur İslam hüquqşünası əş-Şatibi (vəfatı-790/1388) *əl-Müvafəqat* adlı möhtəşəm fiqh-üsulu əsərində, ictihad üçün İslam hüququnun əsas məqsədlərini qavramağı ən əsas şərt kimi irəli sürmüşdür.

İslam hüququnda ilk dəfə fiqh üsulu kitabı qələmə alan İmam Şafi, *ər-Risalə* adlanan həmin əsərdə ictihadın şərtlərini belə qeyd edir: "Qurani-kərimdə mövcud olan hökmlərin nasixini, mənsuxunu, ümumunu, xüsusunu, sünnələri, sələfin rəylərini, icmaları, ixtilafları və ərəb dilini bilmədikcə heç kim ictihad edə bilməz".

Həmçinin məşhur Şafi hüquqşünası Yusif İbn İbrahim (vəfatı-779/1377; 799/1397) əl-Ərdəbili *əl-Ənvar li Əməlil-Əbrar* adlı əsərinin "Kitabul-Qəza" fəslində müctəhiddəki lazımi şərtləri sıralamışdır. Belə ki, ehkam ayələrini bilməlidir. Ancaq əzbərdən bilməsinə ehtiyac yoxdur. Ehkam hədislərini, habelə hər ikisinin də xüsusi, ümumi, mütləq, müqəyyəd, mücməl, mübəyyən, nasix və mənsuxlarından xəbərdar olmaqla yanaşı, hədislərin mütəvatir, ahad, mürsəl, müsnəd, müttəsil, münqəti olanları, o cümlədən cərh və tədil elmini də bilməlidir. Səhabə-qövlindən, icmadan və onların ixtilaflarından xəbərdar olmalıdır. Cəli (açıq), xəfi (gizli) qiyası bilməli və səhihi fasiddən ayırma qabiliyyətinə malik olmalıdır. Ərəb dilinə lüğət və erabı ilə birlikdə yiyələnməlidir. Ancaq ərəb dilini dərindən öyrənməsi şərt deyildir. Etiqadi mövzuları bilməsi də şərtdir. Lakin bu mövzuda ixtilaf olduğunu bildirmişdir.

**D. İctihadın dərəcələri**

Üsulşünaslar, fəqihləri müxtəlif təbəqələrə bölmüşdürlər. Bunlardan bir neçəsi müctəhid, qalanları isə, təqlidçi hesab olunur. Həmin təbəqələri aşağıdakı kimi sadalamaq mümkündür:

**1. Şəriətdə müctəhid:** Bunlar, ilk təbəqəni təşkil edən müstəqil müctəhidlərdir. Müstəqil müctəhid yuxarıda qeyd olunan bütün şərtləri öz şəxsində cəmləşdirməlidir. Kitab və Sünnədən hökm çıxaran, qiyas edən, məsləhət prinsipinə görə fitva vermə qabiliyyətinə sahib olan, sözügedən şəxslərdir. Bu mövzuda onlar heç kimə tabe olmaz, habelə özləri üçün metod ortaya qoyaraq bu metodlar əsasında fəri məsələlərə aydınlıq gətirirlər.

**2. Müntəsib müctəhid:** İkinci təbəqəyə daxil olan bu müctəhidlər, hökm çıxarmada imamın qoyduğu üsula tabe olur, ancaq füruda ona müxalif ola bilər. Başqa bir ifadə ilə, metod baxımdan imama bağlı olduqlarına baxmayaraq, fəri məsələlərdə bəzən ona müvafiq, bəzən də müxalif olur, eyni zamanda imamın ələ almadığı məsələlər haqqında ictihad edər.

**3. Məzhəbdə müctəhid:** Eyni zamanda müqəyyəd (qeyri-müstəqil) müctəhid və ya təxric edən müctəhid kimi də adlanan bu müctəhidlər, həm üsulda, həm də füruda imama tabe olan kəslərdir. Ancaq imamdan hər hansı bir rəvayət olmayan məsələlərin hökmlərini açıqlar. Bununla yanaşı bir də imamdan gələn hökmlər arasında üstün olanı ortaya qoyan müctəhidlər də vardır ki, məzhəbdə müctəhidlə demək olar ki, eyni mövqeyə malikdir. Ancaq bunlar, məzhəbdə müctəhidin təsbit etdiyi seçmə əsaslarına istinad edərək rəvayət olunan rəylər arasından dəlili qüvvətli olanı və ya yaşadığı zəmanəyə tətbiq baxımdan daha əlverişli olanı seçirlər.

**4. Hafizlər təbəqəsi:** Təqlidçi hesab olunan bu təbəqə, əsasən məzhəb daxilindəki ən səhih (düzgün) olan rəyi zəifdən, zahir (məşhur) olan rəvayəti nadir olandan seçmə iqtidarına malikdir. Həmçinin fitva vermə səlahiyyətindədirlər.

**5. Təqlidçilər təbəqəsi:** Müctəhidlərin ən aşağı təbəqəsidir. Bu təbəqəyə mənsub olanlar, kitabları qavraya bilər, fəqət görüş və rəvayətləri seçmə səlahiyyətləri yoxdur. Belə olan halda onları təqlid etmək əsla caiz deyil. Əfsuslar olsun ki, günümüzdə bu kimi insanlar çoxdur. Onlar,

fəqihlərin sözlərinə aludə olur, bu sözlərin istinad edildiyi dəlilləri əsla araşdırmaz və bununla fitva verməyə cürət edirlər.

### E. İctihadın təcəzzi (bölünmə, parçalanma) qəbul edib-etməməsi

İctihadın qisimlərə bölünməsi alimin bir məsələdə müctəhid olması, digər məsələlərdə müctəhid olmaması mənasına gəlir. Yəni İslam hüququnun müəyyən bir məsələsini müctəhid səviyyəsində bilən, bu mövzuda ictihad edə bilərmi? Müctəhid imamlar dövründən sonra müzakirə obyektinə çevrilən bu mövzuda əsasən iki rəy ortaya çıxmışdır:

**1. Caiz deyil:** Bu kimi şəxslər ictihad edə bilməz. Çünki ictihad qalibi-zənnə (üstünlük təşkil edən qənaət) əsaslandığı üçün ictihadla əlaqədar elmləri öz şəxsində cəmləşdirməyən şəxsdə sözügedən zənn əmələ gəlməz və onun bilmədiyi bir dəlilin başqa bir hökm ifadə etmə ehtimalı vardır. Eyni zamanda bütün şəri hökmlər bir-biri ilə əlaqədardır. Belə olan halda bu kimi şəxslərin etdiyi ictihadlarda nöqsanlıq olma ehtimalı çoxdur. Xüsusilə görkəmli alim Şövkani (vəfatı-1250/1832) bu fikri mənimsəmişdir.

**2. Caizdir:** İbn Həzm (vəfatı-456/1064), Qəzzali (vəfatı-505/1111), İbn əl-Qəyyim (vəfatı-751/1350), Qərafi (vəfatı-684/1285), Amidi (vəfatı-631/1234), İbn Hümam (vəfatı-861/1457) kimi İslam hüquqşünasları bunun caiz olduğunu vurğulamışlar. Belə ki, səhabə də daxil olmaqla bütün müctəhidlərin bilmədiyi nəslər və cavab verə bilmədiyi məsələlər olmuşdur. Eyni zamanda hər nəss və məsələnin, digəri ilə əlaqədar olduğu müddəası da qəbul edilməzdir. Odur ki, sadəcə bir məsələni müctəhid dərəcəsində bilən, həmin mövzuda ictihad edə bilər.

### F. İctihadın nəqzi (dəyişməsi)

İctihadın nəqzi ilə qəsd olunan məna, əvvəlki ictihadın hökmünün qüvvədən düşməsi və etibarsız sayılmasıdır. Ən əvvəl onu qeyd etmək lazımdır ki, qayda olaraq ictihad, istər müctəhid, istərsə də qazı tərəfindən ortaya qoyulsun, başqa bir ictihadla ortadan qaldırıla bilməz. Ancaq bir müctəhidin öz ictihadını dəyişdirməsinə gəlincə, müctəhid qarşılaşdığı bir məsələni araşdıraraq həmin mövzuda bir hökm əldə etdikdən sonra eyni məsələni tədqiq etdikdə ictihadını dəyişdirərək əvvəlkinə zidd olan bir

nəticəyə gələrsə, artıq birinci ictihadına əməl edə bilməz, ikinci ictihadına əməl etməlidir. Çünki gəldiyi qənaətə görə birinci ictihadı xətalı, ikinci ictihadı isə doğrudur. Əvvəlcə də qeyd olunduğu kimi müctəhidin doğru olduğuna qənaət gətirdiyi hökmə tabe olması vacibdir.

Odur ki, bir müctəhid, yetkinlik yaşına çatmış bir qızın nikah əqdinin etibarlılığı üçün valideynin icazəsinin şərt olmadığı qənaətində ikən, sözügedən müctəhid, qızın valideynindən icazəsiz onunla evlənsə, daha sonra bu ictihadını dəyişərək nikahın etibarlılığı üçün valideyn icazəsinin şərt olduğu qənaətinə gələrsə, bu nikahın pozulması labüddür. Çünki onun gəldiyi qənaətə görə bu nikah əqdi etibarsızdır. Ancaq qeyd etmək lazımdır ki, sözügedən məsələ müctəhidin öz şəxsinə aiddir, yəni özünü maraqlandıran məsələdir. Əgər müctəhid başqası üçün ictihad etmişsə, yəni bir şəxsin fitva istəməsi üzərinə ictihad etmiş və daha sonra da ictihadını dəyişmişsə, əgər fitva istəyən bu ictihada əməl etdikdən sonra ictihadını dəyişdirmişsə, fitva istəyənin əməlində hər hansı nöqsanlıq olmaz və etibarlı hesab olunur. Ancaq fitva istəyən əvvəlki ictihada əməl etmədən müctəhidin ictihadını dəyişdirdiyindən xəbərdar olduqda, yeni ictihada əməl etməlidir.

### G. İctihadın sahəsi (ictihadın caiz olub-olmadığı mövzular)

İmam Qəzzaliyə görə ictihad, qəti dəlili olmayan hər bir şəri hökmdə məqbuldur. Ümumiyyətlə ictihadın caiz olub-olmadığı mövzular iki qismə bölünür:

**1. İctihadın caiz olmadığı mövzular:** Bunlar “zərurəti-diniyyə” və ya həm sübut (sənəd), həm də dəlalət cəhətindən qəti olan hökmlərdir. Məsələn, kəlmeyi-şəhadət, gün ərzində beş dəfə namaz, oruc, zəkat, həcc, zina, oğurluq, şərab içmə, adam öldürmə və bunlar haqqında Quran və Sünnədə nəzərdə tutulmuş cəzalar, habelə nəslərdə müəyyən edilmiş kəffarələr və sair mövzular barədə ictihad əsla məqbul deyildir.

**2. İctihadın caiz olduğu mövzular: S**übut və dəlalət cəhətindən zənni olan yaxud da ikisindən biri zənni olan hökmlərdə, habelə haqqında nəss və ya icma olmayan mövzularda ictihad məqbul hesab olunmuşdur.

Odur ki, ictihad olunan hökmlərin nəsləri sübut nöqteyi-nəzərindən zənni olarsa, buradakı ictihad, ravilərin ədalət, zəbt və hədisin rəvayət zəncirində qopuqluq olub-olmadığının tədqiq olunması deməkdir. Müctəhid apardığı tədqiqatlar nəticəsində hədisin sabit və səhih olduğu qənaətinə gələrsə ona əməl edər, əks təqdirdə ona əməl etməz. Məhz bu kimi hallarda müctəhidlər arasında ixtilaflar əmələ gəlir. Eyni hədisi bir müctəhid məqbul hesab edərkən, başqa bir müctəhid bir nöqsanlıq tapdığı üçün hədisə əməl etmir. Beləliklə də eyni məsələdə müxtəlif rəylər ortaya çıxır.

Dəlalət baxımından zənni olan hökmlərdə ictihad, nəss ilə qəsd olunan mənanı və nəssin bu mənaya dəlalətinin qüvvətini təsbit etmək üçün aparılan tədqiqatlardır. Belə ki, nəss, bəzən ümumi, bəzən mütləq olur. Mənaya ibarə, işarə və ya başqa yollarla dəlalət edə bilir. Habelə əmr və ya nəhy (qadağa) ifadə edir. Odur ki, bütün bu növlər çərçivəsində hökmün bilinə bilməsi üçün ictihada və tədqiqata ehtiyac vardır. Məsələn, nəsdə mövcud olan əmr ləfzi vaciblikmi yoxsa mübahlıqmı, nəhy (qadağa) ləfzi haramlıqmı yoxsa məkruhluqmu ifadə etdiyini araşdırmaq, ictihad etməklə bir müctəhidin tədqiqatı nəticəsində ortaya çıxır.

Haqqında nəss və ya icma mövcud olmayan hökmlərə gəlincə, buradakı ictihad, qiyas, məsalehi-mürsələ, adət və isteshab kimi İslam hüquqşünaslarının qanunvericilikdə müraciət etdikləri yollardan biri ilə, həmin məsələnin hökmünü müəyyən etməklə əmələ gəlir.

### H. İctihad qapısının bağlanması və yenidən bərpası məsələsi

Hicri tarixlə III əsrin ikinci yarısından sonra yaşayan bəzi alimlər, ictihad qapısının bağlandığı qərarına gəlmişdirlər. III əsrin ortalarına qədər ictihad mövzusunda hər hansı məhdudiyyət olmadığı halda, bundan sonra sadəcə əvvəlki müctəhidlərin ictihad səlahiyyəti olduğu iddia olunmuş və bu müddəa IV əsrdən etibarən hər kəs tərəfindən qəbul edilmişdi. Bu dönəmdəki İslam hüquqşünaslarının funksiyası əvvəlki imamların doktrinalarını şərh etməkdən ibarət olmuşdur. Bunun səbəbi, öz dövrlərində hökm vermə və ictihad etmə mövzusunda anarxiya meydana gəldiyini müşahidə etmələridir. Belə ki, bu yüksək dərəcəyə əsla layiq olmayanlar müctəhid olduqlarını iddia etmişdirlər, istinbat qaydalarından heç xəbərləri olmayan kəslər fitva verməyə cürət etmişdirlər. Məhz bu

kimi səbəbləri nəzərə alan alimlər, Allahın uca dini üzərində mənfəət əldə etmək istəyənlərə əngəl olmaq üçün ictihad qapısının bağlandığı iddiasını qaldırmışdırlar.

Odur ki, bu iddia ictihad səlahiyyətinə malik, ictihad etməsi vacib olan və bu imkanı əldə etmiş şəxslər üçün ictihad qapısının bağlı olduğu mənasına gəlmir. Yuxarıda qeyd olunan şərtlər bir müsəlmanda gerçəkləşdikdə, yaşanılan dövr nəzərə alınmadan həmin şəxs müctəhid hesab olunur. Çünki ictihad müəyyən bir dövrlə məhdud deyildir.

İctihad qapısı məsələsi ilə yaxından əlaqəli olan bir mövzu da hər əsrdə müctəhidin mövcud olmasının zəruri olub-olmadığı müzakirəsidir. Hənbəlilər müstəsna olmaqla digər alimlər müctəhidsiz bir əsrin ola biləcəyini ümumiyyətlə mümkün hesab edirlər. Əksəriyyət bu mövzuda, *"Allah elmi çəkib-götürməz, ancaq alimləri yavaş-yavaş çəkib-alar. Alim qalmayınca insanlar cahillərə tabe olaraq onlara soruşarlar. Onlar da fitva verirlər və beləcə həm özləri doğru yoldan çıxar, həm də başqalarını çıxararlar"* [128] hədisini, əks mövqedən çıxış edənlər də ictihadın daimiliyi fikrini sübut etmək üçün, *"Ümmətimdən bir qrup daima haqq üzrə olacaq"* [129] və *"Allah hər yüzilliyin başlanğıcında bu ümmətə dinlərini təzələyən birisini göndərəcəkdir"* [130] hədislərindən dəlil kimi istifadə edirlər.

Hicri tarixlə VII əsrdən etibarən təkrarən mütləq ictihad müsəlman alimlərin gündəliyini məşğul etmiş və bu ehtiyac dilə gətirilməyə başlanmışdı. İzzəddin İbn Əbdüssalam (vəfatı-660/1262), Təqiyyüddin əs-Sübki (vəfatı-756/1355), Təqiyyüddin İbn Teymiyyə (vəfatı-728/1327), və İbn Qəyyim əl-Cövziyyə kimi alimlər ictihad fəaliyyətinin yenidən intibahının qabaqcıllarındandır. Sözügedən alimlərin məqsədi, yerləşən məzhəb anlayışını yumşaltma və başqa məzhəblərdən də istifadə etmə yollarını açmaqdan ibarət idi.

Eyni zamanda XIX əsrdə Məhəmməd Əbdüh (?1905) kimi müasir alimlər, İslamın modern dünyanın ehtiyaclarına cavab vermə xüsusiyyəti və potensialına malik olduğunu, müsəlman aləminin geriləməsinin əsas səbəbi kimi ictihad qapısının bağlanması və təqlidin yayğınlaşmasını

128. Buxari, Elm, 34; Müslim, Elm, 13.

129. Buxari, Etisam, 10; Müslim, İmarə, 170-174.

130. Əbu Davud, Məlahim, 1.

irəli sürərək yenidən ictihad hərəkatını dirçəltmək cəhdini göstərmişdilər. Beləliklə ictihad hərəkatı müsəlman aləminin bir çox bölgələrində öz əks sədasını tapdı. Odur ki, müsəlman ziyalılar müstəqil ictihadın sadəcə əvvəlki nəsillərə aid olmadığını, ictihadın onların nəyin ki, hüququ hətta dini məsuliyyəti olduğunu dilə gətirməyə başladılar. Müasir İslam filosoflarından hesab olunan Məhəmməd İqbal (?1938) da bu hərəkatın qabaqcıllarından idi. Onun rəyinə görə, yeni nəsildən olan İslam hüquqşünasları fiqhi əsasları öz təcrübələri və dəyişən həyat tərzi əsasında təkrarən ələ almaları zəruridir.

### İ. İctihadın hökmü

İslam hüquqşünası daha əvvəl də qeyd olunan şərtləri öz şəxsində cəmləşdirərək ictihad səlahiyyətinə sahib olduqdan sonra ictihadi mövzular çərçivəsində bir məsələ ilə qarşılaşdıqda mütləq ictihad etməlidir. Müctəhid, dəlilləri araşdıraraq şəri hökmü əldə etmək məcburiyyətindədir. Həqiqətən də İslam ümməti, İslam hüququnu düzgün başa düşən geniş dünyagörüşü olan, ümmətin ehtiyac duyduğu mövzularla yaxından maraqlanan və bilən alimlərə möhtacdır. Məhz bu səbəblə ictihad, bölgələrə və vəziyyətə görə ümmət üzərinə fərzi-kifayədir. Odur ki, hər cür imkan olduğu halda ictihad mövzusunda səhlənkarlıq göstərilərək yerinə yetirilməzsə, bütün ümmət günahkar olar. Bütün alimlər, ictihadın *“Ey bəsirət sahibləri, ibrət alın!”* [131] ayəsindəki əmrin əhatəsinə daxil olduğunu yekdilliklə qəbul etmişdirlər.

Hz. Peyğəmbər də müctəhid ictihadında düzgün qərar vermişsə ictihad etdiyi və düzgün qərar verdiyi üçün iki, yanılıbsa ictihad etdiyi üçün bir savab qazanacağını vurğulayaraq, müsəlmanları ictihada təşviq etmişdir.[132]

Onu da qeyd etmək lazımdır ki, müctəhidin ictihad edərək əldə etdiyi hökm, onun gəldiyi qənaətə görə, Allahın o məsələdəki hökmüdür. Odur ki, müctəhid, Allahın hökmü olduğu qənaətinə gəldiyi bu nəticəyə tabe olmalıdır. Sözügedən hökmü tərk edərək başqa müctəhidi təqlid edə bilməz. Bu mövzuda İslam hüquqşünasları həmfikirdir. Çünki başqasının rəyi də

131. Həşr, 59/2.

132. Bax. Buxari, Etisam,21; Müslim, Əqziyə,15; Əbu Davud, Qəza, 2; Tirmizi, Ehkam, 2; İbn Macə, Ehkam, 3.

zənnə əsaslanır. Bir müctəhidin öz zənnini tərk edərək başqasının zənninə görə əməli etibarsızdır. Ancaq digər müsəlmanlar baxımdan müctəhidin gəldiyi nəticə əsas olmayıb ona əməl etmələri də vacib deyildir. Bununla yanaşı ictihad dərəcəsində olmayanlar onun ortaya qoyduğu hökmə əməl edə bilərlər. Çünki Qurani-kərimdə buyurulur: *"Əgər bilmirsinizsə, zikr (kitab, elm) əhlindən soruşun!"* [133]

## II. TƏQLİD

Bu başlıq altında təqlidin tərifi, tarixçəsi və hökmü haqqında ümumi məlumat veriləcəkdir. Belə ki, təqlidin tarixçəsi haqqında müxtəsər məlumat verdikdən sonra alimlərin təqlid haqqındakı fikirlərini bildirərək hökmü haqqında məlumat verilməyə səy göstəriləcəkdir. Ancaq çox uzun münaqişələri qeyd etmək əvəzinə mövzunun xülasəsi qeyd olunacaqdır.

### A. Təqlidin tərifi və tarixçəsi

Təqlid (التقليد) lüğətdə, bir kəsin özünə və ya başqasına boyunbağı taxmaq deməkdir. Fihq-üsulu terminologiyasındakı mənası, bir sözü dəlilsiz qəbul etməkdir. Buradan aydın olur ki, təqlid, kitab, sünnə, icma dəlillərindən xəbərsiz, bir müctəhid və ya təqlidçinin sözünü qəbul edərək ona əməl etməkdir. Təqlid edənə "müqəllid" (təqlidçi) deyilir. Təqlidçi dəlilə yox, hökmü çıxaran alimə etimad edir. Fəqət dəlillərinə nəzər salaraq müctəhidin ictihadına iştirak etmək surəti ilə onun rəyini mənimsəmək təqlid yox "ettibadır" (tabe olma).

Klassik İslam hüquq tarixi mənbələrinə görə, hicri təqvimlə IV əsrdən etibarən fiqh, geriləməyə başlamışdır. Bir sıra sahədə elm və fikir inkişaf etməsinə baxmayaraq fiqhdə geriləmə hətta düzgün yoldan çıxma meydana gəlmişdir. Belə ki, təqlid ruhu hər tərəfi öz cənginə almış və məzhəb təəssübkeşliyi həddindən artıq qüvvətlənmişdir. O dərəcədə ki, məzhəb imamının rəyinə zidd düşən nəsdəndəlil olmasına rəğmən, imamın rəyini müdafiə etmişlər, mütləq ictihada qarşı cəbhə almışlar, məzhəb təqibçiləri

133. Nəhl, 16/43.

ələlxüsus hənəfilərlə şafilər ifrata varmışlar və bu, müsəlmanların birliyinə xələl gətirmişdir.

Təqlidin yayılma səbəbləri arasında, imamların yetişdirdikləri böyük tələbələrin, ustadlarının metod və rəylərini müdafiə edərək inkişaf etdirmələri, onların metodlarını cəmləşdirərək hökmləri əldə etməyi asanlaşdırmaları və bunun tənbəlliyə səbəb olması, qazılıqlara məlum məzhəblərdən fəqihlərin təyinatı, ümumiyyətlə bir ölkədə eyni məzhəbdən olan qazıların təyini, mədrəsələri sultan və vəzirlərin müəyyən məzhəb mənsublarının əlinə verməleri sayıla bilər. Bu vəziyyət IV əsrdə başlayıb günümüzə qədər davam etmişdir. Bu əsrdə hərçənd ki, mütləq müctəhid səviyyəsində alimlər yetişmişdir, ancaq onlar özlərini büruzə verməmək və məzhəb mənsubu müctəhidi kimi elmi tədqiqatlarını aparmaq məcburiyyətində qalmışlar.

### B. Təqlidin hökmü

İctihad səlahiyyətinə malik olan hər kəsin bir məsələ ilə qarşılaşdıqda, o mövzuda ictihad etməsi və ictihadının nəticəsində əldə etdiyi hökmə tabe olması vacibdir. Həmin mövzuda öz qənaətini tərk edib başqasını təqlid etmək caiz deyildir. Ancaq ictihad dərəcəsinə çatmamış şəxsin əməli hökmlərdə başqasını təqlid etmə mövzusunda üləmanın rəylərini ifratçı və mötədil olaraq iki qismə ayırmaq mümkündür:

**1. İfratçı:** Bu qrupdakı alimlər də öz növbəsində iki qismə bölünür. Birincisi təqlidi haram sayarkən, ikincisi bunun tam əksini iddia edərək təqlidi vacib hesab etmişdir. Belə ki, başda İbn Həzm olmaqla birinci qrupdakı alimlər, təqlidin haram olduğu fikrini irəli sürmüşdürlər. Çünki hər mükəlləfin (yetkinlik yaşına çatan, dini əmr və qadağalara əməl etməsi vacib olan hər bir müsəlman), qarşılaşdığı dini məsələlərdə öz başına ictihad etməsi və şəri dəlilləri araşdırdıqdan sonra gəldiyi ictihadi nəticəyə əməl etməsi vacibdir. İkinci qrupdakı alimlər isə, təqlidin vacib olduğunu və ictihad qapısının bağlandığı fikrini mənimsəmişdirlər. Belə ki, müctəhid imamların dövründən sonra ictihad etibarsız hesab olunur. Məhz bu səbəblə də onlar təqlid olunmalıdır rəyini irəli sürərək bir-birinə zidd iki mövqedən çıxış edən ifratçılar ortaya çıxmışdır.

Onu da qeyd etmək lazımdır ki, müəyyən bir məzhəbi və ya müctəhidi təqlid etməyin vacibliyinə dair hər hansı bir dəlil yoxdur. Qurani-kərimdə Uca Allah özünə və peyğəmbərinə itaət etməyi əmr etmişdir.[134] Məhz buna görə də bütün üləma, peyğəmbər müstəsna, heç kəsin xətasız və məsum olmadığı fikrində həmrəydir. Bununla yanaşı hicri IV əsrdən əvvəl müsəlmanlar, müəyyən bir məzhəbi təqlid etmirdilər. Fiqhi sadəcə bir məzhəbə görə öyrənmək və ancaq o məzhəbin rəylərini mənimsəmək kimi anlayış yox idi. O dönəmdə xalq bilinməyən bir məsələ ilə qarşılaşdıqda məzhəb nəzərə alınmadan bir qazıya soruşaraq məsələni öyrənirdilər.

Odur ki, bütün bunları nəzərə alan fiqh imamları da özlərini kor-koranə təqlidi tamamilə məzəmmət etmişdirlər. Məsələn, Əbu Hənifə (vəfatı-150/767) bir məsələ haqqında fitva verərkən belə deyir: “Bu mənim rəyimdir. Bu günə qədər qarşılaşdığım fikirlərin ən yaxşısı budur. Kim bundan daha yaxşısını irəli sürərsə, ona tabe olmaq daha düzgündür.” “Dəlilimdən bixəbərin, mənim sözümə əsaslanaraq fitva verməsi doğru deyildir.” ”İmam Şafi də belə deyir: “Mənim fikrimə zidd səhih hədis gördükdə mənim rəyimi alıb divara çırpın.” Eyni zamanda İmam Şafinin tələbəsi olan Müzeninin (vəfatı-264/877) dediyinə görə İmam Şafi, elm tədrisinə başlamazdan əvvəl özünü və ya başqasını təqlid etməməyi tənbeh edərdi. İmam Malik (vəfatı-179/795) deyir: “Mən sadəcə bir bəşərəm. Düzgün də deyə bilərəm, xəta da edə bilərəm. Bu səbəblə mənim fikirlərimi Quran və Sünnə ilə qarşılaşdırın.

**2. Mötədil:** Bu qrupdakı alimlər bilavasitə vacib və ya haram hökmünü vermək əvəzinə, bəzi şərtlər əsasında məsələyə aydınlıq gətirmişdirlər. Müctəhid səviyyəsində olmayanlar, dəlili araşdırma imkanları olduqda araşdırmadan birbaşa təqlid, həmin şəxslər üçün caiz deyildir. Ancaq araşdırma imkanı olmayanlar, yəni dəlil tapmaq və anlamaq imkanı olmayanlar, bəzi şərtlər altında alimləri təqlid edə bilərlər. Sözügedən şəxslər təqlid edərkən xüsusilə aşağıda sadalanan şərtlərə əməl etməlidir:

a) Təqlid etdiyi şəxsin alim və ədalətli olduğuna yəqin etməlidir.

b) Təqlid olunan mövzu “zərurəti-diniyyədən” olmamalıdır. Məsələn, beş dəfə namaz, oruc, həcc və zəkatın vacibliyi və ya zina, içki və

134. Nisa, 4/80; Ənfal, 8/46; Nur, 24/54.

sələmin (faiz, riba) haramlığı kimi hamının bilməli olduğu məsələlərdən olmamalıdır.

c) Təəssübkeşlikdən tamamilə uzaq durmalıdır. Belə ki, təqlid etdiyi alimin xəta edə biləcəyini qəbul etməlidir. Odur ki, onun rəyinə zidd olan səhih bir nəss ilə qarşılaşdıqda alimin rəyini tərk edərək nəssi əsas almalıdır.

### C. Şiə məzhəblərinə görə ictihad və təqlid

### 1. İctihad

Məlum olduğu kimi ictihad termini, ümumi olaraq nəslərə istinad edərək ağlın istifadə edilməsini ifadə edir. Ictihad yerinə bəzi hallarda "rəy" kəlməsilə yanaşı, bəzən də "ictihadur-rəy" ifadəsi də işlənilir.

Ictihadın forması, növləri və sahəsi kimi mövzularda əhli-sünnə üsulşünaslar fərqli görüşlər irəli sürmüşdürlər. Belə ki, bir məsələ haqqında açıq nəss olmadıqda ictihadın dövrəyə girə biləcəyini qəbul edərlər. Əhli-şiə alimləri isə əhli-sünnənin rəy və qiyas anlayışına qarşı çıxmış və ictihad terminini etibarlı hökm çıxartma metodu kimi qəbul etməmişdirlər. Onlara görə kitab və sünnədəki ümumi hökmlər hər zaman üçün müsəlmanların dini ehtiyaclarını təmin etmək üçün kifayət edir, rəyə və qiyasa ehtiyac yoxdur. Bu səbəblə Tusi "Bizə görə qiyas və ictihad dəlil deyildir. İşlədilməsi qadağandır..." demişdir.

Imamiyyənin əxbari qoluna görə, şəri hökmlərin dəlilləri, sünnə və onun vasitəsilə idrak edilən Qurani-kərimdən ibarətdir. Sünnə isə Hz. Peyğəmbər və on iki imam olaraq adlandırılan və məsum olduqlarına inanılan şəxslərin söz, fel və təqrirləridir. Bunlara görə insanların yer üzərində yaşadıqları müddətcə möhtac olduqları bütün açıqlamaları bu mənbələrdə vardır. Odur ki, aydırca ağılaŞ ictihad və qiyasa ehtiyac yoxdur və bunlar şəri dəlil deyildir. Tusinin də mənsubu olduğu üsulilərə görə isə, kitab və sünnə bütün hökmləri açıqlamamışdır. Cəfər əs-Sadiq ictihadı təşviq etmişdir. Ancaq o və digər imamlar həyatda ikən ehtiyac hiss edilməyəcəyinə görə ictihaddan, on ikinci imamın qeybə çəkilməsindən sonra istifadə edilməklə kitab və sünnəyə istinad edərək lazımi hökmlər çıxarılmalıdır.

Şiə məzhəblərinə görə ictihad haqqında söz edərkən bu məzhəbin ictihada verdiyi mənanı düzgün müəyyən etmək lazımdır. Çünki ictihad qapısının bağlanmadığına inanan, ictihadı canlı tutan, vacib görən və məzhəbin xüsusiyyətlərindən biri kimi qəbul edən bir məzhəbin ictihadın tamamını rədd etməsi təsəvvür edilməməlidir. Belə ki, əhli-şiə müəlliflərinin sözlərinə görə imamiyyə məzhəbinə mənsub üsulşünaslar XIV əsrə qədər *şəxsi qənaətə görə hökm vermə* kimi başa düşdükləri ictihadı qəbul etməmiş və ona mənfi məna nisbət etmişdirlər. Bu dövrdən sonra isə *nəslərdən hökm çıxarma metodu* mənasında anladıqları ictihadı mənimsəmişdirlər. Əsas etibarilə şiə məzhəblərinin qiyas və rəyə qarşı çıxmalarının iki təməl səbəbi varıdır. Bunların biri, əhli-beyt imamları tərəfindən qəbul edilməyən, ancaq qiyas və rəyi qəbul edənlər tərəfindən irəli sürülən "Kitab və sünnənin hökm qoymada eyni mənbələr olmadığı" iddiasıdır. Digəri isə, qiyasın zənnə istinad etməsi və xəta ehtimalının olması təsəvvürüdür.

Əhli-sünnə üsulşünasların ictihadı dar və geniş olmaqla iki mənada işlətdikləri məlumdur. Geniş mənası ilə ictihad, "şəri hökmü müvafiq dəlillərdən çıxara bilmək üçün müctəhidin səy göstərməsidir" deyə tərif edilmişdir. Şiə-imamiyyənin üsuli ekoluna mənsub bəzi üsulşünasların şəri hökmü əldə etmə və fitva vermə üsulları, bu geniş mənadakı ictihad ilə paralellik təşkil edir. Məsələn, Mühəqqiq əl-Hilli (vəfatı-675/1277) ictihad kəlməsini qiyas və rəydən fərqli olaraq bu geniş mənada işlətmişdir. Onun tərifinə görə ictihad, *zənnə istinad edən şəri məsələlərin hökmünü əldə edə bilmək üçün düşünmə qabiliyyətini son həddə qədər işlətməkdir.*

Əhli-sünnə üsulşünaslar başdan etibarən ictihadı mənimsəyərək sistemləşdirmişdirlər. Hətta ilk üç nəsil arasında qiyas və ictihadın caiz olduğu məsələsində bir ixtilafın olmadığını irəli sürən üsulşünaslar da vardır. Ictihadı mənimsəyib istifadə edən əhli-sünnə üsulşünaslarının bu mövqeyi əsassız deyildir. Onlar başda Muaz b. Cəbəl hədisi [135] olmaqla müctəhidə həm yanlış, həm də doğru fitva verdiyi halda savab qazanacağını ifadə hədisə və İslam ümmətinin yanlış bir şey üzərində ittifaq etməyəcəyini bildirən hədislərə əsaslanaraq ictihad metodunu şəri üsul olduğunu mənimsəmişdirlər.

135. Bax. Əbu Davud, Əqziyə 11; Tirmizi, Əhkam, 3.

Əhli-şiə alimləri isə ilk dövlərdə bu mövzuya bitərəf münasibət göstərərək ictihadı rədd etmişdir. Onların qiyası qəbul etməmələrini əqidə məsələsindən çox reaktiv münasibətin nəticəsi kimi izah etmək mümkündür. Çünki, şiə məzhəblərinə görə Hz. Peyğəmbərin həm siyasi həm də hökm vermə səlahiyyəti "məsum imam" anlayışı ilə davam etdirilmiş və nəss dönəmi on iki imama qədər sürmüşdür. Odur ki, onların həyatda olduğu dövrlərdə ictihada ehtiyac olmamışdır.  Çünki onların görüşləri mübahisəsiz hüccə sayılmışdır. Ancaq şiə-imamiyyənin üsuli qoluna mənsub bəzi üsulşünasların səyləri ilə ictihad düşüncəsi mənimsənmişdir. Bu düşüncənin təşəkkül tapmasında Tusinin əhəmmiyyətli rolu olduğu qeyd olunur. Ancaq onun yaşadığı dövrdə rəy, ictihad və qiyas kəlmlərinə verilən məna klassik şiə düçüncəsi ilə uyğunluq təşkil etmədiyinə görə Tusi açıq şəkilədə ictihad və qiyasa qarşı çıxmış və bunun dəlil olmaycağını irəli sürmüşdür. Tusidən sonrakı dövrdə, imamın qeybə çəkilməsi dönəmində fəqehlər tərəfindən yerinə yetirilməsi qəbul edilmişdir. Nəticədə şiə-cəfəri üsulşünası Mühəqqiq əl-Hilli və onun yolundan gedənlər sünni nəzəriyyəyə yaxın bir ictihad düşüncəsi formalaşdırmışdırlar.

**Peyğəmbərin icithadı**

Əhli-şiə alimlərinə görə Peyğəmbərin ictihadı caiz deyildir. Çünki, Hz. Peyğəmbərin nəsləri izahı ağıla deyil, vəhyə istinad edir. Onlar, Nisa surəsinin 105-ci ayəsindən[136] hərəkətlə Hz. Peyğəmbərin ictihad yolu ilə heç bir şey söyləmədiyinə inanırlar. Hz. Peyğəmbərin və məsum imamın ictihad etmələrininin caiz olmadığını deyən şiə məzhəblərinin əsas arqumenti budur: İctihad, doğru olduğu qədər xəta ehtimalı da olan bir fəaliyyətdir. Hz. Peyğəmbərin və məsum imamların isə xəta etməsi təsəvvür belə edilməz. Peyğəmbərin ictihadını caiz görməyən Tusiyə görə alimlərin ictihad etməsi caizdir. Bunların ictihadlarının sahəsi və funksiyası, təzad təşkil edən dəlillər arasından birini seçmək, kitab və sünnənin ümumi hökmlərini incələyərək hökm çıxarmaqdır. İslam alimlərinin əksəriyyətinə görə dövlət idarəsi, məhkəmə, ordu idarəsi, təsərrüfat işləri kimi bir başa peyğəmbərlik sahəsinə daxil olmayan məsələlərdə ilahi təlimat olmadan Hz. Peyğəmbər öz bilik və təcrübəsi ilə hökm vermişdir. Bununla bərabər şəri məsələlərdə

136. "(Ya Rəsulum!) Həqiqətən, Biz sənə Quranı haqq olaraq nazil etdik ki, Allahın sənə göstərdiyi (öyrətdiyi, bildirdiyi) ilə insanlar arasında hökm edəsən. Xainləri müdafiə edən (onların xeyrinə mübahisə aparan) olma!"

də Hz. Peyğəmbərin ictihadının caiz olduğunu irəli sürən üsulşünaslar üstünlük təşkil edir. Dəyişən həyat şərtlərinə dinin cavab verə bilməsi daha çox ictihad vasitə ilə mümkün ola bilər. Əsas etibarilə şiənin ictihad qapısını açmamasının arxa planında məsum imam anlayışı və imamların yüksək mərtəbələrinin qorunması məsələləri durur. Hz. Peyğəmbər həyatda ikən səhabənin ictihad etməsi məsələsi də əhli-sünnə üsulşünasları arasında ixtilaflı mövzulardan biridir. Əhli-sünnə üsulşünaslarının əksəriyyətinə görə Hz. Peyğəmbərin yaşadığı dövrdə səhabənin ictihad etməsi mümkündür. Ancaq səhabənin ictihadının praktiki olaraq meydana gəlib-gəlməməsi məsələsində ixtilaf edilmişdir. Hənəfilər də daxil olmaqla cümhura görə Hz. Peyğəmbərin hüzurunda səhabənin ictihadı yalnız onun açıq icazə verməsi şərti ilə caizdir. Bunu Hz. Peyğəmbərin, səhabəsini yetişdirmə məqsədinin bir parçası olaraq görmək lazımdır. Əhli-şiə alimlərinini səhabənin ictihadını qəbul etməməsinin ən vacib səbəblərindən biri, öz dini təsəvvürlərinin bir qisminə zidd səhabə ictihadlarının mövcudluğu və bunların əhli-sünnə məzhəbləri tərəfindən qəbul edilməsidir.

**2. Təqlid**

İmamiyyəyə görə əqaid və zərurati-diniyyə mövzularında prinsip etibarilə təqlid caiz deyildir. Ancaq Tusiyə görə bunun kimi üsul mövzularında da doğru yol tutan bir müctəhidi təqlid edən şəxs, təqlid etməklə xəta etmiş sayılsa da bundan ötrü hesaba çəkilməz və bağışlanar. Çünki, müctəhd imamların bunu qadağan etdiklərinə dair bir dəlil yoxdur. Tusi *əl-Uddə* adlı əsərinin nüsxələrindən birində bu görüşdə olduğunu qeyd edir:

“Bu mövzuda irəli sürdüyümüz görüşlərin ən qüvvətlisi budur: Əgər mükəlləf qısa və təfərrüatlı olaraq hökmləri əldə etmə qüdrətinə malikdirsə üsul mövzularında bir başqasını təqlid etməsi caiz deyildir. Bu mövzuda hökm əldə etmə gücünə malik olmayan insan isə tamamilə mükəlləf olmayan və məsuliyyət daşımayan heyvan hökmündədir.”

Füru məsələlərində isə hökmü birbaşa əldə etmə imkanına sahib olan şəxsin bu imkana sahib olan başqa bir şəxsi təqlid etməsi caiz deyildir. Ancaq hökmü tək başına araşdırma və əldə etmə imkanına sahib olmayanlar bir alimi təqlid edə bilərlər. Çünki, Hz. Əlidən etibarən imamiyyə məzhəbinə mənsub olanlarların əksəriyyəti alimlərinə müraciət edib onlardan fitva istəmiş, məsum imamlar bunu xoş görərək hökm və ibadət mövzularında

soruşulan suallara uyğun fitvalar vermişdirdirlər. Tusi, açıqca qeyd etməsə də üstü örtülü olaraq imamiyyədə təqlid ediləcək şəxsin bu məzhəbin mənsubu və yaşayan bir müctəhid olmasını şərt qoşar.

## III. TƏLFİQ

Bu başlıq altında təlfiqin müxtəlif tərifləri, mahiyyəti və hökmü haqqında ümumi məlumat veriləcəkdir. Müxtəlif təriflər arasında əsasən “təqliddə təlfiq” mövzusu ələ alınacaqdır. Eyni zamanda təqlidin hökmü mövzusunda xüsusilə müasir alimlərin müxtəlif fikirləri qeyd olunacaqdır.

### A. Təlfiqin tərifi və mahiyyəti

Təlfiq (التلفيق) lüğətdə, parçanın iki kənarını birləşdirib-tikmək mənasına gəlir. Fiqh və fiqh-üsulu terminologiyasında təlfiq üç müxtəlif mənada istifadə olunmuşdur:

1) Fiqh əsərlərində təlfiq kəlməsi bəzən, ictihadi ixtilafdan əmələ gələn iki müxtəlif hökmü birləşdirərək tətbiq etmək kimi istifadə edilmişdir. Məsələn, “and içmə kəffarəsində on fağırın bir qismini yedizdirmək, qalanlarını da geydirərək təlfiq etmək caiz deyildir” hökmü verilərkən sözügedən təlfiq qəsd olunmuşdur.

2) Fiqh-üsulu kitablarında təlfiq bəzən, bir məsələdə əvvəlki müctəhidlərin səsləndirmədiyi və onların fikirlərinə tamamilə zidd düşən yeni bir fikir ortaya qoymaq mənasında istifadə olunmuşdur. Bu məsələ daha çox icma bəhsində ələ alındığı üçün ictihad mövzusu ilə əlaqəlidir. Buna “ictihadda təlfiq” deyilir.

3) Fiqh və fiqh-üsulu kitablarında, təlfiq deyildikdə ən əvvəl ağla gələn məna “təqliddə təlfiqdir.” Belə ki, müəyyən bir məsələdə bir çox ictihadi rəyə birlikdə əməl edərək bu müctəhidlərdən heç birinin qəbul etmədiyi mürəkkəb bir vəziyyətin əmələ gəlməsidir. Məsələn, Hənəfi məzhəbində yetkinlik çağına çatmış bir qızın nikah əqdinin etibarlılığı üçün valideynin icazəsi şərt deyildir. Digər məzhəblərdə şərtdir. Maliki məzhəbində nikah əqdində şahidlər və Şafi məzhəbində mehrin müəyyənləşdirilməsi şərt

deyildir. Ancaq mehrin müəyyənləşdirilməsi Maliki məzhəbində şərtdir. Evlənmək istəyən bir gənc oğlan və qız heç bir dəlilə əsaslanmadan, tamamilə özlərinə əl verdiyi üçün sözügedən üç məzhəbi cəm edərək valideyndən icazəsiz, şahidsiz və mehirsiz nikah kəsdirməklə təlfiq etmiş sayılırlar. Burada əsasən bu növ təqliddən bəhs olunacaqdır.

Təlfiq məsələsi VII əsrdən etibarən müzakirə obyektinə çevrilmişdir. Sözügedən məsələ haqqında səlahiyyətləri olmadığı halda təqlidçilər münaqişə edərək müsbət və ya mənfi fikir səsləndirmişlər.

**B. Təlfiqin hökmü**

Tədqiqatçı alimlər və xüsusilə müasir tədqiqatçılar bu mövzuda bəzi qeyd-şərtlər qoymuş və həmin şərtlərə riayət olunması ilə təlfiqin caiz olduğu qənaətinə gəlmişdirlər. Sözügedən şərtlər aşağıdakılardır:

1) Təlfiqə ehtiyac duyulmalı.

2)Daim asan hökmləri alaraq dini həyatı öz kefinə görə formalarşdırmamalı.

3) Təlfiq "qanuna qarşı hilə" məqsədini güdməməli.

4) Halal və haram məsələlərində ehtiyata riayət olunmalıdır.

İslam konfransı təşkilatı nəzdindəki İslam Fiqh Akademiyası 21-27 iyun 1993-cü ildə Bruney Darussalamda keçirilən VIII yığıncaqda qəbul etdiyi 1 nömrəli qərarında, fiqh məzhəblərinin asan olan hökmlərini götürüb tətbiq edərkən, yuxarıda sadalanan şərtlərə əməl olunmasına diqqəti cəlb etmiş və xüsusilə hər bir kəsin təlfiq edərkən özünü vicdanən rahat hissetməsinin vacibliyinə işarə etmişdir.

Təlfiqi gerçəkləşdirən hər bir şəxs ələlxüsus yuxarıda qeyd olunan ikinci şərtə əməl etmir. Çünki müxtəlif məzhəblərdəki asan hökmləri götürərkən, onu buna yönəldən amil əsasən "asanlıq" fikridir. Buna görə də diqqət yetirilməlidir ki, İslam dinindəki "asanlaşdırma" prinsipi, məqsədəuyğun istifadə olunduqda öz hədəfinə çatmış olur. Lakin həmin prinsip şəxsi arzulara vasitə kimi istifadə olunarsa, öz hədəfindən çıxmış və dini həyat da  şəxsin öz kefinə görə formalaşdırılmış olur.

Onu da qeyd etmək lazımdır ki, təlfiqi caiz hesab edən alimlər, əsasən əməldən sonra olmamasını da tənbeh etmişdirlər. Belə ki, bir müctəhidin rəyinə görə ibadət etdikdən sonra məsələn, nikah, talaq (boşanma) kimi bir müamilə icra edildikdən sonra bundan vazkeçib bir başqa müctəhidin əks mövqedəki rəyinə görə eyni müamiləni təzədən icra etmək kimi iki zidd davranışa əsla yol verilməməlidir.

Müasir dövrün görkəmli İslam hüquqşünaslarından hesab olunan Yusif əl-Qərdavi *Fitvalar* adlı əsərində təlfiq mövzusuna öz münasibətini bildirmişdir. Onun fikrinə görə təlfiq edərək insan, məzhəblərin asanlıq təşkil edən yönlərini götürərək öz nəfsinin arzusuna tabe olur və bu mövzuda heç bir dəlilə əhəmiyyət vermirsə, qətiyyətlə caiz deyildir. Bir mömin məzhəbləri əsla öz nəfinə xidmət etdirməməlidir. İstər lehinə, istər əleyhinə olsun haqqın tərəfində olmalıdır. Dini oyuncaq etməməlidir.

Ancaq bir müsəlmanın dəlilləri araşdırma nəticəsində öz rəyinə görə daha güclü dəlilə əsaslanaraq müxtəlif məzhəb fikirlərinə tabe olmasında hər hansı problem yoxdur. Belə ki, bir şəxs, dəlilləri araşdıraraq həmin dəlillərə qane olmaq surəti ilə “qadına təmasla dəstəmaz pozulmaz” deyən Hənəfi məzhəbini, bununla yanaşı “qanın axması dəstəmazı pozmaz” deyən Şafi məzhəbini və “su dəyişikliyə uğramadıqca nəcis deyildir” deyən Maliki məzhəbini eyni zamanda təqlid edə bilər.

# FİQH ÜSULU (SXEM)

## ŞƏRİ HÖKMLƏRİN DƏLİLLƏRİ

(İslam hüququ mənbələri)

**I. İttifaq edilən dəlillər**

(Əsli dəlillər)

- KİTAB
- SÜNNƏ
- İCMA
- QİYAS

**II. İxtilaflı dəlillər**

(Fəri dəlillər)

- MƏSALEHİ-MÜRSƏLƏ
- İSTEHSAN
- ADƏT-ƏNƏNƏ
- SƏDDİ-ZƏRAİ
- ŞƏRU MƏN QƏBLƏNA
- SƏHABƏ-QÖVLİ
- İSTESHAB

## I.ŞƏRİ DƏLİLLƏRDƏN ÇIXARILAN HÖKMLƏR

**A.TƏKLİFİ HÖKMLƏR**

- VACİB
- MƏNDUB
- MƏKRUH
- MÜBAH
- HARAM (MƏHZUR)
- ƏZİMƏT və RÜXSƏT

**B. VƏZİ HÖKMLƏR**

- İLLƏT
- ƏLAMƏT
- SƏBƏB
- RÜKN
- ŞƏRT
- MANE
- SƏHHƏT-FƏSAD-BÜTLAN

**II. ƏL-HAKİM**
(Hüsn və Qübh nəzəriyyəsi)

**III. ƏL-MƏHKUM FİH**
(M. Felləri)

**IV. ƏL-MƏHKUM ƏLEYH** (Mükəlləf)
– ƏHLİYYƏT

## MƏNBƏLƏRDƏN HÖKM ÇIXARMA METODLARI

**I. Ləfzi üsul qaydaları (istinbat metodları)**

**A. Vəz olunduğu məna baxımından ləfz**
**(Şümul yönündən ləfzlər)**

- XAS
- AMM
- MÜŞTƏRƏK
- MÜƏVVƏL
- MÜNƏKKƏR CƏM

**B. İşlədildiyi məna baxımından ləfz**

- HƏQİQƏT
- MƏCAZ
- SƏRİH
- KİNAYƏ

**C. Mənaya dəlalətinin açıqlıq və qapalılıq baxımından ləfz**

Hənəfilərə görə AÇIQLIQ baxımından ləfzin növləri

- ZAHİR
- NƏSS
- MÜFƏSSƏR
- MUHKƏM
- TƏVİL

Hənəfilərə görə QAPALILIQ baxımından ləfzin növləri

- XƏFİ
- MÜŞKİL
- MÜCMƏL
- MÜTƏŞABEH

**4- Mənaya dəlalətinin şəkli baxımından ləfz**

- İBARƏNİN DƏLALƏTİ
- İŞARƏNİN DƏLALƏTİ
- NƏSSİN DƏLALƏTİ
- İQTİZANIN DƏLALƏTİ

Hənəfilər xaricindəkilərə görə dəlalətin növləri

- DƏLALƏTÜL-MƏNTUQ
- DƏLALƏTÜL-MƏFHUM
- MƏFHUMUL-MÜVAFİQƏ
- MƏFHUMUL-MÜXALİFƏ

**II- Təaruzul-ədillə və həll yolları**

– HÖKMLƏRİN QAYƏLƏRİ (MƏQASİD)
– DƏLİLLƏRİN TƏZADI
– NƏSX
– TƏRCEH
–CƏM və TƏVAFÜQ
–TƏSAQÜT

## İCTİHAD VƏ TƏQLİD

–İCTİHAD
–TƏQLİD
–TƏLFİQ